RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 124 (9291) 13 İYUN 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Azərbaycan-Rusiya münasibətləri möhkəm təməl üzərində uğurla inkişaf edir



### Rusiya Federasiyasının Prezidenti zati-aliləri cənab Vladimir Putinə

Hörmətli Vladimir Vladimiroviç!

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizi və Sizin simanızda bütün rusiyalıları dövlət bayramı - Rusiya Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanı və Rusiyanı xalqlarımız arasındakı çoxəsrlik dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək ənənələri bağlayır. Bu gün bizim dövlətlərarası əlaqələrimiz, gündən-günə yeni sahələri əhatə edən sıx və etibarlı tərəfdaşlıq münasibətlərimiz bu möhkəm təməl üzərində uğurla inkişaf edir.

Böyük məmnuniyyətlə Azərbaycan-Rusiya əlaqələrinin ruhunu və xarakterini əks etdirən, gələcək illər üçün çoxplanlı qarşılıqlı fəaliyyəti müəyyənləşdirən Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannaməni qeyd etmək istərdim.

Əminəm ki, biz birgə səylərimizlə bundan sonra da gələcək əlaqələrimizin möhkəmlənməsinə, ticari-iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın genişlənməsinə xalqlarımızın və ölkələrimizin tərəqqisi naminə fəal kömək edəcəyik.

Hörmətli Vladimir Vladimiroviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və uğurlar, dost Rusiya xalqına isə səadət və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyun 2023-cü il*

## Dünyanın aparıcı investisiya şirkətləri üçün Azərbaycanla əməkdaşlıq böyük önəm daşıyır



Prezident İlham Əliyev "Starwood Capital Group" şirkətinin təsisçisi və icraçı direktorunu qəbul edib

→ 2

## Ermənistan silahlı qüvvələrinin bölmələri ordumuzun Kəlbəcər rayonu istiqamətindəki mövqelərini atəşə tutublar

İyunun 12-də saat 13:35-dən saat 14:35-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zərkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Dəmirçidam yaşayış məntəqəsi istiqamətindəki mövqelərini atıcı silahlardan intensiv atəşə tutublar. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

Bundan başqa, qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri saat 11:15-dən 16:50-dək kənd təsərrüfatı işləri adı altında ordumuzun Füzuli və Laçın rayonları istiqamətlərində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

Azərbaycan Ordusunun bölmələrinin gördüyü təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

◆ Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana dövlət səfəri

# Ali qonağın şərəfinə dövlət ziyafəti











İyunun 12-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından Azərbaycan Prezidentinin dəvəti ilə ölkəmizdə dövlət səfərində olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və birinci xanım Əminə Ərdoğanın şərəfinə dövlət ziyafəti verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı və birinci xanım Əminə Ərdoğanı qarşıladılar.

Ziyafət konsert proqramı ilə davam edib.

Konsert proqramında ölkəmizin tanınmış mədəniyyət və incəsənət nümayəndələrinin ifasında Azərbaycanın və Türkiyənin xalq mahnılarından və klassik musiqilərindən nümunələr səsləndirilib.

# Qardaş gəldi

## Prezident seçkilərindəki qalibiyyətindən sonra Rəcəb Tayyib Ərdoğan ilk xarici səfərini Azərbaycana etdi

**"Biz həm dostuq, həm qardaşıq, həm də artıq rəsmən müttəfiqik. Bu siyasət bizə atalarımızdan qalan mirasdır. Atalarımızın vəsiyyətidir və biz bu vəsiyyətə sadiqik".**

Prezident İlham Əliyevin mükəmməl şəkildə ifadə etdiyi kimi, Azərbaycan-Türkiyə əbədi birliyi bu gün Yer üzündə bərabərinə rastlanmayan və örnək götürüləsi misilsiz nümunədir.

Azərbaycan və Türkiyə arasında olan bu qardaşlıq əlaqələri, heç şübhəsiz, tarixi köklərimizə, ortaq dəyərlərimizə, dinimizin birliyinə dayanır. Lakin o da danılmaz gerçəklikdir ki, iki qardaş ölkə arasında olan əlaqələrin yaranmasında və inkişafında şəxsiyyət faktorunun mühüm və inkaredilməz rolu var.

O da danılmaz faktdır ki, məhz Prezident İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında olan səmimi qardaşlıq və dostluq münasibətləri Azərbaycan-Türkiyə əlaqələrini tarixindəki ən yüksək zirvəyə, dünyaya örnək səviyyəyə ucaldıb.

### Həmrəyliyimizə tarixi xidmət

Tarixin vərəqlərini çevirdikcə qüdrətli şəxsiyyətlərimizin Azərbaycan-Türkiyə birgəliyinə xidmət edən qürurlu fəaliyyətləri ilə bağlı xeyli nümunələrlə rastlaşırıq.

XX əsrin əvvəllərində Nəriman Nərimanovla Mustafa Kamal Atatürk, sonlarında Heydər Əliyevlə Süleyman Dəmirəl, eləcə də müasir tariximizdə, yəni XXI əsrdə İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan arasında qarşılıqlı etimada dayanan münasibətlər Azərbaycan və Türkiyə arasında qardaşlıq bağlarını daha da möhkəmləndirib, sarsılmaz edib.

1921-ci ildə Nəriman Nərimanovun tapşırığı ilə Azərbaycandan Türkiyəyə qardaş əli uzadılması, müxtəlif tarixlərdə xeyli miqdarda neft, benzin, kerosin, eləcə də 500 kiloqram qızıl göndərilməsi və bu yardımlar sayəsində döyüş içində olan ölkənin vəziyyətinin xeyli düzəlməsi tarixi faktdır.

→ 3

## Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə iyunun 12-də ölkəmizə dövlət səfərinə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər qarşıladılar.

# Dünyanın aparıcı investisiya şirkətləri üçün Azərbaycanla əməkdaşlıq böyük önəm daşıyır

## Prezident İlham Əliyev "Starwood Capital Group" şirkətinin təsisçisi və icraçı direktorunu qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də dünyanın aparıcı investisiya şirkətlərindən biri olan alternativ investisiyaların idarə edilməsi üzrə "Starwood Capital Group" şirkətinin təsisçisi və icraçı direktoru Berri Sternlixi qəbul edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanda bütün sahələrdə gedən inkişaf proseslərini və qısa zaman ərzində əldə olunan uğurları qeyd edən Berri Sternlix ölkəmizin regionda böyük rola malik olduğunu dedi. Qonaq vurğuladı ki, Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə çoxillik və möhkəm əməkdaşlıq rəhbərlik etdiyi şirkət üçün böyük önəm daşıyır və onlar gələcəkdə bu əməkdaşlığın daha da dərinləşdirilməsində maraqlıdırlar.

Prezident İlham Əliyev dünyanın nəhəng və qabaqcıl maliyyə təsisatları ilə əməkdaşlıq edən Azərbaycan Respublikası Dövlət Neft Fondunun "Starwood Capital Group" şirkəti ilə sıx əlaqələrinin olmasını müsbət qiymətləndirdi və mövcud tərəfdaşlığın daha da gücləndirilməsi üçün səylərin davam etdirilməsinin önəmini vurğuladı. Prezident İlham Əliyev qeyri-sabit maliyyə bazarları dövründə də Azərbaycan Respublikası Dövlət Neft Fondunun aktivlərinin artmasının müsbət hal olduğunu dedi.

Görüşdə Azərbaycanda münbit investisiya şəraitinin mövcudluğu qeyd edildi, energetika sahəsi, xüsusilə alternativ enerji, logistika, turizm sahələrinə əlverişli investisiya qoyuluşu üçün yaxşı imkanların olduğu vurğulandı və bununla bağlı fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, alternativ investisiyaların idarə edilməsi üzrə dünyanın aparıcı investisiya şirkətlərindən biri olan "Starwood Capital Group" 1991-ci ildə təsis edilib. Şirkətin daşınmaz əmlak, kredit və enerji infrastruktur strategiyaları üzrə idarə etdiyi vəsaitlərin ümumi dəyəri hazırda 120 milyard ABŞ dolları təşkil edir. Şirkətin baş ofisi Amerika Birləşmiş Ştatlarında yerləşir və 35-dən artıq ölkəyə investisiya həyata keçirib. Hazırda portfel şirkətlərində 5 mindən artıq əməkdaş çalışır.

# Gələcəkdə Rusiyanın Zəngəzur dəhlizinin potensialından istifadə imkanları araşdırılır

## Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidentinin köməkçisini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Rusiya Federasiyası Prezidentinin köməkçisi İqor Levitini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev 12 İyun - Rusiya Günü münasibətilə təbriklərini çatdırdı.

İqor Levitin təbriklərə görə təşəkkür etdi. O, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Vladimir Putinə çatdırmağı xahiş etdi.

İqor Levitin Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək, Ulu Öndərin 100 illiyinin Rusiyada geniş şəkildə qeyd olunduğunu məmnunluqla vurğuladı.

Görüşdə Azərbaycan ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi qeyd olundu.

Söhbət zamanı "Şimal-Cənub" nəqliyyat dəhlizinin inkişafı üzrə qarşılıqlı səylərin davam etdirilməsi, yük həcmlərinin artırılması, Azərbaycan ərazisində müvafiq infrastrukturdan istifadə imkanları, müasir nəqliyyat habına çevrilən ölkəmizin ərazisindən Bakı-Tbilisi-Qars və "Şimal-Cənub" nəqliyyat dəhlizləri vasitəsilə daşımalar barədə fikir mübadiləsi aparıldı.

Gələcəkdə Zəngəzur dəhlizinin potensialından Rusiyanın istifadə imkanlarının araşdırılması ilə əlaqədar məsələlər müzakirə olundu. Azərbaycanda müasir gəmiqayırma sahəsinin imkanlarından istifadə edilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

# Qazaxıstan Respublikasının Prezidenti zati-aliləri cənab Kasım-Jomart Tokayevə

Hörmətli Kasım-Jomart Kemeleviç!

Abay bölgəsində baş vermiş güclü meşə yanğınlarının çox sayda insan tələfatına səbəb olması və ağır fəsadlar doğurması xəbəri bizi son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Qazaxıstan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

*Allah rəhmət eləsin!*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 iyun 2023-cü il*

# O.M.Mirqasımovun "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Oqtay Mirəsədulla oğlu Mirqasımov "İstiqlal" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyun 2023-cü il*

# Prezident İlham Əliyev Xalq artisti Oqtay Mirqasımova "İstiqlal" ordenini təqdim edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də görkəmli kinorejissor, ssenarist, Xalq artisti Oqtay Mirqasımova "İstiqlal" ordenini təqdim edib.



AZƏRTAC xəbər verir ki, Xalq artistini təbrik edən **Prezident İlham Əliyev** dedi:

- Hörmətli Oqtay müəllim, bu gün sizin yubileyinizdir. Bu yubiley münasibətilə sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram.

Siz uzun illərdir kino sənətinin inkişafında çox fəal işləyirsiniz. Son illər ərzində Azərbaycanda gördüyünüz işlər hamımızı çox sevindirir. Siz həm görkəmli rejissor kimi, həm pedaqoq kimi böyük şöhrət qazanmısınız. Azərbaycan kinosunun inkişafında sizin çox böyük rolunuz vardır.

**Oqtay Mirqasımov:** Minnətdaram.

**Prezident İlham Əliyev:** Eyni zamanda ictimai həyatda da fəalsınız, həmişə öz vətəndaşlıq mövqeyinizi bəyan etmisiniz. Cəmiyyəti narahat edən məsələlərlə bağlı sizin dəyərli fikirləriniz çox böyük önəm daşıyır.

Sizin fəaliyyətiniz Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilib. Siz 2003-cü ildə "Şöhrət", 2018-ci ildə "Şərəf" ordeni ilə təltif olunmusunuz. Bu gün - yubileyiniz olan gündə siz Azərbaycan dövlətinin yüksək ordeni olan "İstiqlal" ordeni ilə təltif edilirsiniz. Mən sizi ürəkdən təbrik etmək və bu ordeni sizə təqdim etmək istəyirəm.

* * *

Dövlət başçısı "İstiqlal" ordenini Oqtay Mirqasımova təqdim etdi.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Oqtay Mirqasımov:** Siz həm gözəl sərkərdə, gözəl siyasətçi, sözündən dönməyən kişisiniz. Bu keyfiyyətlər bizim üçün önəmlidir. Biz uşaqlıqdan belə böyümüşük - həmişə əsgər, qəhrəman bizim üçün kumir olub. Allah razı olsun. Siz böyük Heydər Əliyevin - atanızın oğlusunuz. Bu, çox böyük bir işdir və adama nə qədər ruh verir. Bunu hər kəs bilir.

**Prezident İlham Əliyev:** Çox sağ olun, təşəkkür edirəm. Xoş sözlərə görə minnətdaram.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Syerra-Leone Respublikasının hökuməti və xalqı adından, şəxsən öz adımdan Sizi və Sizin simanızda Azərbaycan hökumətini və xalqını səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar gün münasibətilə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan hökumətinə və xalqına isə firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Culius Maada BİO,***
***Syerra-Leone Respublikasının Prezidenti***

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Şadam ki, Sizin simanızda Rusiyanın etibarlı müttəfiqi vardır. Ölkələrimiz bərabərhüquqlu, etimada əsaslanan, qarşılıqlı faydalı şəraitdə strateji tərəfdaşlıq münasibətlərini inkişaf etdirir və möhkəmləndirir.

Siz Azərbaycan xalqının əsl lideri, müdrik dövlət xadimi, ölkənizin milli maraqlarının beynəlxalq arenada qətiyyətli müdafiəçisisiniz.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, uzun ömür, uğurlar və firavanlıq, həmçinin Vətəniniz Azərbaycana sülh və tərəqqi diləyirəm.

***Aleksey JURAVLYOV,***
***Rusiya Federasiyası Dövlət Dumasının deputatı***

# Prezidentin köməkçisi Hikmət Hacıyev ikinci "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüşüb

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev ikinci "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüşüb.






AZƏRTAC xəbər verir ki, görüşdə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, "Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin sədri Fərəh Əliyeva, gənclər və idman nazirinin müavini, "Yüksəliş" müsabiqəsinin işçi qrupunun rəhbəri Fərhad Hacıyev də iştirak ediblər.

Prezidentin köməkçisi Hikmət Hacıyev ikinci "Yüksəliş" müsabiqəsinin qaliblərini müsabiqədə əldə etdikləri nailiyyət münasibətilə təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Hikmət Hacıyev hazırda müxtəlif sahələrdə mövcud olan məsələlərin araşdırılmasında və onların həlli yollarına dair təkliflər hazırlanmasında vətəndaş cəmiyyəti təsisatlarının fəal iştirakının əhəmiyyətindən söz açıb, bu istiqamətdə qaliblərin suallarını cavablandırıb. Bundan əlavə, düzgün kommunikasiyanın qurulması və kommunikasiyanın idarəetmədəki mühüm rolu barədə fikir mübadiləsi aparılıb.

"Yüksəliş" müsabiqəsinin işçi qrupunun rəhbəri Fərhad Hacıyev Hikmət Hacıyevə iştirak üçün təşəkkürünü bildirərək gələcəkdə belə görüşlərin mütəmadi təşkil ediləcəyini deyib.

Xatırladaq ki, "Yüksəliş" müsabiqəsinin 20 qalibini bir il ərzində idarəçi rəhbərlərdən - iri şirkətlərin top-menecerlərindən və dövlət orqanlarının rəhbərlərindən fərdi karyera məsləhətləri almaq imkanı, kadr ehtiyatı bankına daxil edilmə və 20 min manat dəyərində pul mükafatı gözləyir.

Qeyd edək ki, "Yüksəliş" müsabiqəsi Prezident İlham Əliyevin 2019-cu il iyulun 26-da imzaladığı Sərəncamla təsis olunub. Müsabiqə 5 mərhələdən ibarətdir. Müsabiqə qalibləri idarəçi rəhbərlər tərəfindən birillik fərdi inkişaf planı və hər biri 20 min manat məbləğində özünüinkişaf qrantı əldə edirlər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2022-ci il dekabrın 20-də üçüncü "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı Sərəncam imzalayıb.



# Qardaş gəldi

## Prezident seçkilərindəki qalibiyyətindən sonra Rəcəb Tayyib Ərdoğan ilk xarici səfərini Azərbaycana etdi

*Əvvəli 1-ci səh.*

"Paşam, bizdə qardaş qardaşa borc verməz. Qardaş hər zaman qardaşının əlindən tutar. Biz qardaşıq, hər zaman əlinizdən tutacaq və tutmağa davam edəcəyik", - deyə o zaman Nəriman Nərimanov Mustafa Kamal Paşaya yazdığı məktubunda Azərbaycan və Türkiyənin birgəliyini bu riqqətləndirici sözlərlə izhar etmişdi.

1990-cı illərin ortalarında Azərbaycan-Türkiyə əlaqələrinin yüksəlişi Ulu Öndər Heydər Əliyev və Türkiyənin 9-cu Prezidenti Süleyman Dəmirəlin adı ilə bağlıdır.

Ulu Öndər Heydər Əliyevlə Süleyman Dəmirəl arasındakı dostluq Azərbaycan-Türkiyə münasibətlərinin, ümumilikdə türk dünyasının birliyinin, həmrəyliyinin yeni səhifəsi olub. Bu iki fenomen şəxsiyyətin müstəsna əməyi sayəsində Azərbaycan Türkiyə əlaqələri, sözün əsl mənasında, Ulu Öndərin xarakterizə etdiyi - "Bir millət, iki dövlət" fəlsəfəsindəki əsl mahiyyətinə yetişib.

### "Bir millət, iki dövlət, bir yumruq"

Türk dünyasının iki nəhəng siyasi lideri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasındakı səmimi dostluq və qardaşlıq münasibətləri sayəsində bu gün Türkiyə-Azərbaycan əlaqələri özünün ən yüksək inkişafına, zirvəsinə yetişib.

Dövlət başçısı İlham Əliyevin söylədiyi kimi, "Bir millət, iki dövlət, bir yumruq" olan Azərbaycan və Türkiyə bütün beynəlxalq platformalarda, dövlətlərimizlə bağlı istənilən məsələlərdə hər zaman birlik nümayiş etdirirlər. Eyni zamanda xalqlarımızın varlığına qarşı təhdid olan terrorizmə, işğal siyasətinə qarşı birgə mübarizə aparır, bütün təbii fəlakətlər, onların nəticələrinin aradan qaldırılması istiqamətində də bir-birilərinə yardım edirlər.

44 günlük Vətən müharibəsində bu sarsılmaz birliyin təntənəli nümayişinə bütün dünya tamaşa etdi. Həmin zaman haqq uğrunda çıxdığımız zəfər yürüşünün hər günündə Türkiyənin böyük mənəvi və siyasi dəstəyini hiss etdik, yalnız olmadığımızı bildik. Həmin günlərdə Prezident Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır" xəbərdarlıq mesajı düşmənlərimizə qorxu, bizə qürur verdi.

2020-ci il dekabrın 10-da Azadlıq meydanında keçirilən Zəfər paradında qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın da şəxsən iştirak etməsi iki qardaş ölkənin möhtəşəm qələbə qürurunu birlikdə yaşadığının bariz göstəricisi oldu.

2021-ci il iyunun 15-də Azərbaycan və Türkiyə arasında imzalanan Şuşa Bəyannaməsi isə tarixən var olan həmrəylik bağlarımızı müttəfiqlik zirvəsinə ucaltdı.

Türkiyə Prezidentinin Qarabağ və Şərqi Zəngəzura müxtəlif zamanlarda üç dəfə səfər etməsi, Şuşada, Füzulidə, Zəngilanda və Cəbrayılda olması bu dəstəyin daha bir təzahürüdür.

### Dostluğa, qardaşlığa örnək

Türkiyənin qürurlu və fəxarətli günlərində, eyni zamanda da ən dar zamanlarında onun yanında olan Azərbaycan hər zaman sübut edir ki, qardaşının sevincini sevinci, kədərini kədəri sanır.

Bu il fevralın 6-da baş verən iki ardıcıl dəhşətli zəlzələ zamanı Türkiyəyə ilk beynəlxalq yardımı Azərbaycan göstərdi. Prezident İlham Əliyevin tapşırığına əsasən, zəlzələ bölgəsinə dərhal yardım göstərilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirildi.

Eyni zamanda dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə martın 16-da zəlzələ ilə əlaqədar Ankarada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının fövqəladə Zirvə görüşü baş tutdu.

Azərbaycanın zəlzələnin baş verdiyi Kahramanmaraş vilayətində 1000 ev, məktəb, məscid və digər infrastruktur obyektlərindən ibarət yaşayış kompleksi inşa etməsi isə Azərbaycan-Türkiyə həmrəyliyini bir daha göstərdi.

Xüsusi vurğulayaq ki, bu il mayın 28-də Türkiyədə Prezident seçkilərində qalib gələn Rəcəb Tayyib Ərdoğanı qalibiyyət münasibətilə ilk təbrik edən beynəlxalq lider də məhz Azərbaycan Prezidenti İlham Əliyev oldu.

Qardaşına ünvanladığı təbrik məktubunda İlham Əliyev deyirdi: "Sizin tarixi missiyanızın əsas qayəsini təşkil edən qüdrətli və nüfuzlu Türkiyə Respublikasının uğurları qardaş ölkə olaraq bizi də olduqca qürurlandırır".

İyunun 3-də Ankarada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın səlahiyyətlərinin icrasına başlama mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva da iştirak etdilər. Andiçmə mərasimində Rəcəb Tayyib Ərdoğanın Prezident İlham Əliyevə xüsusi diqqət və ehtiram göstərməsi isə inaqurasiyanın ən diqqətçəkən və yaddaqalan məqamlarından oldu.

### Sarsılmaz birlik

Azərbaycan-Türkiyə sarsılmaz birliyinə möhtəşəm bir nümunə isə Rəcəb Tayyib Ərdoğanın növbəti prezident seçkilərindən sonra ilk xarici səfərini Azərbaycana etməsidir.

Azərbaycanın Milli Qurtuluş Günü, eləcə də ölkələrimiz arasında imzalanan möhtəşəm Şuşa Bəyannaməsinin ikinci ildönümü ərəfəsində - yəni iyunun 12-də qardaş ölkənin Prezidentinin Azərbaycana gəlməsi özündə xeyli mesajlar, ismarıclar daşıyır. Rəcəb Tayyib Ərdoğanın dostlarımızın qüruruna, düşmənlərimizin xar olmasına səbəb olan bu qardaş seçimi, həm ümumilikdə türk dünyasının həmrəyliyinin daha da inkişafına, həm də Azərbaycan-Türkiyə birliyinin yeni və daha parlaq bir dövrə qədəm qoymasına mühüm işarədir.

Bu həm də onun bəyanıdır ki, Azərbaycan-Türkiyə birliyi sarsılmazdır və dünya durduqca belə olacaq.

Necə ki bu barədə Prezident İlham Əliyev deyib: "Biz hər zaman bir yerdəyik - xoş günlərdə, yaxşı günlərdə, çətin günlərdə də və İkinci Qarabağ savaşı bunu bir daha bütün dünyaya göstərdi".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Misirdə "Heydər Əliyev" kuboku uğrunda kikboksinq yarışı başa çatıb

Misir Ərəb Respublikasının paytaxtı Qahirə şəhərində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Azərbaycanın Misirdəki səfirliyinin və Azərbaycan Kikboksinq Federasiyasının birgə təşkilatçılığı ilə kikboksinq üzrə yarış keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, yarışın açılışında Milli Məclisin Sədr müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev çıxış edib. O, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin və suverenliyinin xilası və möhkəmləndirilməsində əvəzsiz rolundan və müstəsna xidmətlərindən, bütün sahələrdə olduğu kimi, bədən tərbiyəsi və idman sahəsinin inkişafı naminə həyata keçirdiyi böyük işlərdən bəhs edib. Vitse-spiker Ulu Öndərin əsasını qoyduğu bədən tərbiyəsi və idman siyasətinin bu gün öz uğurlu nəticələrini verdiyini, Azərbaycanın artıq dünyada idman ölkəsi kimi tanındığını bildirib.

Azərbaycan və Misir kikboksçuları arasında "Heydər Əliyev" kuboku uğrunda keçirilən yarışda idmançılarımız 5:4 hesabı ilə qalib gələrək kubokun sahibi olublar.

***"Azərbaycan"***

# Vitse-spiker Adil Əliyev Misirdə görüşlər keçirib

Misir Ərəb Respublikasında səfərdə olan Milli Məclis Sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev iyunun 10-da Misirin Qalyubiyyə vilayətinin Qanatır əl-Xeyriyyə şəhərinə səfər edərək, burada yerləşən Misir-Azərbaycan Dostluq parkında Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət etmişdir.







Məhz Ulu Öndər Heydər Əliyevin 1994-cü ildə Misir Ərəb Respublikasına səfər etməsi ilə münasibətlərimiz inkişaf yoluna qədəm qoymasını bildirən sədr müavini daha sonra Misirdə bir sıra görüşlər keçirmişdir.

Adil Əliyev həmin gün Qahirədə Ərəb Parlamentinin Sədri Adel bin Abdul Rahman Əl-Asumi ilə görüşüb. Görüşdə Adil Əliyev bu ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsindən söz açıb, bununla əlaqədar ölkə daxilində və xaricdə müxtəlif mədəni-kütləvi tədbirlər keçirildiyini bildirib. Misirin paytaxtında Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr edilmiş beynəlxalq kikboksinq yarışının keçirilməsini yüksək dəyərləndirən vitse-spiker ölkəmizin bu gün Heydər Əliyev siyasətini və ideyalarını layiqincə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf etməsindən danışıb.

Adil Əliyev ərəb ölkələrinin Ermənistanın torpaqlarımızı işğal etdiyi dövrdə hər zaman Azərbaycanın ədalətli mövqeyini dəstəkləməsini yüksək qiymətləndirib, Milli Məclis ilə Ərəb Dövlətləri Liqasının qanunvericilik orqanı olan Ərəb Parlamenti arasındakı əlaqələrdən bəhs edib, Azərbaycanın istər ikitərəfli, istərsə də beynəlxalq parlament təşkilatlarında ərəb ölkələri ilə əlaqələrinin inkişafına xüsusi önəm verdiyini vurğulayıb.

Görüşdə Azərbaycanın 44 günlük müharibədəki qələbəsindən söz açan Adil Əliyev Ermənistanın sülh müqaviləsini imzalamaqdan yayındığını, sülh gündəliyinin irəli aparılmasına imkan vermədiyini bildirmişdir. Bizi narahat edən məsələlərdən birinin də Ermənistan tərəfindən ərazilərimizin minalarla çirkləndirilməsi ilə bağlı olmasını bildirən vitse-spiker Ermənistanın hələ də mina xəritələrini tam təqdim etmədiyini, bu günə qədər 300-dən artıq Azərbaycan vətəndaşının bu minaların qurbanına çevrildiyini qeyd etmişdir. Eləcə də, hərbi əməliyyatların 2020-ci ildə dayandırılmasına baxmayaraq, Ermənistanda 2021-ci ildə istehsal edilmiş minaların Azərbaycan ərazilərində basdırıldığını deyən Adil Əliyev diqqətə çatdırmışdır ki, qeyd olunan məsələlərdə beynəlxalq ictimaiyyətin Ermənistana təzyiqi olduqca vacibdir. Tezliklə sülh müqaviləsi imzalanmasına ümid etdiyini bildirən sədr müavini regiona 30 ildən sonra sülh gələcəyini bildirmişdir.

Ərəb Parlamentinin Sədri Adel bin Abdul Rahman Əl-Asumi ilə Azərbaycanla əməkdaşlığın inkişafında maraqlı olduqlarını bildirib. O, cari ilin may ayında Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş Milli Məclisin xüsusi iclasında iştirakını, iclasda çıxışını və səfər çərçivəsində keçirdiyi görüşləri məmnunluqla xatırlayıb. Söhbətdə parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsi və tərəfləri maraqlandıran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində Adil Əliyev iyunun 11-də Misir Nümayəndələr Palatasının sədri Hanaf Ali Əl Gebali ilə görüşüb. Görüşdə Milli Məclisin Sədr müavini Adil Əliyev Azərbaycan ilə Misir arasında münasibətlərin tarixindən söz açıb, 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin Misirə səfəri ilə ölkələrimiz arasındakı ənənəvi dostluq əlaqələrinin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu söyləyib.

Diqqətə çatdırılıb ki, hazırda dövlət başçılarımızın ali siyasi iradəsi ilə bu münasibətlər yüksələn xətlə inkişaf etməkdədir və ikitərəfli əlaqələrin daha da inkişafı hər iki ölkənin marağına uyğundur. Eyni zamanda beynəlxalq təşkilatlarda qarşılıqlı fəaliyyətin, xüsusən Qoşulmama Hərəkatı və onun Parlament Şəbəkəsi çərçivəsində əməkdaşlığın vacibliyi vurğulanıb.

Adil Əliyev Nümayəndələr Palatasının sədrinə Ermənistanın Azərbaycan torpaqlarını işğalı dövründə məscidlərə, digər abidələrə qarşı vandallıq aktları həyata keçirməsi, regiondakı postmüharibə dövrünün reallıqları, Azərbaycanın sülh təşəbbüsləri barədə məlumat verib. Azərbaycan üçün vacib məsələlərdən birinin də mina xəritələrinin olduğunu bildirən vitse-spiker Ermənistan hələ də mina xəritələrinin tam siyahısını təqdim etmədiyini, nəticədə 300-dən artıq Azərbaycan vətəndaşları bu minaların qurbanı olduğunu deyib.

Regionda narahatlıq doğuran digər məsələnin isə Ermənistanın Azərbaycanla həmsərhəd ərazisində metallurgiya zavodu tikməsi olduğunu bildirən vitse-spiker deyib ki, təcavüzkar Ermənistan 30 ilə yaxın müddətdə işğal altında saxladığı Azərbaycan ərazilərində ağlasığmaz ekoloji terror törədib, Qarabağın flora və fauna aləminə, meşələrinə misli-bərabəri görünməmiş ziyan vurub, kənd təsərrüfatı sistemini yerləyeksan edib.

Misir Parlamentinin Nümayəndələr Palatasının Sədri Hanaf Ali Əl Gebali bu ilin mayında Milli Məclisin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş xüsusi iclasında iştirakını və çıxışını xatırlayaraq, səfər çərçivəsində keçirdiyi görüşlərdən böyük məmnunluqla bəhs edib.

Söhbət zamanı parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Vitse-spiker Adil növbəti görüşünü Misir Ərəb Respublikası Senatının sədri Abdel Vahab Abdel Razeq ilə keçirib. Görüşdə Adil Əliyev bu il Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ilə əlaqədar ölkəd axilində və xaricdə müxtəlif tədbirlərin keçirilməsindən söz açıb, Misirin paytaxtı Qahirə şəhərində Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr edilmiş beynəlxalq kikboksinq yarışının təşkil olunmasını yüksək dəyərləndirib.

Adil Əliyev müasir və müstəqil Azərbaycan dövlətinin banisi Ulu Öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin və suverenliyinin xilası və möhkəmləndirilməsində əvəzsiz rolundan və müstəsna xidmətlərindən bəhs edərək, ölkəmizin bu gün Heydər Əliyev siyasətini və ideyalarını layiqincə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə lider dövlətlərdən birinə çevrildiyini bildirib.

Vitse-spiker Adil Əliyev diqqətə çatdırıb ki, Ermənistan Azərbaycan torpaqlarını 30 ilə yaxın işğal altında saxlayıb, bu işğala son qoyulmasını tələb edən BMT qətnamələrinə məhəl qoymayaraq təcavüzkar siyasətini davam etdirib, ölkəmizə qarşı hərbi təxribatlar törədib. Diqqətə çatdırılıb ki, sonuncu belə təxribatdan başlanan Vətən müharibəsində Azərbaycan cəmi 44 günə ərazi bütövlüyünü təmin edib.

Vitse-spiker Misir Senatının sədrinə regiondakı postmüharibə dövrünün reallıqları, işğaldan azad olunmuş Azərbaycan ərazilərində Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan genişmiqyaslı abadlıq və quruculuq işləri barədə məlumat verib. Bildirilib ki, 30 ildən artıq məcburi köçkün həyatı yaşamış Azərbaycan vətəndaşlarının öz yurd-yuvalarına qayıtmaları prosesi artıq başlayıb.

Abdel Vahab Abdel Razeq Azərbaycanın uğurlarının və inkişafının qardaş Misir xalqını sevindirdiyini deyib. O, bundan sonra da ölkələrimiz arasındakı dostluq münasibətlərinin daha da inkişaf edəcəyinə, parlamentlərarası münasibətlərin isə bu dostluğa töhfə verəcəyinə əminliyini bildirib. Senatın sədri Azərbaycanın Qoşulmama Hərəkatına uğurla rəhbərlik etdiyini və Hərəkatın fəaliyyətinə çoxsaylı töhfələr verdiyini qeyd etmişdir.

Adil Əliyev növbəti görüşünü Misir-Azərbaycan Dostluq parkında Qalyubiyyə vilayətinin qubernatoru Əbdülhəmid əl-Həccənlə keçirmişdir. Vitse-spiker ölkələrimiz arasında olan mehriban münasibətlərdən bəhs etmiş, münasibətlərimizin inkişafının hər iki ölkənin maraqlarına uyğun olduğunu və əlaqələrimizin əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu bildirmişdir.

Qubernator Əbdülhəmid əl-Həccən Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinin qeyd olunmasının həm Azərbaycan xalqı, həm də Azərbaycanın dostları üçün əziz olduğunu diqqətə çatdırmışdır.

Daha sonra Misir Ərəb Respublikasında yerləşən səfirliyimizi ziyarət edən sədr müavini, diplomatik korpusun əməkdaşları və diaspora fəalları ilə birlikdə Ulu Öndər Heydər Əliyevin səfirlikdəki büstünü ziyarət etmişlər. Diaspora fəalları ilə keçirilən söhbət zamanı vitse-spiker ölkəmizi yalnız Misir Ərəb Respublikasında deyil, bütün ərəb ölkələrində ən yaxşı şəkildə təmsil etmək üçün bütün imkanların səfərbər edilməli olduğunu qeyd etmişdir. Həqiqətlərimizin dünyaya çatdırılmasında diasporamızın rolunu qeyd edən hər birimizin Azərbaycanın haqlı mövqeyi üçün çalışmalı olduğumuzu demişdir.

Daha sonra görüş iştirakçıları Qahirə stadionunda Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar Azərbaycan və Misir komandaları arasında keçirilən idman yarışını izləmişlər.

Görüşlərdə ölkəmizin Misir Ərəb Respublikasındakı səfiri Elxan Poluxov, Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev, Diasporla İş üzrə Dövlət Komitəsinin Aparat rəhbəri Daşqın Rəcəbli, Azərbaycan Kikboksinq Federasiyasının prezidenti Orxan Əliyev və başqa rəsmi şəxslər iştirak etmişlər.

***"Azərbaycan"***

# Xəzər rayonundan olan şəhid övladları Heydər Əliyev Mərkəzini ziyarət ediblər

Heydər Əliyev Fondu ilə Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin əməkdaşlığı çərçivəsində Xəzər rayonundan olan Vətən müharibəsi şəhidlərinin övladlarının Heydər Əliyev Mərkəzinə ziyarəti təşkil edilib.




AZƏRTAC xəbər verir ki, tədbir çərçivəsində Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov və Çin Xalq Respublikasının Azərbaycandakı səfiri Qo Min qəhrəman şəhidlərimizin övladları ilə görüşüblər. Eləcə də Heydər Əliyev Fondu ilə Çinin Azərbaycandakı səfirliyinin hədiyyəsi olan noutbuklar uşaqlara təqdim edilib.



Sonra şəhid övladları Heydər Əliyev Mərkəzinin binası, buradakı Heydər Əliyev Muzeyi, Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif aspektlərini əks etdirən eksponatlar, "Azərbaycan inciləri", "Mini Azərbaycan" sərgiləri ilə tanış olublar.



Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin rəhbəri Soltan Məmmədov Azərbaycanın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin övladları ilə Ümummilli Liderin adını daşıyan mərkəzdə görüşməkdən məmnunluğunu bildirib, Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın şəhid ailələrinə və qazilərə hər zaman xüsusi həssaslıqla yanaşdığını vurğulayıb, Heydər Əliyev Fondunun Çin səfirliyi ilə sıx əməkdaşlıq etdiyini, çoxsaylı birgə layihələr həyata keçirdiyini diqqətə çatdırıb.

Çin Xalq Respublikasının Azərbaycandakı səfiri Qo Min müharibələrdən zərər çəkmiş insanlara həssas münasibətin insani dəyərlərin nümunəsi olduğunu qeyd edib. Səfirliyin Heydər Əliyev Fondu ilə əməkdaşlığı çərçivəsində bir sıra sosial layihələr həyata keçirdiyini bildirən səfir bu cür təşəbbüslərə dəstək verməkdən qürur duyduğunu vurğulayıb.

Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Elşən Salahov təşəbbüsə görə Heydər Əliyev Fondunun rəhbərliyinə və Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyinə minnətdarlığını ifadə edib, Azərbaycanda şəhid ailələrinə dövlət tərəfindən hər zaman xüsusi qayğı və diqqət göstərildiyini vurğulayıb. Bildirib ki, dövlətin həyata keçirdiyi siyasətin əsas məqsədi şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsinə nail olmaqdır.

Milli Məclisin deputatı Rauf Əliyev Heydər Əliyev Fondunun və Çinin Azərbaycandakı səfirliyinin birgə layihəsinin böyük mənəvi-psixoloji əhəmiyyətə malik olduğunu qeyd edib, bu cür təşəbbüslərin Azərbaycanda şəhid ailələrinə dövlət tərəfindən göstərilən diqqətin və cəmiyyətin həssas münasibətinin göstəricisi kimi qəbul edildiyini bildirib. Tədbirdə əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli, Yeni Azərbaycan Partiyası Xəzər Rayon Təşkilatının sədri Namiq Əhmədov, "Huawei Azərbaycan" şirkətinin rəhbəri Xu Hui və Çinin Azərbaycandakı səfirliyinin əməkdaşları da iştirak ediblər.

# SOCAR ilə "Oceaneering International" arasında əməkdaşlıq imkanları nəzərdən keçirilib

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf "Oceaneering International" şirkətinin prezidenti və baş icraçı direktoru Roderick Larson ilə görüşüb.

Şirkətdən AZƏRTAC-a bildirilib ki, görüşdə SOCAR ilə "Oceaneering International" arasında səmərəli əməkdaşlıqdan məmnunluq ifadə edilib, qarşılıqlı münasibətlərin uğurla inkişaf etdiyi qeyd olunub.

Söhbət zamanı SOCAR-ın uzunmüddətli strategiyasından danışılıb, bu xüsusda dayanıqlı inkişafın gücləndirilməsi məqsədilə innovativ texnologiyaların tətbiqinin prioritet istiqamətlər kimi müəyyənləşdirildiyi bildirilib.

Görüşdə həmçinin SOCAR-ın fəaliyyət göstərdiyi sahələrdə müasir texnologiyaların istifadəsi istiqamətində potensial əməkdaşlıq imkanları nəzərdən keçirilib, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Baş ofisi ABŞ-nin Hyuston şəhərində yerləşən "Oceaneering International" şirkəti beynəlxalq şirkətlərə mühəndislik xidmətləri göstərən, avadanlıqlar təqdim edən, sualtı mühəndislik və tətbiqi texnologiya şirkətidir.

# Azərbaycan XİN rəsmi Tehranın səfirliyin bərpa oluna biləcəyi ilə bağlı açıqlamasına münasibət bildirdi

Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə İranın Xarici İşlər Nazirliyinin mətbuat katibi Nasir Kənaninin səfirliyin bərpa oluna biləcəyi ilə bağlı açıqlamasına münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, Ayxan Hacızadə son zamanlar Azərbaycanla İran arasında bir sıra təmasların həyata keçirildiyini bildirib. O əlavə edib ki, xarici işlər nazirləri arasında baş tutmuş danışıqlar zamanı ölkələrimiz arasında yaranmış məlum vəziyyətə dair ətraflı fikir mübadiləsi aparılıb.

"Cari ilin yanvar ayında terror hücumu nəticəsində fəaliyyətini dayandırmış səfirliyimizin işinin bərpa olunması məsələsinə gəldikdə qeyd edək ki, Azərbaycan terror hücumu ilə bağlı istintaqın başa çatdırılacağını gözləyir. Terror aktını törədənlər və sifarişçilər məsuliyyətə cəlb olunmalı, ən sərt şəkildə cəzalandırılmalıdır. Azərbaycan tərəfi əmin olmalıdır ki, səfirliyin təhlükəsiz fəaliyyəti üçün şərait mövcuddur və bununla bağlı tam zəmanət verilməlidir", - deyə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi vurğulayıb.

Qeyd edək ki, iyunun 12-də İran İslam Respublikasının Xarici İşlər Nazirliyinin mətbuat katibi Nasir Kənani Azərbaycanla münasibətlərə toxunarkən bildirib: "Diplomatik tədbirlər nəticəsində gərginliyin nəzarət altına alınması ilə bağlı müsbət nəticə əldə edildiyinə inanırıq. Hazırda gərginlik mərhələsindən yeni mərhələyə keçid və Azərbaycanın Tehrandakı səfirliyinin rəsmi fəaliyyətini bərpa etmək üçün danışıqlar mərhələsindəyik. Yeni praktik addımlar atmaq üçün dialoqa və fikir mübadiləsinə ehtiyacımız var".

# "Starwood Capital Group" şirkəti Azərbaycanın turizm sektoruna maraq göstərir

İqtisadiyyat naziri Mikayıl Cabbarov alternativ sərmayələrin idarə edilməsi üzrə ixtisaslaşmış "Starwood Capital Group" şirkətinin təsisçisi və icraçı direktoru Berri Sternlix ilə görüşüb.




Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycanda iqtisadi sferada həyata keçirilən tədbirlər, əldə edilən nəticələr, ölkəmizin əlverişli işgüzar mühiti, xarici sərmayədarlar üçün yaradılan imkanlar, energetika, xüsusilə alternativ və bərpaolunan enerji, logistika, turizm və digər istiqamətlər üzrə investisiya qoyuluşu üçün yaxşı fürsətlərin mövcudluğu vurğulanıb, bu sahədə "Starwood Capital Group" şirkəti ilə tərəfdaşlıq potensialı qeyd olunub. Tərəflər qlobal iqtisadi tendensiyalar fonunda yeni çağırışlar, investisiyaların təşviqi üçün ölkəmizdə görülən işlər və şirkətlə bir sıra sahələrə, o cümlədən turizm sektoruna sərmayə qoyulması sahəsində əməkdaşlıq məsələləri barədə müzakirə aparıblar.

Qeyd edək ki, alternativ investisiyaların idarə edilməsi üzrə aparıcı investisiya şirkətlərindən olan "Starwood Capital Group" 1991-ci ildə təsis edilib və mərkəzi ofisi ABŞ-də yerləşir. Şirkət 35-dən artıq ölkədə daşınmaz əmlak, kredit və enerji infrastrukturu sahəsi üzrə investisiya yatırıb. Hazırda qurumun portfel şirkətlərində 5 mindən artıq əməkdaş işləyir.

# Maliyyə Nazirliyində Səudiyyə Ərəbistanının nümayəndə heyəti ilə görüş

İyunun 12-də maliyyə naziri Samir Şərifov Şuşa şəhərində keçirilən Azərbaycan-Səudiyyə Ərəbistanı İşgüzar Şurasının 2-ci iclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Səudiyyə Ərəbistanı-Azərbaycan Birgə İşgüzar Şurasının həmsədri Əhməd Əli Əl Dakhilin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Maliyyə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir Samir Şərifov Azərbaycan Respublikası hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı hökuməti arasında Müştərək Komissiyanın qərarı ilə yaradılmış Birgə İşgüzar Şuranın işini təqdir edib və şuranın 2-ci iclasının ölkəmizin işğaldan azad olunmuş ərazisində, Qarabağın tacı Şuşa şəhərində keçirilməsinin xüsusi əhəmiyyətini vurğulayıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq işləri barədə məlumat verən Samir Şərifov Səudiyyə Ərəbistanı Krallığının biznes dairələrini bu işlərdə, həmçinin ölkəmizə investisiya yatırılmasında fəal iştirak etməyə dəvət edib.

Şuşaya səfəri barədə təəssüratlarını bölüşən Əli Əl Dakhil qısa müddət ərzində görülən işlərin şahidi olduğunu, işğaldan azad edilmiş ərazilərin böyük enerji potensialına və geniş münbit torpaq ərazilərinə malik olduğunu vurğulayıb. O, ölkələrimiz arasında ticarət dövriyyəsinin, həmçinin qarşılıqlı investisiyaların həcminin artırılması üçün geniş imkanlar olduğunu vurğulayıb.

Görüşdə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri, Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurasının həmsədri Orxan Məmmədov da iştirak edib.

# Azərbaycanın meyvə-tərəvəz məhsullarının Səudiyyə Ərəbistanı bazarına ixrac imkanları dəyərləndirilib

Kənd Təsərrüfatı Nazirliyində Azərbaycanda səfərdə olan Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurasının həmsədri, "Al Rajhi İnternational for İnvestment" şirkətinin baş icraçı direktoru Əhməd Əli Əl Dakhilin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.



Görüşdə kənd təsərrüfatı naziri Məcnun Məmmədov, nazir müavini Elçin Zeynalov, İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri, Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurasının həmsədri Orxan Məmmədov iştirak ediblər.

Nazirliyin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, qonaqları salamlayan nazir Məcnun Məmmədov Azərbaycanda kənd təsərrüfatına dövlət dəstəyi, aqrar sahədə aparılan islahatlar barədə qonaqlara ətraflı məlumat verib. Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən son illərdə qeyri-neft sektoruna göstərilən yüksək diqqət nəticəsində aqrar sektor yeni inkişaf mərhələsinə qədəm qoyub. Həyata keçirilən aqrar islahatlar kənd təsərrüfatının daha da inkişafını nəzərdə tutur və bu məqsədlə dövlət tərəfindən çox böyük dəstək tədbirləri həyata keçirilir.

Görüşdə Azərbaycanın aqrar sektorunun perspektivləri, hökumətin aqrar sahədə prioritetləri, eləcə də bu sahədə innovativ yeniliklər ətrafında fikir mübadiləsi aparılıb. İki ölkə arasında aqrar sahədə əməkdaşlıq imkanlarını dəyərləndirən tərəflər kənd təsərrüfatı məhsullarının idxal-ixrac dövriyyəsinin artırılması, ölkəmizdə aqrar sahəyə investisiyaların cəlbi məsələlərinə toxunublar.

Azərbaycanın meyvə-tərəvəz məhsullarının Səudiyyə Ərəbistanı bazarına ixracı imkanlarını dəyərləndirən iştirakçılar bildiriblər ki, iki ölkə arasında kənd təsərrüfatı sahəsində əlaqələrin genişləndirilməsi üçün böyük potensial var.

Tərəflər bu kimi görüşlərin əməkdaşlığın genişləndirilməsində mühüm rol oynadığını bildirərək qarşılıqlı müzakirələrin davam etdirilməsinin vacib olduğunu qeyd ediblər.

# Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurasının həmsədrləri görüşüblər

Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurasının həmsədri, "Al Rajhi İnternational for İnvestment" şirkətinin baş icraçı direktoru Əhməd Əli Əl Dakhilin rəhbərlik etdiyi rəsmi şəxslərdən və iş adamlarından ibarət nümayəndə heyəti ölkəmizdə səfərdədir.



Səfər çərçivəsində Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurasının həmsədri, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədovla Əhməd Əli Əl Dakhil arasında görüş keçirilib.

KOBİA-dan AZƏRTAC-a bildirilib ki, görüşdə ölkələrimiz arasında ikitərəfli ticarət əlaqələrinin genişləndirilməsi və investisiya layihələrinin həyata keçirilməsi istiqamətində əməkdaşlığın inkişafına maraq ifadə olunub. İşgüzar Şura çərçivəsində hər iki ölkənin iş adamları arasında əlaqələrin genişləndirilməsi üçün növbəti addımlara dair fikir mübadiləsi aparılıb.

# Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası



İyunun 12-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Tahir Mirkişili iclasın gündəliyinə 36 məsələnin daxil edildiyini bildirib.

Əvvəlcə iclasda ikinci oxunuşda təqdim olunan 27 məsələ - Mülki Məcəllədə,Vergi Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 140-VQD nömrəli, "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 141-VQD nömrəli, "Kredit ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 142-VQD nömrəli, "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 143-VQD nömrəli, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 144-VQD nömrəli, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 145-VQD nömrəli və "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 146-VQD nömrəli qanunlarında, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" qanunda, "Banklar haqqında" qanunda, "Bank olmayan kredit təşkilatları haqqında" qanunda, "Kredit ittifaqları haqqında" qanunda, "Poçt haqqında" qanunda, "Əmanətlərin sığortalanması haqqında" qanunda, "Kredit büroları haqqında" qanunda, "Valyuta tənzimi haqqında" qanunda, "İnvestisiya fondları haqqında" qanunda, "Qiymətli kağızlar bazarı haqqında" qanunda, "Sığorta fəaliyyəti haqqında" qanunda, "İcbari sığortalar haqqında" qanunda, "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" qanunda, "Tibbi sığorta haqqında" qanunda, "Publik hüquqi şəxslər haqqında" qanunda, "Sahibkarlıq fəaliyyəti haqqında" qanunda, "Hesablama Palatası haqqında" qanunda, "Mühasibat uçotu haqqında" qanunda, "Dövlət satınalmaları haqqında" qanunda, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunda, "Auditor xidməti haqqında" qanunda, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanunda və "İcra haqqında" qanunda dəyişikliklərin edilməsi ilə bağlı qanun layihələri müzakirəyə çıxarılıb.

Komitə sədri Tahir Mirkişili bildirib ki, bu qanun layihələrində bank sahəsində tənzimləmə sisteminin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması, Mərkəzi Bankın funksiyalarının genişləndirilməsi ilə bağlı dəyişikliklər nəzərdə tutulub.

İclasda iştirak edən Mərkəzi Bankın sədri Taleh Kazımov qanun layihələrinin birinci oxunuşda müzakirəsi zamanı verilən sualları ətraflı cavablandırıb. O, inflyasiya ilə bağlı proqnozlar, uçot dərəcəsinin effektivliyinin artırılması, kredit faizlərinə dair vəziyyət və bir sıra digər məqamlar barədə açıqlamalarını diqqətə çatdırıb.

Sonra bu sənədlər ətrafında müzakirələr ikinci oxunuşda davam etdirilib. Komitə sədrinin müavini Əli Məsimli, deputatlar Məzahir Əfəndiyev, Vüqar Bayramov, Vahid Əhmədov, Rüfət Quliyev, Aydın Hüseynov, Razi Nurullayev bank sektorunda vəziyyətlə bağlı öz fikirlərini, bəzi qeyd və təkliflərini bildiriblər. Mərkəzi Bankın sədri Taleh Kazımov qaldırılan məsələlərə aydınlıq gətirib.

Müzakirələrin sonunda təqdim olunan 27 qanun layihəsi ikinci oxunuşda Milli Məclisin iclasına tövsiyə olunub.

Daha sonra tədbirdə gündəliyin digər 6 məsələsinə - birinci oxunuşda təqdim edilən "Avtomobil nəqliyyatı haqqında" qanunda, İnzibati Xətalar Məcəlləsində, Vergi Məcəlləsində, "Yol hərəkəti haqqında" qanunda, "Lisenziyalar və icazələr haqqında" qanunda və "Dövlət rüsumu haqqında" qanunda dəyişikliklərin edilməsi barədə qanun layihələrinə baxılıb.

Komitə sədri Tahir Mirkişili son zamanlar ölkədə avtomobil nəqliyyatının fəaliyyətinin tənzimlənməsi, sərnişin və yük daşımaları sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlərin həyata keçirildiyini bildirib. O, bununla yanaşı, bu sahədə xidmətlərin keyfiyyətinin və səmərəliliyinin artırılması ilə bağlı tədbirlərin görülməsi, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində addımların atılmasının vacibliyindən bəhs edib.

Sonra Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) İdarə Heyətinin sədri Anar Rzayev avtomobil nəqliyyatı sahəsinin tənzimlənməsi üçün təklif olunan yeni mexanizmlər barədə məlumat verib. O, bu sektorun beş fəaliyyət istiqaməti, o cümlədən taksi sifarişi operatorları, taksi daşımaları, müntəzəm marşrut üzrə sərnişin daşınması, beynəlxalq daşımalar, ölkədaxili sifarişli daşımalar üzrə bölündüyü və hər fəaliyyət növünə görə icazələrin nəzərdə tutulduğunu bildirib. Qeyd edilib ki, yeni mexanizmlərdə daşıyıcıya buraxılış vəsiqəsinin, onun istifadəsində olan nəqliyyat vasitəsinə buraxılış kartının verilməsi nəzərdə tutulub. Habelə icazələrin verilməsi üçün tələb olunan sənədlər və məlumatlar, icazələrin qüvvədə olma müddəti, icazənin verilməsi üçün dövlət rüsumu müəyyən edilir, icazə olmadan fəaliyyət göstərmək qadağan olunur. Bununla yanaşı, taksilərin və avtobusların daxili və xarici tərtibatının uyğunluğuna nəzarət mexanizmi yaradılır, "Fərqlənmə nişanı" isə yalnız fiskal alət rolunu yerinə yetirəcək.

Təqdimatda taksi daşımalarında taksometrlə bərabər, onu əvəz edən proqram təminatından istifadə edilməsi, yaşayış məntəqələrində avtovağzalların sayı ilə bağlı meyarlar, "icazə" blanklarının bölgüsünün aparılması üçün meyarlar, sifarişli qeyri-müntəzəm sərnişin daşımalarında formulyarın, yük daşımalarında əmtəə-nəqliyyat qaiməsinin elektron qaydada tərtib olunması tələbi və digər dəqiqləşdirici normalardan da bəhs edilib.

Sonra Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişikliklərlə bağlı məlumat verib. Sənədə əsasən, məcəllənin 322-ci maddəsinə avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması qaydalarının pozulması ilə bağlı yeni istiqamətlər üzrə cərimələr müəyyən edilir. 324-cü maddə yeni redaksiyada verilir və icazə olmadan avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınması ilə bağlı cərimələr müəyyən edilir. Eyni zamanda məcəlləyə beynəlxalq sərnişin və yük daşımaları zamanı icazə blanklarından istifadə qaydalarının pozulması, xarici dövlət qeydiyyat nişanlı nəqliyyat vasitələri ilə ölkədaxili sərnişin və yük daşımalarının yerinə yetirilməsi, taksi sifarişi operatorları tərəfindən avtomobil nəqliyyatı haqqında qanunvericiliyin pozulması ilə bağlı yeni maddələrin əlavə edilməsi nəzərdə tutulub.

Müzakirələrdə komitə sədrinin müavini Əli Məsimli, deputatlar Vahid Əhmədov, Məzahir Əfəndiyev, Elnur Allahverdiyev, Vüqar Bayramov, İqbal Məmmədov, Rüfət Quliyev, Aydın Hüseynov, Ziyad Səmədzadə, Razi Nurullayev, Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin şöbə müdiri Elvin Hüseynzadə çıxış ediblər. Çıxışlarda ölkənin nəqliyyat sektorunda hazırkı vəziyyət, bu sahənin işinin səmərəliliyinin artırılması ilə bağlı fikirlər bildirilib, qanunlarda nəzərdə tutulan dəyişikliklər müsbət qiymətləndirilib, bəzi qeyd və təkliflər səsləndirilib.

Komitə iclasında iştirak edən rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, nazir müavini Rəhman Hümmətov verilən sualları ətraflı cavablandıraraq qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Sonda təqdim olunan bu 6 qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin iclasına tövsiyə olunub.

Sonra deputatlar "Saxta əmtəə nişanlarının və coğrafi göstəricilərin istifadəsinin qabaqlanması və qarşısının alinması üzrə MDB iştirakçısı dövlətlərinin əməkdaşlığı haqqında Saziş"in təsdiqi və "Müstəqil Dövlətlər Birliyinin Hökumət Başçıları Şurasının iclasında Azərbaycan Respublikasının Hökuməti adından imzalanmış "Yalançı əmtəə nişanlarının və coğrafi göstəricilərin istifadəsinin qarşısının alınması və kökünün kəsilməsi tədbirləri haqqında" Sazişin təsdiq edilməsi barədə" qanunun ləğv edilməsi, Vergi Məcəlləsində dəyişiklik edilməsi (üçüncü oxunuş) və "Gömrük tarifi haqqında" qanunda dəyişiklik edilməsi (üçüncü oxunuş) barədə qanun layihələrini nəzərdən keçirərək, bu sənədləri də Milli Məclisə tövsiyə ediblər.

*"Azərbaycan"*

# Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələri ilə görüş



İyunun 12-də Milli Məclisin Səhiyyə komitəsinin üzvləri Ümumdünya Səhiyyə Təşkilatının Avropa Regional Ofisinin Milli Vərəm Proqramının qiymətləndirilməsi üzrə nümayəndə heyəti ilə görüşüblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov qonaqları salamlayaraq Azərbaycanda vərəm ilə mübarizədə əldə olunan nailiyyətlərdən söz açıb. Komitə sədri Azərbaycan səhiyyəsində aparılan islahatlardan danışaraq səhiyyənin aktual məsələlərinə Azərbaycan parlamentinin də həssaslıqla yanaşdığını diqqətə çatdırıb. O, bu sahədə parlamentdə daim dinləmələr keçirildiyini, müzakirələrin aparıldığını, qanunvericiliyin təkmilləşdirildiyini qeyd edib.

Səhiyyə komitəsinin üzvləri Soltan Məmmədov, Sədaqət Vəliyeva və Məlahət İbrahimqızı Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ilə uğurlu əməkdaşlığından söz açıblar, bu səmərəli əməkdaşlığa görə qonaqlara təşəkkür ediblər. Deputatlar bildiriblər ki, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) hər zaman vərəm ilə mübarizədə öz dəstəyini nümayiş etdirib.

Sonra görüşdə Ümumdünya Səhiyyə Təşkilatının Avropa Regional Ofisinin Milli Vərəm Proqramının qiymətləndirilməsi üzrə nümayəndə heyətinin üzvləri Sayohat Hasanova, Cəvahir Süleymanova, Andrei Mosneaga, Cristina Celan, Askar Yedilbayev, Oqtay Gözəlov, Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru İradə Axundova və ATU-nun Ağciyər xəstəlikləri kafedrasının müdiri Rafiq Bayramov Ümumdünya Səhiyyə Təşkilatının tövsiyə və tələblərinə ölkəmizdə ciddi əməl olunduğunu, səhiyyə sistemində aparılan islahatları, icbari tibbi sığortanın fəaliyyətini yüksək qiymətləndiriblər. Onlar həmçinin vərəmin diaqnostikası, müalicəsi və profilaktik tədbirləri ilə bağlı fikirlərini bölüşüblər.

Görüşdə səhiyyənin bəzi aktual məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisdə ictimai dinləmə keçirilib



İyunun 12-də Milli Məclisin Mədəniyyət komitəsinin təşkilatçılığı ilə "Qərbi Azərbaycan: soyqırıma məruz qalan tarixi-mədəni irsimiz. Qərbi Azərbaycanın tarixi və mədəni irsinin dirçəlişi" mövzusunda ictimai dinləmə keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbiri açan Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva dövlət və ictimai qurumların geniş tərkibdə təmsilçiliyi ilə Qərbi Azərbaycanla bağlı ictimai dinləmənin Milli Məclisdə keçirilməsini mövzuya yüksək münasibətin ifadəsi kimi dəyərləndirib və tədbirin təşkilinə görə parlament rəhbərliyinə təşəkkürünü bildirib.

Mədəniyyət komitəsinin sədri Ümummilli Lider Heydər Əliyevin Qərbi Azərbaycan mövzusuna necə həssas yanaşmasından söz açaraq qeyd edib ki, Prezident İlham Əliyevin Qərbi Azərbaycana qayıdış konsepsiyasını irəli sürməsi cəmiyyətimizdə bu mövzuya konseptual baxış, dövlət-xalq birliyi formalaşdırmaqla ədalətin təntənəsinə böyük inam yaradıb.

Qənirə Paşayeva qeyd edib ki, tarixi-mədəni hüdudlarımız respublikamızın sərhədləri ilə bitmir, Ermənistan Respublikası indi "Ermənistan" adlanan tarixi Azərbaycan ərazisindəki mədəni irsimizə qarşı törətdiyi soyqırımın bədəlini ödəyəcək, tarix, insanlıq və hüquq qarşısında cavab verəcək.

Qərbi Azərbaycan İcmasının sədri deputat Əziz Ələkbərov bildirib ki, 2022-ci il dekabrın 24-də Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcmasının inzibati binasında söylədiyi nitqi ilə Azərbaycanın ictimai-siyasi həyatında yeni bir mərhələyə - Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının həyata keçirilməsi, bu tarixi torpaqlarımızdakı maddi və mənəvi irsimiz uğrunda mübarizə mərhələsinə start verilib.

Qərbi Azərbaycan ərazisində tarixi-mədəni abidələrimizin, toponimlərimizin, coğrafi adlarımızın, xalqımızın folklor nümunələrinin öyrənilməsi və təbliğinin hər bir azərbaycanlının borcu olduğunu deyən Əziz Ələkbərov bu istiqamətdə görüləcək işlərlə bağlı fikirlərini bölüşüb, dövlət qurumlarının, yaradıcılıq təşkilatlarının üzərinə düşən vəzifələrdən danışıb. O vurğulayıb ki, indiki Ermənistan ərazisindəki Qərbi Azərbaycan torpaqlarına xalqımızın qayıdışı tam gerçəkləşənə qədər mübarizə davam edəcək.

Səhiyyə komitəsinin sədri, Qərbi Azərbaycan İcması Ağsaqqalları Şurasının sədri Əhliman Əmiraslanov qədim türk yurdu Qərbi Azərbaycan və həmin regionda əsarətdə olan mədəni-tarixi abidələrimiz haqqında fikirlərini bölüşərək Prezident İlham Əliyevin Qərbi Azərbaycan məsələsi ilə bağlı daxili, istərsə də beynəlxalq aləmə çox ciddi mesajlar verdiyini diqqətə çatdırıb. Əhliman Əmiraslanov Qərbi Azərbaycana qayıdış və min illər boyu əcdadlarımızın yaratdığı mədəni irsə sahib çıxmaq və onun tanıdılması ilə bağlı fikirlərini bildirib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Qərbi Azərbaycan həqiqətlərinin daxildə, xaricdə və beynəlxalq təşkilatlarda tanıdılması, Qərbi Azərbaycanla bağlı məlumatların dərsliklərdə və yeni nəşr olunan kitablarda öz əksini tapması və digər görüləcək işlərlə bağlı fikirlərini səsləndirib.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova Ermənistandakı Azərbaycan mədəni irsinin planlı şəkildə məhv edilməsindən və mənimsənilməsindən söz açaraq Qərbi Azərbaycan irsinin araşdırılması və dünyaya tanıdılması fəaliyyətinin istiqamətləri barədə danışıb.

Dinləmədə deputatlar mövzu ilə əlaqədar aidiyyəti qurumların rəhbərləri, alim və tədqiqatçılar, media orqanlarının, qeyri-hökumət təşkilatlarının nümayəndələri Qərbi Azərbaycanda tarixi-mədəni irsimizin soyqırıma məruz qalması, Qərbi Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması, bu bölgədə Azərbaycanın tarixi və mədəni irsinin bərpası və dirçəlişi ilə bağlı fikirlərini bölüşərək təkliflərini səsləndiriblər.

*"Azərbaycan"*

# Avropa İttifaqı Qərbi Azərbaycan İcmasının müraciətinə rəsmi cavab verdi

Xəbər verdiyimiz kimi, Qərbi Azərbaycan İcması Avropa İttifaqı Şurasının və Avropa Komissiyasının prezidentlərinə müraciət edərək azərbaycanlıların zorla qovulduqları Ermənistandakı evlərinə qayıtmaq hüquqlarının təmin edilməsinə Aİ-nin müdaxiləsini xahiş etmişdi.

Qərbi Azərbaycan İcmasından AZƏRTAC-a bildirilib ki, Avropa İttifaqı bu müraciətlərə rəsmi cavab verib. Cavabında Avropa İttifaqı bütün müvafiq əhali qruplarının geri qayıtmaq hüququnu dəstəklədiyini birmənalı şəkildə təsdiqləyir və bu məsələnin daha geniş sülh prosesi çərçivəsində əhəmiyyətini qeyd edir.

Beynəlxalq aləmdə böyük çəkiyə malik olan Avropa İttifaqı Ermənistan və Azərbaycan arasında dövlətlərarası münasibətlərin normallaşmasında, regionda sülhün və sabitliyin təşviqində mühüm rol oynayır.

"Biz hesab edirik ki, Avropa İttifaqının azərbaycanlıların öz vətənlərinə qayıtmaq hüququnu dəstəkləməsi bu işə beynəlxalq dəstəyin gücləndirilməsində mühüm addımdır. Fikrimizcə, bu rəsmi cavab Ermənistandan qovulmuş azərbaycanlıların çətin vəziyyətinin həll edilməsinə olan təcili ehtiyacının beynəlxalq səviyyədə artan etirafını ifadə edir. Bu, həm də Qərbi Azərbaycan İcmasının bu aktual humanitar problemin ədalətli və davamlı həllinə nail olmaqda etibarlı tərəfdaş kimi mövqeyini gücləndirir. Qərbi Azərbaycan İcması bu istiqamətdə Avropa İttifaqı ilə gələcək dialoq və praktiki əməkdaşlığı səbirsizliklə gözləyir. İcma azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtmasını təmin etmək, beləliklə, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq regionda barışıq, sabitlik və birgəyaşayışı təşviq etmək üçün Avropa İttifaqı ilə sıx əməkdaşlıq etməyə sadiq qalır", - deyə İcmanın məlumatında vurğulanıb.



## Azərbaycanın QURTULUŞ salnaməsi: Heydər Əliyevdən İlham Əliyevə 30

# Tarixin ən qüdrətli Azərbaycanı

*30 il əvvəl - 1993-cü ilin iyun ayında xalqımızın istək və arzusu ilə Naxçıvandan Bakıya gələn Ulu Öndər Heydər Əliyevin başlatdığı qurtuluş missiyası Azərbaycanı bütün təhlükələrdən və böhranlardan xilas etdi. Heydər Əliyev öz müdrikliyi və siyasi dühası ilə uçurum qarşısında olan dövlətçiliyimizi qətiyyətlə qorudu, kövrək müstəqilliyimizin itirilməsinə imkan vermədi.*

*Azərbaycan Ağsaqqallar Şurasının və "Azərbaycan" qəzetinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə və Milli Qurtuluş Gününün 30-cu ildönümünə həsr olunan "Azərbaycanın qurtuluş salnaməsi: Heydər Əliyevdən İlham Əliyevə" mövzusunda konfransda Heydər Əliyevin xalqımız qarşısındakı tarixi xidmətlərindən, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın öz tarixinin ən qüdrətli dövlətinə çevrilməsindən bəhs olundu.*

*Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edildi.*



*Konfrans iştirakçılarını salamlayan **Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Eldar QULİYEV** bildirdi ki, Ulu Öndər Heydər Əliyevin 100 illiyi ilə bağlı Azərbaycanın dörd bir yanında və respublikamızın hüdudlarından kənarda çoxsaylı tədbirlər keçirilir. Bu tədbirlərin hər biri xalqımızın Heydər Əliyevin xatirəsinə dərin ehtiramının ifadəsidir. Eyni zamanda bu tədbirlər Prezident İlham Əliyevin, may ayının 10-da Şuşadan xalqımıza müraicətində qeyd etdiyi kimi, qarşıdakı vəzifələrin müəyyən edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu tədbirlər həm də Heydər Əliyev irsinin gənc nəsillərə ötürülməsi, aşılanması və təbliği baxımından olduqca əhəmiyyətlidir:*

- Azərbaycan Ağsaqqallar Şurası da "Heydər Əliyev İli"ndə keçirdiyi silsilə tədbirlərlə Ulu Öndəri yad edir. Hesab edirəm ki, Heydər Əliyevə həsr olunmuş tədbirlərin ağsaqqallar tərəfindən keçirilməsi xüsusən mənəvi baxımdan əhəmiyyətlidir. Çünki Azərbaycan Ağsaqqallar Şurasının, o cümlədən təşkilatımızın İdarə Heyətinin hər bir üzvü Heydər Əliyevin müasirləridir. Onların hər biri Heydər Əliyevin nəinki müstəqillik, hətta Azərbaycana birinci rəhbərliyi dövründə gördüyü işlərə birbaşa şahidlik ediblər. Növbəti belə tədbiri isə biz Milli Məclisin orqanı, rəsmi dövlət nəşri "Azərbaycan" qəzeti ilə birlikdə keçiririk.

Dövlət müstəqilliyimizin bərpasından sonra ölkəmizdə yaranmış acınacaqlı vəziyyət hər birimizin yaddaşındadır. İlk dövrlərdə hakimiyyətdə olanların səriştəsizliyi, naşılığı, hətta milli xəyanət yolu tutmaları müstəqilliyimizi uçuruma gətirib çıxarmışdı. Bir tərəfdən torpaqlarımız işğal olunur, digər tərəfdən separatçılıq baş alıb gedirdi. Ölkə xaos və anaxiya içərisində idi, başıpozuq dəstələr, reketlər at oynadırdılar, dövlət idarəetməsi tamamilə iflic olmuşdu. 1993-cü il iyunun əvvəllərində Gəncədə baş verən qardaş qırğını isə Azərbaycandakı dərin siyasi böhranın kulminasiya nöqtəsi idi.

Azərbaycan məhv olmaq təhlükəsi qarşısında qalsa da, xalq hələ ümidini itirməmişdi, çünki Heydər Əliyev faktoru var idi. Hər kəs dərindən inanırdı ki, Heydər Əliyev kimi şəxsiyyət Bakıya gəlsə, Azərbaycanı bütün təhlükələrdən xilas edə bilər. Ona görə Azərbaycanın dağılmaq və parçalanmaq təhlükəsi ilə üzləşdiyi vaxtda xalqımızın özünün böyük oğlu, həyatı və mübarizəsi üçün ümummilli liderlik missiyası xarakterik olan Heydər Əliyevə üz tutması təsadüfi deyildi. Hər kəs yaxşı bilirdi ki, ölkədəki hərc-mərcliyi, itaətsizliyi, anarxiyanı, siyasi çəkişmələri, Gəncədə başlanmış qardaş qırğınını, hərbi xəyanəti, qanunsuz silahlı dəstələrin Bakıya yürüşünü, yalnız bu böyük insan aradan qaldıra bilər.

Xalqının səsinə səs verən Heydər Əliyevin Bakıya gəlişi, daha sonra Gəncəyə səfər etməsi ilə qardaş qırğınının qarşısı alındı. Ulu Öndər həmin günlərdə həm də ağsaqqallıq missiyasını yerinə yetirdi. Heydər Əliyevin iyun ayının 15-də Ali Sovetin Sədri seçilməsindən sonra isə bütün xalqımız rahat nəfəs aldı. Çünki hər kəs əmin idi ki, əgər Heydər Əliyev hakimiyyət sükanının arxasındadırsa, deməli, bütün təhlükələr dəf ediləcək.

Belə də oldu və ona görə də Heydər Əliyevin Ali Sovetin Sədri seçildiyi 15 iyun tarixi təqvimə Milli Qurtuluş Günü kimi həkk olundu. Həmin gün dövlətçiliyimizin, müstəqilliyimizin xilas olduğu gündür. 15 iyun tarixi Azərbaycanda milli intibahın, güclü dövlətçiliyin, inkişafın təməlinin qoyulduğu gündür. Ona görə bizlər hər zaman Milli Qurtuluş Gününü yüksək ehtiramla, qədirbilənliklə qarşılayırıq.

Heydər Əliyev Azərbaycanı xilas etməklə yanaşı, onun gələcək inkişaf yollarını da müəyyən etdi. Ötən 20 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan hər bir uğurumuz göstərir ki, Heydər Əliyev siyasəti yaşayır, Ulu Öndərin ideyaları dövlətimizi və xalqımızı aydın sabahlara aparır. 20 ildə qazandığımız nailiyyətlər isə olduqca möhtəşəm və qürurvericidir.

Ötən 20 ilin ən böyük hadisəsi isə işğal altındakı torpaqlarımızın azad edilməsidir. 44 günlük savaş tariximizə Prezident İlham Əliyevin qətiyyətinin təntənəsi, ordumuzun gücünün göstəricisi kimi həkk olundu. Bu qələbə bizi qalib xalq etdi, milli ləyaqətimizi, qürurumuzu yüksəltdi. Bu qələbə ilə İlham Əliyev ata vəsiyyətini layiqincə yerinə yetirmiş oldu.

*Azərbaycanın XX-XXI əsr tarixinin 34 ildən çox bir dövrünün Heydər Əliyev şəxsiyyəti ilə, onun birbaşa böyük quruculuq fəaliyyəti ilə sıx bağlı olduğunu deyən **Azərbaycan Ağsaqqallar Şurasının İdarə Heyətinin üzvü, Milli Məclisinin deputatı, akademik Ziyad SƏMƏDZADƏ** bildirdi ki, qloballaşan dünyada ən məşhur siyasətçilər, proqnozlaşdırıcılar şəxsiyyətin təntənəsi amilini müasir dövrün ən aparıcı inkişaf amillərindən sayırlar. Heydər Əliyevin ideyaları isə Azərbaycanın davamlı və keyfiyyətli inkişafının əsasıdır:*

- Azərbaycanın müstəqilliyinin ilk illərində başabəla islahatçıların professionallıqdan uzaq, reallığı nəzərə almayan addımları nəticəsində respublikamızın sosial-iqtisadi göstəriciləri 70-ci illərdəki göstəricilərlə müqayisədə xeyli pisləşdi. 1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi nəticəsində Azərbaycanın müstəqilliyinin itirilməsi təhlükəsi yarandıqda xalqımızın tələbi ilə zəngin dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyev yenidən böyük siyasətə qayıtdı. O, Azərbaycanı ağır fəlakətdən qurtarmaq üçün milli mənafelərimizə uyğun inkişaf strategiyasını hazırladı.

Ulu Öndər böhran vəziyyətində olan iqtisadiyyatı dirçəltmək və bununla da ölkənin müstəqilliyini qorumaq, iqtisadi təhlükəsizliyini təmin etmək üçün neft amilini ön plana çəkdi. Heydər Əliyev əminliklə bildirirdi ki, Azərbaycanın dünyanın aparıcı şirkətləri ilə 1994-cü il 20 sentyabrda imzaladığı "Əsrin müqaviləsi"si ölkəmizin tərəqqisinə güclü təkan verəcək, müstəqilliyimizin əsaslarını möhkəmləndirəcək, respublikamızın iqtisadi, sosial həyatında müsbət, köklü dəyişikliklər yaradacaqdır. Belə də oldu.

Azərbaycan Prezidenti İlham Əliyev uğurlar barədə danışaraq demişdir: "1993-cü ildə, o ağır, məşəqqətli günlərdə Ulu Öndər ikinci dəfə hakimiyyətə gəlməsəydi və 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanmasaydı, Azərbaycanın taleyi çox müəmmalı olacaqdı. Ancaq Heydər Əliyevin hakimiyyətə qayıdışı, 1994-cü ilin sentyabrın 20-də tarixi "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycan müstəqilliyinin, bugünkü uğurlarının, dinamik inkişafının əsası qoyulmuş oldu".

Heydər Əliyev liderliyinin gücü onda idi ki, o, bütün işlərə yüksək tələbkarlıqla yanaşırdı. Onun bu keyfiyyəti əsl səfərbərlik amilinə çevrilmişdi. O, daima təhlil aparır, müqayisəli araşdırmalara üstünlük verir, islahatların gedişi prosesində meydana çıxan problemlərin həlli üçün zəruri tələblərin həyata keçirilməsini hökumətdən tələb edirdi.

Ulu Öndər yeni iqtisadi sistemin səmərəli fəaliyyəti üçün çox vacib olan amilə - sahibkarlığın inkişafına xüsusi diqqət verirdi. Sahibkarlığı iqtisadi inkişafın strateji resursu kimi qiymətləndirən Heydər Əliyev özəl sektorun inkişafı, mülkiyyət münasibətlərinin formalaşması, kiçik və orta biznesə mane olan əngəllərin aradan qaldırılması, ümumiyyətlə, əlverişli işgüzar investisiya mühitinin yaradılması üçün ardıcıl və sistemli mübarizə aparırdı. O, milli sahibkarların, orta sahibkarlıq təbəqəsinin formalaşması, yerli resurslardan səmərəli istifadə, rəqabətədavamlı məhsullar istehsalının genişləndirilməsini çox arzulayırdı.

Dövlət başçısı onu da nəzərə almağı tövsiyə edirdi ki, bazar iqtisadiyyatı ilə gedən ölkələrin həm böyük təcrübəsi var, həm də onlar çox çevik hərəkət edirlər ki, istehsala stimul versinlər. Ona görə də müəyyən edilmiş qaydaları şəraitdən asılı olaraq dəyişməyə ehtiyac yaranır. Ulu Öndər deyirdi: "Çeviklik göstərmək lazımdır ki, hansısa qərar üç il bundan qabaq qəbul olunubsa və əgər indi şərait dəyişilibsə, bəlkə müəyyən dəyişikliklər etmək lazımdır. Yəni gərək biz daim bazara nəzarət edək. İdxal-ixrac prosesinə daim nəzarət edək. Biz liberal iqtisadiyyat yaratmışıq. Liberal ticarət yaratmışıq. Ancaq gərək biz bunlara daim nəzarət edək ki, dəyişikliklər zamanı biz də öz dəyişikliklərimizi aparaq və ölkəmiz bütün bu proseslərdən mənfəət götürsün, Azərbaycanda isə özəl sektor inkişaf etsin".

Müstəsna təşkilatçılıq qabiliyyətinə, zəngin idarəçilik təcrübəsinə, dərin təfəkkürə və iti analitik duyuma malik olan Heydər Əliyev həm də nüfuzlu, iradəli, cəsarətli, qətiyyətli, dünya birliyi tərəfindən sayılan, seçilən nadir şəxsiyyətlərdən idi. Heydər Əliyev xarici iş adamları ilə danışıqlarda həmişə milli mənafelər mövqeyindən çıxış edir, onların fəallığının artmasına, qeyri-neft sektorunun, regionların inkişafına daha geniş cəlb edilməsinə mane olan səbəblərin aradan qaldırılmasına böyük səy göstərirdi.

Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətlərindən biri də ölkəmizin müstəqilliyinin qorunması, iqtisadi təhlükəsizliyimiz üçün müstəsna əhəmiyyət kəsb edən qədim İpək yolu nəqliyyat dəhlizinin yenidən bərpası prosesində respublikamızın fəal iştirakını təmin etmək üçün göstərdiyi fəaliyyətdir.

Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Xəzərin statusunun qəbul edilməsi, Yeni Bakı limanının, Bakı Gəmiqayırma Zavodunun fəaliyyətə başlaması, Xəzər Dənizçilik Donanmasının müasir gəmilərlə təminatının ildən-ilə yaxşılaşması, Ələt xüsusi iqtisadi zonasının yaradılması və nəqliyyat kompleksinin inkişafına xidmət edən digər tədbirlərin həyata keçirilməsi Azərbaycanın dünyanın mühüm nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilməsi üçün güclü əsaslar yaratmışdır.

Heydər Əliyev türk dünyasının daha sürətlə inkişafını arzulayırdı və Bakı-Tbilisi-Ceyhan neft-boru kəmərinin və digər neft-qaz marşrutlarının da bu baxımdan tarixi rolunu xüsusi vurğulayır və türk dövlətlərinin iqtisadi-siyasi gücünün artması üçün bütün imkanlardan istifadə edilməsini strateji bir vəzifə kimi qiymətləndirirdi. O, müstəqil Azərbaycan dövlətinin dağılmasının qarşısının alınması, respublikamızın geriliyinin aradan qaldırılması, neft-qaz kontraktlarının bağlanması, ölkənin dinamik inkişafının təmin edilməsi, qloballaşan dünyada Azərbaycanın özünə layiqli yer tutması və s. fundamental problemlərin uğurla həll edilməsinə nail oldu. Azərbaycanı, onun xalqını dünyaya tanıtdı.

Müstəqil dövlətimizin gələcəklə bağlı Heydər Əliyev tərəfindən müəyyən edilmiş strategiyası vardır. Vətənimizin gələcək inkişafı üçün Ulu Öndər tərəfindən möhkəm təməl yaradılmışdır. Bu təməl Azərbaycan dövlətinin dinamik inkişafına, xalqın yaxşı yaşamasına, ölkəmizdə hüquqi, demokratik cəmiyyətin qurulmasına, həmişə milli-mənəvi dəyərləri uca tutan Azərbaycanın sivil dövlətlər içərisində özünə layiqli yer tutmasına xidmət edir.

Bu gün Azərbaycanda ildən-ilə təkmilləşən və dinamik inkişafa xidmət edən sənayeləşmə siyasəti həyata keçirilir, texnoparklar, sənaye məhəllələri yaradılır. Real sektorun inkişafı, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi nəticəsində bu gün Azərbaycan dünyada özünün iqtisadi enerji, ərzaq, maliyyə təhlükəsizliyini təmin edən bir ölkə kimi tanınır.

Tam əminliklə demək olar ki, illər, əsrlər keçəcək, Heydər Əliyevin Azərbaycanın dünəni, bu günü, gələcəyi barədə əbədiyaşar ideyaları müstəqil dövlətimizin daha keyfiyyətli inkişafını, xalqımızın işıqlı gələcəyini təmin edəcəkdir.

***"Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar SADIQOV** bildirdi ki, Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyəti, dövlətimiz və xalqımız üçün gördüyü işlər haqqında saatlarla, günlərlə danışsaq bitməz. Bu böyük şəxsiyyət bütün ömrünü öz xalqının rifahına, Azərbaycanın inkişafına, çiçəklənməsinə sərf edib, dövlətçiliyimizi və müstəqilliyimizi xilas edib və xalqımızın qəlbində özünə əbədi heykəl qoyub. Elə buna görə Prezident İlham Əliyevin sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması xalqımızın dərin rəğbəti ilə qarşılanan qərardır:*

- Heydər Əliyev sadə, zəhmətkeş bir ailədə dünyaya göz açmışdı. Lakin özünün zəhməti, biliyi, istedadı ilə vaxtilə dünyanın iki ən güclü dövlətindən biri olan SSRİ-nin rəhbərliyinə qədər yüksəlmişdi. Bir azərbaycanlının Sov.İKP MK-nin Siyasi Bürosuna üzv seçilməsi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini səviyyəsinə yüksəlməsi sıradan bir təyinat və ya adi bir hadisə deyildi! Heydər Əliyev buna qədər çalışdığı sahələrdə qazandığı nailiyyətlər, eyni zamanda özünün böyük nüfuzu sayəsində bu vəzifələrə yüksəlmişdi.

Azərbaycanda Dövlət Təhlükəsizlik Komitəsinin rəhbərliyində həmişə ermənilər və ruslar çalışmışdılar və təbii ki, onlardan da xalqımıza qarşı yaxşı münasibət gözləmək olmazdı. Heydər Əliyev isə Azərbaycanda DTK sədri vəzifəsinə qədər yüksəlmiş ilk azərbaycanlı idi. Həm də Heydər Əliyev bu qurumun rəhbərliyində çalışanda xalqımızı qorumuş, bir nəfər də olsun azərbaycanlı dissident hərəkatında iştirakına görə məsuliyyətə cəlb olunmamışdı. Heydər Əliyev milli məfkurəyə bağlı olan insanların, ziyalıların öz yaradıcılıqlarına görə təqib olunmasına, onların yaradıcılığına qadağalar qoyulmasına imkan vermirdi. Bu da böyük şəxsiyyətin öz millətinə olan sevgisindən, milli-mənəvi və mədəni dəyərlərimizə olan bağlılığından xəbər verirdi.

1969-cu ildə Heydər Əliyev Azərbaycana rəhbər seçiləndə ölkə geridə qalmış respublika idi. Kənd təsərrüfatında məhsuldarlıq olduqca aşağı düşmüş, neft sənayesi və iqtisadiyyatın digər sahələri tənəzzülə uğramışdı. Xalqın yaşayış səviyyəsi ürəkaçan deyildi. Güclü iqtisadi potensialımızın olmasına baxmayaraq, digər sovet respublikaları ilə müqayisədə Azərbaycan sonuncu yerlərdə qərar tutmuşdu. Heydər Əliyev belə bir vəziyyətdə respublikamızda rəhbərliyə başlamışdı. Tükənməz enerjisi, qeyri-adi təşkilatçılıq bacarığı və rəhbərlik məharəti ilə fəaliyyətə başlayan Heydər Əliyev qısa müddətdə Azərbaycanı tənəzzüldən xilas edərək inkişaf yoluna çıxardı, respublikamız tikinti və quruculuq meydanına çevrildi. Heydər Əliyev şəxsi nüfuzu, düzgün inkişaf strategiyası ilə ittifaq büdcəsindən respublikamıza xeyli vəsait yönləndirilməsinə nail oldu. Məhz Heydər Əliyevin sayəsində ittifaq miqyasında strateji əhəmiyyət daşıyan müəssisələr Azərbaycanda yaradıldı. Yeni obyektlərin bünövrəsini qoyan, fabrik, zavod, istehsal müəssisələri tikdirən, yollar çəkdirib, körpülər, yeni qəsəbələr və yaşayış massivləri saldıran Heydər Əliyev 13 il ərzində Azərbaycanın simasını büsbütün dəyişdi.

Yetmişinci illərdə kənd təsərrüfatında da sürətli inkişaf baş verdi, məhsuldarlığın daha da artması aqrar sahədə yeni göstəricilərə gətirib çıxardı. Kəndli bol məhsul istehsal edərək yaxşı qazanc götürdü, özünə yüksək güzəran qurdu. Elə buna görə kəndlərimizdə evlərin palçıqdan, çiy kərpicdən tikilməsi ənənəsinə son qoyuldu. Evlərin ağ mişar daşından inşasına başlanıldı.

Elmin və təhsilin yüksəlməsinə böyük diqqət yetirildi, ali məktəblərin sayı 12-dən 17-yə çatdırıldı. Minlərlə azərbaycanlı gənc təhsil üçün keçmiş ittifaqın 50-dən artıq şəhərinin 170-dən çox nüfuzlu ali məktəbinə göndərildi. Heydər Əliyevin böyük uzaqgörənliklə yaratdığı Cəmşid Naxçıvanski adına Hərbi Məktəb müstəqillik illərində Azərbaycan Ordusunun kadr təminatında nə qədər böyük rol oynadı.

Həmin dövrdə Azərbaycan mədəniyyəti, incəsənəti, ədəbiyyatı, musiqisi sürətlə inkişaf etdi. Ulu Öndərin respublikamıza birinci rəhbərliyi xalqımızın mədəni, milli-mənəvi yüksəlişinə xidmət edən tədbirlərlə yadda qaldı.

Bir məsələni də qeyd etməliyik ki, Heydər Əliyev və Azərbaycan sanki bir-biri üçün yaranıblar. Tarixə nəzər salanda görürük ki, nə qədər ki, Heydər Əliyev siyasi rəhbərlikdə çalışıb, Azərbaycan inkişaf edib. Həmçinin Heydər Əliyevin istər Azərbaycana rəhbərlik etdiyi, istər Moskvada çalışdığı illərdə ermənilər ərazilərimizə qarşı heç bir iddia ilə çıxış edə bilmirdilər. Ulu Öndər onların bütün riyakar planlarının qarşısında sarsılmaz sipər idi. Yalnız Heydər Əliyevin M.Qorbaçovun yarıtmaz siyasətinə etiraz edərək tutduğu vəzifələrdən istefa verməsindən sonra ermənilər öz saxta iddialarını səsləndirməyə, Azərbaycana qarşı separatçılığa başladılar. Tarixə nəzər salanda görürük ki, Heydər Əliyevin siyasi rəhbərlikdə çalışmadığı illərdə Azərbaycanın yeni tarixinin ən faciəli hadisələri baş verib.

Bu il həm də Milli Qurtuluş Gününün 30-cu ildönümüdür. 30 il əvvəl dövlətçiliyimizin məhvolma, müstəqilliyimizin itirilməsi təhlükəsi ilə qarşılaşdığı ağır, gərgin günlərini hər birimiz yaxşı xatırlayırıq. Torpaqlarımızın işğal olunduğu, separatçılığın, anarxiyanın baş alıb getdiyi həmin günlərdə sabaha inamımız, ümumiyyətlə, qalmamışdı. Hakimiyyəti ələ almış AXC-Müsavat qaragüruhu ölkəni uçuruma gətirib çıxarmışdı. Bütün bunlar, üstəlik, 1993-cü ilin iyunun əvvəllərində Gəncədə baş verən qardaş qırğını milli sarsıntıya səbəb olmuşdu. Və bütün baş verənlər həm də ondan xəbər verirdi ki, Azərbaycanı bu vəziyyətdən yalnız bütün xalqı öz ətrafında birləşdirə bilən nüfuzlu, xarizmatik lider çıxara bilər. Xalqın inandığı, güvəndiyi, etibar etdiyi həmin lider isə Heydər Əliyev idi. Azərbaycanın taleyinə biganə qala bilməyən Heydər Əliyevin 1993-cü il iyun ayının 9-da Bakıya gəlişi və iyunun 15-də Ali Sovetin Sədri seçilməsi ilə dövlətimiz və xalqımız bütün təhlükələrdən qurtuldu.

Heydər Əliyev Naxçıvandan özü ilə nə silah gətirmişdi, nə də ordu. Heydər Əliyev yalnız özünün zəkası, siyasi müdrikliyi, uzaqgörənliyi ilə parçalanmaq, məhv olmaq təhlükəsi qarşısında olan Azərbaycanı xilas etdi, əbədi dövlətçiliyimizin və müstəqilliyimizin sarsılmaz təməllərini yaratdı. Ulu Öndər Heydər Əliyev öz tarixi missiyası ilə müasir və müstəqil Azərbaycan dövlətinin banisinə, xalqımızın Ümummilli Liderinə çevrildi.

Əbədiyaşar şəxsiyyət Heydər Əliyevin müstəqil respublikamıza rəhbərlik etdiyi illərdə hüquqi dövlət quruculuğu həyata keçirildi, enerji strategiyası ilk uğurlu nəticələrini verdi, Azərbaycan inkişaf yoluna qədəm qoydu. Ulu Öndərin Azərbaycan dövlətçiliyinin gələcəyi üçün gördüyü işlərdən iki məqama toxunmaq istəyirəm. Bunlardan biri odur ki, Heydər Əliyev respublikamızın bu günü və gələcəyi üçün mükəmməl siyasi kurs müəyyən edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 20 ildə qazandığımız uğurlar Heydər Əliyev yolunun nə qədər düzgün və alternativsiz olduğunu göstərir.

Ulu Öndərin xalqımız qarşısında digər tarixi xidməti cənab İlham Əliyev kimi qətiyyətli siyasi varisini yetişdirməsi, dövlətimizin gələcəyini etibarlı əllərə tapşırmasıdır. Geridə qoyduğumuz 20 ilə yaxın bir dövrdə Azərbaycanda tariximiz boyu görmədiyimiz inkişafın yaşanması, Azərbaycanın tarixinin ən qüdrətli dövlətinə çevrilməsi Heydər Əliyevin müdrikliyini və uzaqgörənliyini təsdiq edən ən mühüm tarixi reallıqlardır.

Prezident İlham Əliyev Azərbaycanı inkişaf etdirərək Ulu Öndərin arzuladığı dövlətə çevirib. Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasını və ərazi bütövlüyümüzün bərpasını təmin etməklə isə İlham Əliyev Heydər Əliyevin ən böyük arzusunu həyata keçirdi. Ona görə artıq Heydər Əliyevin ruhu da şaddır.

*Müstəqil dövlətçiliyin Heydər Əliyev modeli və müasirlik mövzusunda danışan **AMEA-nın prezidenti, Milli Məclisin deputatı, akademik İsa HƏBİBBƏYLİ** qeyd etdi ki, Heydər Əliyev Azərbaycanın çoxəsrlik dövlətçilik ənənələrinin əsasında yetişib formalaşmış görkəmli dövlət xadimidir:*

- Çar Rusiyasının və SSRİ adlandırılan qırmızı terror bolşevik dövlətinin tərkibində olan digər xalqları əridib sıradan çıxarmaq siyasətinin qarşısında milli-mənəvi dəyərlərin, azərbaycançılıq ideyasının açıq və qapalı bütün tərəflərini görən Heydər Əliyev dövlətçilik təliminə milli istiqlal ideyasını gətirmişdir. Buna görə də o, hələ sovet hakimiyyəti illərində xalqını gələcək dövlət müstəqilliyinə hazırlamaq missiyasını böyük bacarıqla həyata keçirmişdir.

Keçmiş SSRİ-nin rəhbərləri arasında yeganə olaraq Heydər Əliyev həmin dövlətin hələ mövcud olduğu şəraitdə, 17 noyabr 1990-cı il tarixdə çağırılmış Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında sovet bayrağını siyasi səhnədən çıxararaq əvəzində Azərbaycanın milli dövlətçilik rəmzi olan tarixi bayrağını Kommunist Partiyasının regional mərkəzinin iqamətgahı üzərində ucaltmağa nail olmuşdur. Bundan əlavə, Heydər Əliyev sovet hökumətinin hələ qüvvədə olduğu vaxtda - 19 iyul 1991-ci ildə SSRİ Nazirlər Soveti partiya təşkilatına Kommunist Partiyası sıralardan çıxmasını rəsmi şəkildə bəyan etməsi ilə həmin rejimin çökməsinə zərbə vuran yeganə dövlət xadimidir. Bütün bu kimi cəsarətli tarixi addımları Heydər Əliyevi dünya tarixinin istiqamətinin dəyişdirilməsinə nail ola bilən şəxsiyyət səviyyəsinə ucaltmışdır.



## Azərbaycanın QURTULUŞ salnaməsi:
## Heydər Əliyevdən İlham Əliyevə

30

# Qurtuluş missiyasının məntiqi nəticəsidir



Bununla Heydər Əliyev dünya xəritəsinin yenidən çəkilməsinin zərurətini və mümkünlüyünü isbat etmişdir.

Müstəqil dövlət quruculuğu istiqamətində də ən böyük uğurla sınaqdan çıxmış Heydər Əliyev təlimi mövcuddur. Ölkəmizdə vətəndaş müharibəsini qansız-qurbansız dayandırmağı bacarmaq və Azərbaycanda yaşayan bütün xalqların siyasi həmrəyliyinə nail olmaq Heydər Əliyevin dövlətçilik təliminin əyani təzahürlərindən biridir.

Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin modelini qurmuş və möhkəm siyasi-ideoloji əsaslarını yaratmış, Ümummilli Lider səviyyəsinə yüksəlmişdir. Azərbaycanın dövlət ideologiyası olan azərbaycançılıq təlimi də Heydər Əliyevə məxsusdur. Azərbaycan xalqı, Azərbaycan dili, azərbaycançılıq ideologiyası kimi anlayışlar ölkəmizin müstəqillik tarixində siyasi sabitliyə və vətəndaş həmrəyliyinə nail olmaq üçün Heydər Əliyevin müəyyən etdiyi düsturlardır.

Azərbaycan Prezidenti İlham Əliyev müstəqil Azərbaycanı inkişaf etməkdə olan ölkədən bütün istiqamətlər üzrə inkişaf etmiş dövlətlərin cərgəsinə doğru aparmaqla yeni tarixi mərhələdə öz erasını yaratmış qüdrətli liderdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində işğalçı Ermənistan üzərində qazanılan tarixi zəfər Azərbaycanın çoxəsrlik tarixinin möhtəşəm qəhrəmanlıq dastanıdır.

Azərbaycan xalqı Prezident İlham Əliyevin elan etdiyi "Heydər Əliyev İli"ni təntənəli surətdə bayram etməklə müstəqil dövlətçiliyin əbədiyyət qazanmasının qürurunu yaşayır. Görkəmli dövlət xadimi Heydər Əliyev əbədiyyət qazanmış Ümummilli Lider kimi müstəqil dövlətçilik idealları və dərsləri ilə həm mənsub olduğu xalqının qəlbində və həm də Azərbaycanın inkişafının hər nümunəsində yaşamaqda davam edir.

*Bu ilin "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları, Azərbaycanı və azərbaycanlıları sevənlər xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyini böyük coşqu və sevinclə qeyd edirlər. Bu barədə danışan **Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, Milli Məclisin İntizam komissiyasının sədri Eldar İBRAHİMOV** dedi ki, Heydər Əliyev Azərbaycan dövlətini və millətini zamanın ən çətin sınaqlarından çıxararaq ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmuş qüdrətli şəxsiyyətdir, onun Azərbaycan dövləti və xalqı qarşısındakı möhtəşəm xidmətləri gələcək nəsillərin qəlbində də daim yaşayacaq:*

- Heydər Əliyev 1969-cu ildə birinci dəfə Azərbaycanda rəhbərliyə başladığı ilk gündən bütün həyatını özünün qibləgahı hesab etdiyi Azərbaycanın iqtisadi inkişafına, milli-mənəvi dəyərlərin bərpası və tərəqqisinə, müstəqilliyinin formalaşmasına həsr etmişdir. Heydər Əliyevin həmin dövrdəki fəaliyyətinə ən real və obyektiv qiymət Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 85 illik yubileyi haqqında" sərəncamda özünün əksini tapmışdır. Sərəncamda deyilir: "1969-1982-ci illərdə həyatımızın bütün sahələrində baş vermiş köklü dəyişikliklər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir. Ölkəmizin müstəqilliyinin və dünya iqtisadiyyatına inteqrasiya proseslərinin hazırkı möhkəm təməli Heydər Əliyev tərəfindən həmin illərdə yaradılmış potensiala əsaslanır".

Heydər Əliyev 1982-1987-ci illərdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü kimi SSRİ-yə rəhbərlik edən ilk azərbaycanlı olmuşdur. O, 1987-ci ildə məlum səbəblərdən vəzifəsindən istefa verdikdən sonra 1990-cı ildə Bakıya və sonra isə doğulub boya-başa çatdığı Naxçıvana getmişdir. Naxçıvan əhalisi görkəmli dövlət və siyasi xadimi Naxçıvan MSSR və Azərbaycan SSR Ali Sovetinə deputat seçmişdir. Mən də həmin il Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdim və Heydər Əliyevlə birlikdə Ali Sovetin sessiyalarında iştirak edirdik. Heydər Əliyev hər iki ali qanunverici orqanın işində deputat kimi çox fəal idi. 1990-cı ilin noyabr ayının 17-də muxtar respublikanın Ali Sovetinin birinci sessiyasında SSRİ-nin mövcud olmasına baxmayaraq, Heydər Əliyev böyük cəsarət göstərərək doğma Azərbaycanımızın müstəqilliyinin rəmzi olan üçrəngli bayrağın dövlət bayrağı kimi qəbul edilməsi, muxtar respublikanın adından "Sovet Sosialist" sözlərinin çıxarılması və Ali Sovetin Ali Məclis adlandırılması barədə təkliflər verdi. Onun bu təklifləri qəbul olundu və həmin gün Azərbaycan Respublikasının müstəqilliyinin əbədi və dönməz olmasının möhkəm təməlinin qoyulduğu gün kimi tarixə düşdü.

Məhz Heydər Əliyevin səyləri nəticəsində ilk dəfə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 yanvar faciəsinə siyasi qiymət verilməsi, dekabrın 31-nin "Dünya Azərbaycanlılarının Həmrəylik Günü" elan edilməsi və SSRİ-nin saxlanması barədə referendumdan imtina barədə qərarlar qəbul olundu. 1991-ci ilin 3 sentyabrında Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri və 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının təsis konfransında partiyanın sədri seçildi.

Muxtar Respublikada həyata keçirilən islahatlar, qonşu dövlətlərlə münasibətlərin tənzimlənməsi və iqtisadiyyatda əldə edilən müsbət dəyişikliklər nəticəsində Heydər Əliyevin nüfuzu Naxçıvanda və ümumiyyətlə, Azərbaycanda sürətlə artırdı. Hamı Heydər Əliyevin Naxçıvanda başladığı Milli Qurtuluş savaşının zəfər yürüşünə qəlbən inanır və Bakıda onun yolunu gözləyirdi.

1993-cü ilin iyununda Azərbaycanda çox ağır vəziyyət yaranmış, ölkədə iqtisadi, sosial və siyasi gərginlik son həddə çatmış, çətinliklə qazanılmış dövlət müstəqilliyinin itirilməsi qorxusu yaranmış, Gəncədə hakimiyyətə itaətsizlik göstərilərək, vətəndaş müharibəsi başlamışdı. Belə bir şəraitdə vəziyyətdən yeganə çıxış yolunu Heydər Əliyevin Azərbaycana hakimiyyətə gəlməsində görən Azərbaycan xalqı təkidlə onu Bakıya dəvət edirdi. Xalqın bu tələbini qəbul edərək Bakıya gələn Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Milli Məclisinin iclasında Ali Sovetin Sədri seçildi.

Sonralar mən 1997-ci il iyunun 17-də Milli Məclisin iclasında 15 iyunun Milli Qurtuluş Günü kimi qeyd olunmasına dair qanun qəbul edilməsi barədə təklif verdim. Həmin təklif 10 gün sonra keçirilən iclasda deputat həmkarlarının böyük əksəriyyətinin dəstəyini aldı və 15 iyun Azərbaycan xalqının Milli Qurtuluş Günü elan edilərək bayramlar sırasına daxil olundu.

Mübaliğəsiz demək olar ki, Heydər Əliyevin Ali Sovetin Sədri vəzifəsində çalışdığı qısa zaman kəsiyində Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət kimi gələcək inkişafının əsası qoyuldu. Zəngin idarəçilik təcrübəsinə və yenilməz iradəyə malik belə bir tarixi şəxsiyyətin hakimiyyətə qayıdışı Azərbaycanın müstəqil dövlətçiliyini, siyasi varlığını məhv olmaq təhlükəsindən xilas etməklə yanaşı, həm də tariximizdə yeni dövrün başlanğıcını qoydu. 1993-cü il oktyabrın 3-də Azərbaycan Prezidenti seçilən Heydər Əliyev tezliklə Ermənistanla atəşkəsə nail oldu, ölkənin yeni Konstitusiyası qəbul edildi, respublikamızın gələcək sosial-iqtisadi inkişafının əsasını təşkil edən "Əsrin müqaviləsi" bağlandı və dövlətimizin parçalanmasına yönəlmiş separatizmin kökü kəsildi.

Qədirbilən xalqımız Heydər Əliyevin Azərbaycan xalqı və dövlətinin xoş gələcəyi naminə həyata keçirdiyi möhtəşəm fəaliyyətini nəzərə alaraq onu özünün Ümummilli Lideri kimi qəbul edir və xatirəsini əziz tutur, böyük hörmət və ehtiramla yad edir. Hesab edirəm ki, Heydər Əliyevin 15 iyun 1993-cü ildə hakimiyyətə qayıdışı ölkəmizi məhv olmaqdan qurtardığına, qısa müddətdə beynəlxalq aləmdə böyük nüfuz sahibi olmaqla dünyada görünməmiş iqtisadi və sosial inkişafa nail olan müasir Azərbaycan Respublikasının formalaşmasının əsasını qoyduğuna görə 15 İyun Milli Qurtuluş Günü əsl bayramdır. Heydər Əliyevin müstəqil dövlətçilik irsi bundan sonra da uzun müddət öyrəniləcək və təbliğ ediləcək, özünün dediyi kimi, nə qədər ki, Azərbaycan var, Heydər Əliyev də olacaqdır.

***Azərbaycan Ağsaqqallar Şurası sədrinin birinci müavini, akademik, Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman ƏMİRASLANOV** bildirdi ki, türk dünyasının böyük oğlu, görkəmli dövlət xadimi xalqımızın Ümumilli Lideri Heydər Əliyevin 100 illiyində və Milli Qurtuluş Günü ərəfəsində Ulu Öndərimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edirik. Mən çox böyük fəxarət hissi ilə bildirmək istəyirəm ki, Ulu Öndər Heydər Əliyevin müasiriyəm. Ulu Öndərin Azərbaycana rəhbərliyi dövründə elmi, siyasi və dövlət idarəçiliyi prosesində iştirak etmiş, böyük şəxsiyyətlə görüşmüş və rəhbərliyi ilə müxtəlif tədbirlərinin iştirakçısı olmuşam:*

- Türk dünyasının fəxri olan Ulu Öndər Heydər Əliyev XX əsrdə Azərbaycan xalqının yetirdiyi böyük dühalardan biri kimi ehtiramla xatırlanır. Bu dahi insanı başqa tarixi şəxsiyyətlərdən fərqləndirən başlıca xüsusiyyətlər onun qeyri-adi zəkaya, yüksək təşkilatçılıq bacarığına, hadisələri müşahidə və təhlil etmək sahəsində unikal qabiliyyətə malik olmasıdır. Heydər Əliyev dühasının şöhrəti bir xalq, bir ölkə, bir qitə çərçivəsinə sığmayıb, bütün dünyaya yayılmışdır.

Heydər Əliyev 34 illik siyasi və dövlətçilik fəaliyyəti dövründə Azərbaycanın hərtərəfli inkişafı, müstəqilliyin möhkəmləndirilməsi, dünya birliyində layiqli yerini tutması üçün yorulmadan və əzmlə çalışmış və buna nail olmuşdur. Ulu Öndər müasir və müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur. Bu dahi şəxsiyyətin siyasi-ideoloji fəaliyyəti təkcə Azərbaycanla məhdudlaşmayıb, bütövlükdə türk dünyasını, ümumən dünyanı əhatə edir.

1997-ci il iyunun 15-dən bayram edilən, 1998-ci ildən isə dövlət bayramı statusu alaraq hər il rəsmi bayram kimi qeyd olunan 15 iyun xalqımızın Milli Qurtuluş Günüdür. Bu şanlı tarix səhifəsini yaradan isə Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa olan bir insan - Ümummilli Lider Heydər Əliyevdir.

1991-ci ilin oktyabr ayında Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Ermənistanın təcavüzü respublikada vəziyyəti gərginləşdirirdi. Vətənin bu ağır dövründə Heydər Əliyev xalqın, ziyalıların xahişi ilə hakimiyyətə qayıtdı, 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi. Bununla da dövlətçiliyimiz yox olmaq təhlükəsindən xilas edildi. Məhz buna görə tariximizə Milli Qurtuluş kimi daxil olmuş 1993-cü ilin 15 iyun günü onu qiymətləndirənlər, dərindən dərk edənlər üçün çox əzizdir. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 15 iyun sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik hadisədir. Çünki Heydər Əliyevin hakimiyyətə qayıtması xalqımızın çoxəsrlik tarixinə taleyüklü möhtəşəm siyasi hadisə kimi daxil olmuşdur. Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorumuş, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırmış və inkişafın təməlini qoymuşdur. Bununla da ölkədə davam edən gərginlik və qarşıdurmaya son qoyulmuş, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas olmuşdur.

Həmin illər "olum, ya ölüm" ayrıcında qalmış Azərbaycan Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrilməyə başladı. Nəticədə 1993-cü il oktyabrın 3-də Ümummilli Lider xalqımızın böyük dəstəyi ilə Prezident seçildi.

Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi sosial-iqtisadi, siyasi və mənəvi tədbirlərin nəticəsi kimi, bir tərəfdən ordunun formalaşdırılması - Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması ilə bağlı mühüm addımlar atıldı. Digər tərəfdən, 1994-cü ilin may ayında həyati əhəmiyyət kəsb edən atəşkəs əldə edildi. Atəşkəsin həyati əhəmiyyəti onda idi ki, məhz bu müqavilədən sonra ölkəmizin dünya birliyinə inteqrasiyası sürətləndi, ölkəmizin iqtisadi potensialından səmərəli istifadə edilərək dünya bazarına daxil olmağa şərait yaradan beynəlxalq müqavilələr bağlandı. Ölkə daxilində yaranmış sabitlikdən, həmçinin beynəlxalq aləmdə Azərbaycana münasibətdə artan inamdan irəli gələrək 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması və onun gerçəkləşdirilməsi də məhz Ulu Öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanan və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

***Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, professor Elmira SÜLEYMANOVA** bildirdi ki, Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısında ən mühüm, sözün əsl mənasında, taleyüklü xidməti ötən əsrin 90-cı illərinin əvvəllərində, bərbad və böhranlı vəziyyətdə olan ölkəmizi xilas etməsi, yenidən qurması, özünün də dediyi kimi, günəş kimi parlayan müstəqil, azad, demokratik, hüquqi Azərbaycan dövlətin yaratmasıdır:*

- Heydər Əliyev müstəqil dövlətimizin özülünü yaratdı, inkişafı və möhkəmlənməsi məqsədlərinə xidmət edən hərtərəfli strategiyalar işləyib hazırladı, problemlərin həll olunması üçün ən səmərəli istiqamətlər, yollar göstərdi. Xalqın tələbi ilə siyasi hakimiyyətə qayıtdıqdan sonra Heydər Əliyev ölkəni ağır vəziyyətdən çıxarmaq üçün sistemli, ardıcıl islahatlar həyata keçirməyə başladı, güclü iqtisadiyyatın qurulması üçün konkret addımlar atdı. Ulu Öndər Heydər Əliyevin ilk qərarlarından biri 1994-cü ildə ağır geosiyasi bir vəziyyətdə Azərbaycan və Ermənistan arasında atəşkəsin əldə edilməsi idi. Bununla da Heydər Əliyev dövlətimizin inkişafı və ordumuzun güclənməsi üçün tarixi şərait yaratdı.

Heydər Əliyevin qətiyyəti ilə 1994-cü ildə, bir çoxlarına möcüzə kimi görünsə də, Azərbaycan inkişaf etmiş ölkələrdən güclü investisiyalar almağa, "Əsrin müqaviləsi" adını alan neft sazişinin bağlanmasına nail oldu. Bu sazişin Azərbaycanın iqtisadi inkişafında və beynəlxalq nüfuzunun artmasında böyük əhəmiyyəti bu gün də göz qabağındadır.

1999-cu ildə keçirilmiş tarixi İstanbul Sammitində Heydər Əliyev ilk dəfə olaraq Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün Bakı-Tbilisi-Ceyhan marşrutunun seçildiyini bəyan etdikdə, o zaman Türkiyənin Prezidenti Süleyman Dəmirəl bu hadisəni belə qiymətləndirmişdi: "Heydər Əliyev bu qərarı ilə yalnız Azərbaycanı, yalnız Türkiyəni deyil, bütün türk dünyasını şərəfləndirdi".

Heydər Əliyev həm də hüquqi islahatların banisidir. Demokratik, hüquqi dövlətdə qarşıda duran prioritetlərdən biri də insan hüquq və azadlıqlarının təmin olunması idi. Bu istiqamətdə Ulu Öndərin tövsiyələri ilə qanunvericiliyin təkmilləşdirilməsi və yeni normativ hüquqi aktların gerçəkləşdirilməsi üçün müvafiq qurumlar yaradıldı.

Qeyd etmək istərdim ki, Heydər Əliyevin siyasətinin mərkəzində hər zaman insan amili xüsusi yer tutub. 1993-cü ildə Ulu Öndər Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra verdiyi ilk qərarlar buna bariz nümunədir. Məsələn, Heydər Əliyev siyasi hakimiyyətə qayıtdıqdan sonra əvvəlcə ölüm cəzasına veto qoydu. 1998-ci ildə isə Ulu Öndərin təşəbbüsü ilə Milli Məclis tərəfindən ölüm cəzasının qadağan olunması haqqında qərar qəbul edildi. Heydər Əliyev ölkədə əfv institutunu bərpa etdi və fəaliyyəti dövründə 32 əfv fərmanı və sərəncamları imzaladı, minlərlə məhkum ailəsinə və cəmiyyətə qovuşdu. Yeri gəlmişkən, Prezident İlham Əliyev bu humanist siyasəti davam etdirir. O, Ulu Öndərin 100 illiyi ərəfəsində, tariximizdə ən böyük əfv sərəncamı imzaladı ki, bu da 800 nəfərdən çox məhkuma şamil olundu. Heydər Əliyevin baş müəllifliyi ilə 1995-ci ildə müstəqil dövlətimizin Konstitusiyasının qəbul olunması da mühüm siyasi-ictimai və hüquqi hadisələrdən biridir.

İnsan hüquqları sahəsində institutlaşmaya gəldikdə, 2001-ci ilin yanvarın 25-də Azərbaycan Avropa Şurasına üzv qəbul olundu, dekabrın 28-də Milli Məclis Ombudsman haqqında konstitusiya statuslu qanun qəbul etdi. Çox çevik, dinamik tərzdə 2002-ci ilin iyul ayının 2-də Heydər Əliyevin tövsiyəsi ilə Milli Məclisdə ilk Ombudsman seçildi. Beləliklə, Ulu Öndərin banisi olduğu müstəqil respublikamızda analoqu olmayan Ombudsman təsisatı yarandı və o, qısa müddət ərzində öz səmərəli fəaliyyəti və təşəbbüsləri ilə həm ölkədə, həm də beynəlxalq aləmdə tanındı və nüfuz qazandı.

Heydər Əliyevin ən böyük arzuları torpaqlarımızın işğaldan azad olunması və məcburi köçkünlərin öz doğma evlərinə qayıtması idi. Ulu Öndərin bu arzusunu müzəffər Prezident, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev yerinə yetirdi. İlham Əliyev qəhrəman xalqımızı və rəşadətli ordumuzu yumruq kimi ətrafında birləşdirərək 44 günlük Vətən müharibəsində torpaqlarımızı Ermənistanın işğalından azad etdi. Bununla da Müzəffər Ali Baş Komandan İlham Əliyev ata vəsiyyətini yerinə yetirmiş oldu. Bu gün Qarabağ və Şərqi Zəngəzur böyük tikinti meydanına çevrilib və keçmiş məcburi köçkünlər tədricən doğma yurdlarına geri dönürlər.

Ulu Öndər Heydər Əliyev öz fəaliyyəti, xalqımız qarşısında misilsiz xidmətləri ilə ölməzlik, əbədiyaşarlıq qazanıb. Azərbaycan Heydər Əliyev ideyalarının işığında inkişaf edir, yüksəlir. Ulu Öndərin əziz xatirəsi hər zaman xalqımızın qəlbində yaşayacaq.

***Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini Bayram YUSİFOV** bildirdi ki, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümündə, Milli Qurtuluş Gününün 30 illik yubileyi ərəfəsində xalq olaraq bir daha Ümummilli Liderimizin əziz xatirəsinə öz hörmət və ehtiramımızı bildiririk:*

- Ulu Öndər Heydər Əliyev öz həyatını doğma xalqına həsr etmiş dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Ümummilli Lider bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə doğru aparmışdır. Sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün ən həlledici anlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir. Ulu Öndərin anadan olmasından 100 il ötür. Zaman keçdikcə Ümummilli Liderin dahiliyi daha da aydın görünür.

Heydər Əliyevin fikirləridir: "XXI əsr türk əsri olacaq", "Azərbaycan dünyaya günəş kimi doğacaq". Əsrin başlanğıcında deyilmiş bu tarixi fikirlərin həyata keçdiyini, həmin qürurlu günləri gördükcə Ulu Öndərin uzaqgörən fenomen şəxsiyyət olduğunun bir daha şahidi oluruq.

1987-ci ilin oktyabr ayında ermənipərəst M.S.Qorbaçov Ümumilli Lider Heydər Əliyevi vəzifədən uzaqlaşdırdıqdan iki həftə keçməmiş nankor qonşularımız yenə baş qaldırdılar və Azərbaycanın problemli günləri başladı. 1987-ci ilin oktyabr ayından 1993-cü ilin 15 iyun - Qurtuluş Gününə qədər, yəni Ulu Öndər Heydər Əliyevin hakimiyyətdə olmadığı illərdə biz xaos, hərc-mərclik, hakimiyyət davası, torpaqların əldən getməsi, müstəqilliyimizin təhlükə altına düşməsi, iqtisadi tənəzzül, ölkəmizin parçalanmaq təhlükəsi ilə üzüzə qalması və bu kimi bir çox çətinliklər yaşadıq.

Nə yaxşı ki Azərbaycanın müdrik ziyalıları və ağsaqqalları o vaxt Naxçıvanda yaşayan Ulu Öndər Heydər Əliyevə muraciət edərək Azərbaycanı bu bəlalardan ancaq onun qurtara biləcəyini söylədilər. Səriştəsiz AXC-Müsavat cütlüyünün idarəçiliyindən cana doymuş xalq da bu müraciətə qoşularaq Ümummilli Lideri bizi bu bəlalardan xilas etmək üçün ölkə rəhbərliyinə dəvət etdi. Ulu Öndər xalqın təkidli tələbini və Azərbaycanın düşdüyü acınacaqlı vəziyyəti təhlil edərək hakimiyyətə qayıtdı və qısa müddətdə öz fenomen bacarığı ilə Azərbaycanı bu çətin, böhranlı vəziyyətdən xilas etdi. Amma bu yolda düşmənlərimiz tərəfindən ona daxildən və xaricdən çox təzyiqlər oldu. Buna baxmayaraq, Azərbaycanı istəməyən qüvvələrin ona qarşı davamlı təzyiqləri, hətta sui-qəsd və çevriliş cəhdləri onu yolundan döndərə bilmədi. Çünki o, sözün həqiqi mənasında Ümummilli Lider, Ulu Öndər, xalqını, Azərbaycanı özündən çox sevən lider idi. Özü bu barədə demişdir: "Əgər hansı bir namərd gülləsi, hansı bir terrorçu gülləsi məni həyatdan götürərsə, mənim özüm də, mənim övladlarım da müstəqil Azərbaycanın yaşaması yolunda qurban olmağa hazırıq".

Ulu Öndər müasir Azərbaycan dövlətinin qurucusu və banisidir. İllər ötəcək, əsrlər keçəcək Heydər Əliyev bir mayak kimi Azərbaycan xalqını və digər xalqları xoşbəxt gələcəyə aparan düzgün yolu göstərəcək. Onun həyatı və fəaliyyəti insanlar tərəfindən öyrənilməsi labüd olan ali bir məktəbdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevi Azərbaycan xalqına xilaskar kimi bəxş etdiyinə görə də xalqımız Ulu Öndərin ruhuna daim dualar oxuyur. Ümummilli Liderin İlham Əliyev haqqındakı tarixi fikrini hamımız yaxşı xatırlayırıq: "Mən ona özüm qədər inanıram". Bu, sadəcə atanın öz istəkli oğlu haqqında dediyi ifadə deyildi, bu, bütün türk dünyasının fenomen, müdrik ağsaqqalının potensialını əvvəlcədən bildiyi bir gənc haqqında söylədiyi fikir idi.

"Ot kökü üstə bitər" deyib atalarımız. Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hakimiyyətdə olduğu elə ilk günlərdən, özü dediyi kimi, hər bir azərbaycanlının Prezidenti olmaqla Heydər Əliyevin daxili və xarici siyasət kursunu uğurla davam etdirmişdir. Azərbaycanda olan siyasi və iqtisadi stabillik, hərtərəfli inkişaf, bölgələrin, eləcə də Bakının gündən-günə gözəlləşməsi Ümummilli Lider Heydər Əliyev kursunun inamla və böyük uğurla davam etdirilməsindən xəbər verir.

***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Kapital qoyuluşunun əsas ünvanı - işğaldan azad edilmiş ərazilər

**İqtisadi inkişafın davamlılığının təmin edilməsində kapital qoyuluşunun önəmli rol oynamasının sübuta ehtiyacı yoxdur. Bu, çoxdan qəbul olunmuş faktdır. Azərbaycanda da həyata keçirilən iqtisadi islahatlar və daim təkmilləşdirilən qanunvericilik bazası həm də investorların sərmayə qoyulmasına hədəflənir. Bu zaman ən əsası o olur ki, mövcud şərait investorda güvənlik yaratsın.**



Məlumdur ki, dünyada baş verən siyasi və hərbi qarşıdurmalar, həmçinin beynəlxalq səviyyədəki mövcud geoiqtisadi gərginlik kapital qoyuluşunu bir qədər səngidib. Bu səbəbdən investorlar yalnız yüksək gəlirli və maliyyə baxımından təminatlı sahələrə meyil göstərirlər. Azərbaycanda isə investisiyaların qanunvericilik səviyyəsində qorunması və dinamik iqtisadi inkişafımız sərmayədarların bu çətin vaxtda da ölkəmizə müəyyən qədər kapital qoyuluşunda iştirakını təmin edir. Ancaq qeyd edilən səbəbdən xarici sərmayə istənilən səviyyədə deyil. Əvəzində dövlət kapital qoyuluşunda daxili mənbələrdən kifayət qədər səmərəli istifadə edir və bu səbəbdən iqtisadiyyatımız sərmayə sarıdan korluq çəkmir.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-aprel aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 4 milyard 580 milyon manat və ya ötən ilin eyni dövrü ilə müqayisədə 21,1 faiz çox vəsait yönəldilmişdir. Əvvəlki illərdən fərqli olaraq neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 25,8 faiz artmışdır. Hesabat dövründə qeyri-neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 18,5 faiz yüksək olmuşdur. Yatırılan ümumi sərmayənin 2 milyard 620,2 milyon manatı məhsul istehsalı, 1 milyard 702,5 milyon manatı xidmət sahələrinin, 257,3 milyon manatı isə yaşayış evlərinin tikintisinin payına düşmüşdür.

Bu dövrdə yatırılan sərmayənin 51 faizi dövlət, 49 faizi qeyri-dövlət sektorlarının investorları tərəfindən qoyulmuşdur. Kapital qoyuluşunun 71 faizi tikinti-quraşdırma işlərinə sərf olunmuşdur. Hesabat dövründə daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin dəyəri ümumi sərmayənin 73 faizini təşkil etmişdir.

Kapital qoyuluşunun mənbələri həmişəki kimi müxtəlif olmuşdur. Belə ki, əsas kapitala yönəldilmiş vəsaitdə müəssisə və təşkilatların vəsaitləri 2 milyard 157,5 milyon, büdcə vəsaitləri 1 milyard 680,4 milyon, əhalinin şəxsi vəsaitləri 314 milyon, bank kreditləri 167,7 milyon, sair vəsaitlər 260,4 milyon manat olmuşdur.

Bu dövrdə də kapital qoyuluşu zamanı ölkənin inkişafının prioritet sahələrinə üstünlük verilmişdir. DSK-nin məlumatına görə, sözügedən dövrdə əsas kapitala yönəldilmiş ümumi vəsaitin 43 faizi sənaye, 30,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 16,5 faizi tikinti, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,6 faizi informasiya və rabitə sahələri üçün olmuşdur. Bu hesaba Bakıda İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin inzibati binası, "Bakı KOB evi", "STEAM İnnovasiya Mərkəzi", Neftçalada Olimpiya İdman Kompleksi, Salyanda "ASAN xidmət" mərkəzi, "Azərişıq" ASC-nin Salyan Rayon İdarəetmə Mərkəzi, Tərtərdə Talış-Tapqaraqoyunlu-Qaşaltı sanatoriyası avtomobil və müxtəliftəyinatlı digər obyektlər istifadəyə verilmişdir.

Cari ilin dörd ayında neft-qaz sektoruna 1 milyard 708,4 milyon manatlıq vəsait yönəldilmişdir. Qeyri-neft-qaz sektorunun inkişafına sərf edilmiş 2 milyard 871,6 milyon manat vəsaitin 263,3 milyon manatı qeyri-neft-qaz sənayesi sektorunda istifadə edilmişdir.

Azərbaycan dünyanın nadir ölkələrindəndir ki, iqtisadi cəhətdən heç kəsdən asılı deyil. Bu isə ölkəmizə xarici siyasətdə də müstəqil qərarlar qəbul etməyə imkan verir. Prezident İlham Əliyev bildirmişdir ki, işğaldan azad olunan ərazilərdə aparılan bərpa-quruculuq işləri heç bir ölkədən, heç bir beynəlxalq təşkilatdan yardım almadan ölkənin daxili imkanları ilə həyata keçirilir. Cari ilin dövlət və icmal büdcəsində dəyişikliklərin edilməsi ilə bağlı qanun layihəsinə diqqət yetirdikdə bunu aydın görmək olur. Belə ki, daxili mənbələrdən kapital qoyuluşunda işğaldan azad olunan ərazilərə ayrılan vəsait digər sahələrə nisbətdə daha yüksəkdir. Qanun layihəsində büdcə xəclərinə gəldikdə, nəzərdə tutulur ki, əldə olunan vəsaitin çox hissəsi işğaldan azad edilmiş ərazilərdə görülən işlərə yönəldilsin. Dəqiq desək, işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən tikinti, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi üçün əlavə 2 milyard 260 milyon manatın ayrılması nəzərdə tutulur. Bununla artımdan sonrakı həmin sahə üzrə xərclər yüksələrək 5 milyard 260 milyon manat məbləğinə çatacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Azərbaycanın regionlarına kredit qoyuluşları təxminən 23 faiz artıb

**Bu ilin yanvar-mart aylarında Azərbaycanın regionlarına kredit qoyuluşları ötən ilin müvafiq dövrü ilə müqayisədə 22,7 faiz artıb.**

Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov tviter səhifəsində yazıb. Trend-in verdiyi məlumata görə, nazir bildirib ki, bu ilin yanvar-mart aylarında Azərbaycanın regionlarına kredit qoyuluşları 4,7 milyard manat təşkil edib.

Qeyd edək ki, 2022-ci ildə Azərbaycanda əsas kapitala investisiyaların həcmi 18 milyard 272 milyon manatdan çox olub. Real ifadədə artım 2021-ci illə müqayisədə 5,5 faiz təşkil edib.

## "Pensiyalar sürətlə arta bilər"

**"Bu gün əksər inkişaf etmiş ölkələrdə özəl pensiya fondları fəaliyyət göstərir". Bu barədə Trend-in suallarını cavablayarkən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov deyib.**

"Dünya təcrübəsindən görürük ki, vətəndaşlar özəl pensiya fondlarından çox sıx şəkildə istifadə edir. Özəl pensiya fondu imkan verir ki, vətəndaşlar pensiya yaşına çatdıqda yalnız dövlətdən deyil, özəl pensiya fondundan pensiya ala bilsin. Bu da təbii ki, pensiya məbləğinin artmasına gətirib çıxarır. Oxşar praktikanın Azərbaycanda tətbiq edilməsi məqsədəuyğundur. Əgər özəl pensiya fondu yaradılarsa, vətəndaş pensiyaya çıxan zaman əgər onun pensiya məbləği 500 manatdırsa, özəl pensiya fonduna ödədiyi ödənişlər nəticəsində əlavə olaraq 300 manat almaq imkanı qazanacaq", - deyə o əlavə edib.

V.Bayramov həmçinin bildirib ki, özəl pensiya fondunun etibarlılığı da çox önəmlidir.

"Çünki, adətən, pensiya fondunda vəsaitlər manatla yığılır və onun idarə edilməsi həyata keçirilir. Ona görə də, burada ilkin kapitalın formalaşdırılması, etibarlılığın artırılması önəm daşıyır. Hətta biz təklif edirik ki, özəl pensiya fondları yaradıldıqdan sonra orada yığılan vəsaitlərin indeksasiyası həyata keçirilsin, valyuta riskləri sığortalansın. Ona görə də mexanizmin daha təkmil şəkildə hazırlanıb, təqdim edilməsinə ehtiyac var", - deyə o əlavə edib.

## Ölkə üzrə taxıl sahələrinin 13,2 faizində biçin yekunlaşıb

**Taxıl biçini davam edir. Son məlumata görə, sahələrdən 370541 ton arpa, 24237 ton buğda yığılıb. Arpa sahələrinin təxminən 33 faizində biçin başa çatıb, buğda sahələrində isə biçinə yeni start verilib. Arpa üzrə orta məhsuldarlıq 28,3 sentner təşkil edir.**



Biçin prosesinin ilk başladığı rayonlardan olan Sabirabadda payızlıq əkinlər dövründə 25975 hektar sahədə taxıl əkilib. Əkin sahələrinin 13313 hektarı buğda, 12662 hektarı arpa sahələridir. Bu günədək Sabirabadda 7222 hektar sahədə biçin aparılıb, sahələrdən 28205 ton məhsul yığılıb. Hazırda rayonda taxıl üzrə orta məhsuldarlıq 39,1 sent/ha təşkil edir. Sabirabad üzrə arpa sahələrinin 60 faizində biçin yekunlaşıb. Biçinin vaxtında və itkisiz başa çatdırılması üçün "Aqroservis" ASC tərəfindən Sabirabada digər bölgələrdən əlavə kombaynlar dislokasiya edilib.

Hazırda rayonda gedən biçin prosesinə 78 kombayn cəlb olunub. Bunlardan 34 kombayn "Aqroservis" ASC-nin yerli rayon bölməsinin balansında olan kombaynlardır, "Aqroservis" tərəfindən digər rayon bölmələrindən Sabirabada 5 əlavə kombayn dislokasiya edilib. Biçinə həmçinin fiziki və hüquqi şəxslərə məxsus 39 özəl kombayn da cəlb olunub. Rayonda biçin prosesinin optimal müddətdə başa çatacağı gözlənilir.

Qeyd edək ki, hazırda respublikanın 42 rayonunda biçin davam edir. Bu günə qədər 130960 hektar sahədə, yaxud payızlıq əkin sahələrinin 13,2 faizində biçin başa çatıb. Sahələrin 44331 hektarı "Aqroservis" ASC-nin kombaynları, qalan hissəsi isə özəl kombaynlar vasitəsilə biçilib.

Qeyd edək ki, bu il ölkə ərazisində 1 058 398,9 hektar taxıl sahəsi əkilib ki, bunun 658 383,7 hektarı buğda, 400 015,2 hektarı isə arpa sahəsidir.

## 5 ayda pensiya ödənişlərinə 2,3 milyard manatdan çox vəsait yönəldilib

**2023-cü ilin 5 ayında pensiya ödənişlərinə ötən ilin müvafiq dövrünə nisbətən 16 faiz (317 milyon manat) çox olmaqla 2 milyard 366 milyon manat vəsait yönəldilib.**

Pensiyaların orta aylıq məbləği 18 faiz artaraq 433 manata, yaşa görə pensiyaların orta aylıq məbləği 17 faiz artaraq 466 manata çatıb. Bu ilin yanvar-may ayları ərzində 15,7 min, elektron pensiya təyinatına başlandığı 2019-cu ilin əvvəlindən isə 87,1 min pensiya təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

## Vergi cinayətləri ilə mübarizə sahəsində innovativ tədbirlər həyata keçiriləcək

**Vergi cinayətləri ilə mübarizənin effektivliyinin artırılması və vergi cinayətlərinin qarşısının alınması dünya ölkələrinin vergi xidmətlərinin əsas fəaliyyət istiqamətlərindəndir.**

Bu sahədə tədbirlərin səmərəliliyinin artırılması İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) da diqqət mərkəzindədir. Artıq OECD "Vergi cinayətləri ilə mübarizə - 10 asas beynəlxalq prinsip" adlı metodologiya xarakterli sənəd qəbul edib. Sənəd qeyd olunan prinsiplərin vergi cinayətləri ilə mübarizə sisteminin təkmilləşdirilməsi üçün hüquqi çərçivədə uğurlu təcrübələrin müəyyənləşdirilməsini, müvafiq sahədə proseslərin izlənilməsini, dəstək mexanizmləri üçün təlim və ya treninq ehtiyaclarının ödənilməsini nəzərdə tutur.

İqtisadiyyat Nazirliyindən bildirilib ki, Dövlət Vergi Xidməti həmin prinsiplərin milli təcrübədə tətbiqi imkanlarını araşdırır, həmçinin ölkəmizdə vergi cinayətləri ilə mübarizənin effektivliyinin artırılması, vergi hüquqpozmalarının yaranma səbəblərinin aradan qaldırılması yolunda yeni innovativ tədbirlərin həyata keçirilməsini planlaşdırır. Belə ki, vergi cinayətləri ilə mübarizə sahəsində "çəkindirmə" metodlarının ("naming and shaming") tətbiqi, "Shell" şirkətlərin yaranması ilə bağlı səbəblərin təhlil olunaraq risklərin müəyyən edilməsi, bununla bağlı hüquqi şəxslərin qeydiyyat prosedurlarının təkmilləşdirilməsi, vergidən yayınma cinayətlərini törədən vergi ödəyicilərinin faktiki rəhbərlərinin (benefisiarların) aşkarlanması, vergi cinayətləri ilə mübarizə sahəsində risk və təhdidlərin müəyyənləşdirilməsi nəzərdə tutulur. Dövlət Vergi Xidməti bu sahədə beynəlxalq əməkdaşlıq mexanizmlərinin təmin edilməsi və beynəlxalq təcrübə üzrə məlumat mübadiləsinin aparılmasını da həyata keçirəcək.

## DSMF ictimai dinləmə keçirib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu "İnsan Hüquqları Aylığı" çərçivəsində Zərdab rayonunda sosial təminat hüquqlarına dair ictimai dinləmə keçirib.**

Rayon sakinlərinin iştirak etdiyi görüşdə fondun fəaliyyət istiqamətlərindən, sosial təminat sahəsində aparılan islahatlardan, sosial təminat hüquqlarından bəhs olunub.

Həmçinin ünvanlı dövlət sosial yardımının təyin olunmasında tətbiq edilən yeniliklər, bu sahədə operativliyin, əlçatanlığın və şəffaflığın təmin olunması istiqamətində görülən işlər barədə məlumat verilib.

Fondun nümayəndələri ünvanlı dövlət sosial yardımı ilə bağlı təqdimatlarla çıxış ediblər. Eləcə də ünvanlı sosial yardımın mahiyyəti, hansı ailələrə təyin olunduğu, ünvanlı yardım üçün e-qaydada müraciət edilməsi qaydası diqqətə çatdırılıb.

İştirakçıları maraqlandıran suallar cavablandırılıb və ictimai dinləmələrin keçirilməsinin əhəmiyyəti vurğulanıb.

## Daha bir sosial layihə uğurla yekunlaşdı

### bp Azərbaycanda dayanıqlı inkişaf təşəbbüslərinə dəstək vermək öhdəliyinə sadiqdir

**Azərbaycanda 30 ildən çoxdur neft və qazın kəşfiyyatı, işlənməsi və nəqli üzrə iri layihələrin əməliyyatçısı olan bp şirkəti bu layihələri təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirir. Şirkət indiyədək öz tərəfdaşları ilə birlikdə ölkəmizdə icraçısı olduğu layihələrə təxminən 84 milyard dollar sərmayə qoyub. bp-nin Azərbaycanda həyata keçirdiyi geniş sosial sərmayə proqramları da insanlara əhəmiyyətli faydalar gətirib, onların həyatının daha da yaxşılaşdırılmasına dəstək verib.**




Sosial sərmayələr yerli potensialın yaradılması, təhsil, icmaların inkişafı, sahibkarlıq, ətraf mühit, idman potensialının artırılması, habelə ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəldilib. Fəaliyyətə başladığı vaxtdan indiyədək bp özü və onun əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından Azərbaycandakı sosial sərmayə layihələrinə ümumilikdə 108 milyon dollardan çox vəsait xərcləyib.

bp, o cümlədən yerli universitetlərin elmi-tədqiqat potensialının artırılmasına dəstək göstərir. Məsələn, dünən şirkət Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) elmi-tədqiqat potensialının gücləndirilməsinə dəstək məqsədli bir təhsil layihəsinin uğurla tamamlandığını elan edib. Bu layihə bir neçə komponenti əhatə edirdi və onların hamısı universitetin professor-müəllim heyətinin, tədqiqatçılarının, doktorant və magistrantlarının dünyanın aparıcı tədqiqat mərkəzləri ilə bir araya gələrək öz elmi fəaliyyətlərində daha böyük uğurlara nail olmalarına dəstək məqsədi daşıyırdı.

Layihə çərçivəsində əməliyyatçı şirkət UNEC-in Kompozit Materiallar Elmi-Tədqiqat Mərkəzinə tam avtomatik Drawell DTR8000 Raman spektrometri bağışlayıb. Bu cihaz nanohissəciklər və yeni materiallar, bioloji elmlər, material elmləri, tibbi analiz, kənd təsərrüfatı və qida texnologiyaları, suyun çirklənməsinin təhlili, ətraf mühit elmləri və digər aparıcı fənn sahələrdə tədqiqatlar aparmağa imkan yaradır. bp həmçinin universitetin beş aliminin Florensiyadakı Nello Carrara Tətbiqi Fizika İnstitutu və Verona Universiteti ilə əməkdaşlığını dəstəkləyərək onların tədqiqat və akademik araşdırmaları üçün səfərlərini maliyyələşdirib. Bu əməkdaşlıq nəticəsində beş yüksəkkeyfiyyətli tədqiqat işi hazırlanaraq WoS (Web of Science) və Scopus kimi beynəlxalq elmi məlumat bazalarında dərc olunmaq üçün təqdim edilib. Şirkət tərəfindən eləcə də UNEC-in Türkiyənin Sakarya Universiteti ilə geniş tərəfdaşlıq qurmasına və onlarla birgə üç konfrans keçirməsinə dəstək verib. Bu konfranslarda 19 ölkəni təmsil edən 50-dən çox universitetin nümayəndələri iştirak ediblər. Tədbirlərdə kimya elmləri və texnologiyaları, humin turşuları, təbiət elmləri və mühəndislik ixtiraları kimi sahələr əhatə olunub.

Qeyd edək ki, UNEC tərəfindən icra olunan bu layihəyə 2022-ci ilin əvvəlindən başlanmışdı. Layihənin ümumi dəyəri 170 min AZN (100 min dollar) olub və buraya tədqiqat avadanlıqları, UNEC-in alimlərinin tədqiqat səfərləri və üç birgə konfransın xərcləri daxil idi.

Bütün bunlar barədə layihənin müvəffəqiyyətlə başa çatması münasibətilə UNEC-də keçirilən forumda ətraflı məlumat verildi. Universitetin rektoru, professor Ədalət Muradov bp ilə əməkdaşlığın uğurla davam etdiyini, bunun elmlə təhsili əlaqələndirməkdə mühüm pol oynadığını bildirdi. Şirkətə təşəkkürünü bildirdi. Digər çıxış edənlər də layihənin əhəmiyyətini vurğuladılar.

bp-nin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli dedi: "Bu layihə UNEC-in beynəlxalq tədqiqat mərkəzləri və universitetlərlə etibarlı akademik tərəfdaş kimi sıx əməkdaşlıq etməsinə dəstəyimizin davamıdır. Ümid edirik ki, layihə bu universitetə beynəlxalq elmi təşəbbüslərə qoşulmaq, nüfuzlu və təcrübəli bir mənbə kimi dünyanın aparıcı elmi institutları ilə əməkdaşlıq etmək imkanları yaradacaq. Bundan öncə biz bu universitetin öz tədqiqat potensialını gücləndirmək səylərinə dəstək olaraq UNEC-ə üç laboratoriya bağışlamışıq. Fəxr edirik ki, bu laboratoriyalardan birinə - Qida Kimyası Laboratoriyasına, kimya üzrə Nobel mükafatı laureatı türkəsilli molekulyar bioloq Aziz Sancarın adı verilib. Bu dünyaşöhrətli alim 2021-ci ildə özü şəxsən UNEC-ə gələrək bp-nin bağışladığı laboratoriyanın açılışını edib. Ümid edirik ki, bu layihələrimiz UNEC-də təhsilin keyfiyyətinin yüksəldilməsinə və tədqiqat potensialının genişləndirilməsinə mühüm töhfə olacaq".

Beləliklə, bp Azərbaycanda ən çox töhfə verə biləcəyinə inandığı sahələrə sərmayə yönəltməklə dayanıqlı inkişaf təşəbbüslərinə dəstək vermək öhdəliyinə sadiqdir.

Yeri gəlmişkən xatırladaq ki, hazırda Azərbaycanda bp şirkətində təxminən 2307 Azərbaycan vətəndaşı çalışır və bu da, şirkətin ixtisaslı işçi heyətinin 90 faizindən çoxunu təşkil edir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 19 dekabr (Cümə axşamı günü) tarixli 68-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Pəncşənbə, 15 rəbiüləvvəl sənə 1337.
19 kanuni-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

### GENERAL TOMSONUN ŞİMALİ QAFQAZİYA XALQINA MÜRACİƏTİ

Bakıdakı Müttəfiq əsgərlər komandanı general Tomson, Şimali Qafqaziya xalqına xitabən böylə bir müraciətnamə nəşr etmişdir:

İngiltərə qoşunu başında olmaq üzrə Bakı şəhərinə varid olduqdan [gəldikdən] sonra bolşeviklərlə mübarizədə bulunan Şimali Qafqaziya əhalisinə müraciətdə bulunmağı lazım gördüm.

Bolşevizm Rusiyanı məhv etmək üçün almanlar tərəfindən ixtira edilmişdir. Hal-hazırda bolşevizm almanların özlərini də öz məmləkətlərində təhdid etməkdədir. Bolşevik hərc-mərcliyinin millətlərə azadlıq verməyəcəyini bilən almanlar, bolşevizmlə ciddi surətdə mübarizə etməkdədirlər.

Müharibə meydanlarında düşməni məğlub etdikdən sonra İngiltərə və onun müttəfiqləri asayiş bərpa edilməsi işində Rusiyaya müavinət [kömək] göstərməyi lazım bildilər. Hal-hazırda Bakıda mənim komandam altında olan əsgərlər bu yaxın zamanda Qafqaziyaya varid olacaq Müttəfiq ordusunun qabaq hissələridir. Bizim vəzifəmiz bütün məmləkətdə asayişi mühafizə və bolşevizmi məhv etmək işində məhəlli [yerli] camaata kömək göstərməkdir.

Buna görə mən sizi bolşevizmlə mübarizə etməkdən ötrü birləşməyə dəvət edirəm. İnanınız ki, sizin öz evinizdə asayiş bərpa edib, sülh və rifahla yaşamağınıza müavinət göstərmək, Almaniyanı məğlub edən Müttəfiqlər üçün çətin deyildir.

Bir para məsələlər vardır ki, siz öz aranızda onları həll edə bilmirsiniz. Bu məsələlər düşmənçilik törədib, ərlərcə davam edir. İndi bu məsələləri müzakirə etmək zamanı deyildir. Bunlar hamısı gələcək Ümum Sülh Konfransında həll ediləcəkdir.

İndi sizin bir ümumi işiniz vardır: bolşevizm və anarxiya ilə müttəfiqən [birgə] mübarizə ediniz. Qüvvət birlikdədir. Müttəfiqlər bolşevizmin düşmənidirlər. Müttəfiqlər hamı üçün sülh və ədaləti təmin etməkdən ötrü buradadırlar.

*Bakıda olan Müttəfiq qoşun komandanı general-mayor Tomson*

### BAKI, 19 KANUNİ-ƏVVƏL [DEKABR]

**İstibdad təbşiri [istibdad xəbərçisi]**

Bakı demokratları ilə kadetləri bizi təhti-təhakkümünə [hökmü altına] tabe etmək niyyəti ilə virdi-zəban [dillərində əzbər] etdikləri Ufa və yaxud Müvəqqəti Ümumrusiya Hökumətinin siması nə qədər namüəyyən olduğunu biz kərratla [dəfələrlə] zikr etmişdik.

İndi iş apaşkar oldu: Əvvəllərdə əksər qismi İctimaiyyuni-İnqilabiyyun Firqəsinə [Sosialist-İnqilabçılar Partiyasına] mənsub olan zatdan mütəşəkkil hökumət heyəti indi məlum olduğu üzrə noyabrın 18-dən bəridir ki, yalnız bir nəfər "hakimi-mütləq"dən ibarət imiş. Həmin hakimi-mütləq isə adı "demokratik şəxsalar" heç bir vaxt tutuşmayan admiral Kolçakdır.

Məzkur [adı çəkilən] admiral, aşkar olduğu üzrə, bütün ixtiyaratı əlinə alıb Rusiya dövlətini ehya etmək [diriltmək] niyyətindədir. Bu yolda nə cürə təşəbbüsatda bulunduğu hələ məlum deyildir. Yalnız bunu biliriz ki, ən əvvəl iqdamatı [təşəbbüsü; addımı] sabiq hökumət heyətinin "eser" firqəsinə mənsub olan üzvlərini tövqif [həbs] etmişdir və bütün zabitana [zabitlərə] müraciətən "şəşəəli" [təmtəraqlı] bir xitabnamə qəzetələrdə dərc etmişdir.

"Vahid Rusiya" şüarı qışqıran demokratlarımız indi işlər nə yerdə olduğunu eyicə düşünməlidirlər. Onlar əski çarizmin və idareyi-müstəbidənin baş qovzamağını [baş qaldırdığını] görməlidirlər və yəqin etməlidirlər ki, admiral Kolçaklar, Deniknlər və Dutovlarla bərabər Rusiya inqilabi-kabirinin [Böyük Rusiya inqilabının] bütün qənimət və neməti əldən gedəsidir. Bunu bilib də "Vahid Rusiya" qışqıran; nə özlərini və nə də elani-istiqlaliyyətləri ilə canlarını həmin istibdad zəncirindən xilas edən millətləri bu şübhəli qüvvələr tərəfinə sövq etməməlidirlər. Zira burası onlar üçün həyatla məmat [ölüm-dirim] məsələsidir.

**Kabinə böhranı**

Kabinə böhranı hələ davam etməkdədir. Parlaman birinci iclasında sədr vəzifəsini ifa edən Həsən bəy Ağayevə müraciət edib, istedadlı bir zata yeni bir Kabinə təşkili təklifini tapşırmışdı. Həsən bəy cənablarının rəyi yenə də indiki hökumət rəisi Fətəli xan Xoyski cənablarında qalıb, müşarileyhi [adı çəkilən şəxsi] xüsusi məktubla təhti-sədarətində [başçılığı altında] olmaq üzrə yeni Heyəti-Vüzəra [Nazirlər Kabineti] təşkilinə dəvət etdi isə də Fətəli xan cənabları nasaz olmağını bəhanə edərək həmin təklifi qəbul etmədi. Bir neçə gündür ki, iş bu üzrə qalıb, yeni bir namizəd varlığı və ya yoxluğu hələ bəlli deyildir. Bu isə böylə mühüm və məsuliyyətli bir zamanda əlbəttə ki, məmləkətin mənafeyi qəbilindən ədd [hesab] olunacaq şey deyildir.

Ağızda bu xüsusda cürbəcür sözlər danışırlar ki, guya, Azərbaycan Parlamanının öz səmimi rəyi ilə məmləkəti idarə edici Heyəti-hökumət seçmək xahişləri bəzi məhafil [dairələr] tərəfindən bir qədər sıxıntılara düçar olur.

Bizcə məzkur məhafilin [deyilən dairələrin] xüsusi və şəxsi rəyi və mülahizatı nə dürlü olmuş olursa, Azərbaycan nümayəndələri məmləkət və millət mənafeyi nöqteyi-nəzərində durub, öz rəy və xahişlərini açıqca bir surətdə bildirməlidirlər ki, bu bilənlər tərəfindən də həmin rəy və xahişə lazımi etina olsun.

### ANDRANİK NƏ İSTƏYİRMİŞ?

Daşnakların mürəvvici-əfkarı olan [fikirlərini yayan] "Nor orizon" qəzetəsində Andranik əli ilə yazılmış bir məktub dərc olunmuşdur. Məktubdan görünən budur ki, çeteçi Andranik, Batum müqavilənaməsindən narazı qalaraq, dəstəsi ilə Naxçıvan tərəfə gedir ki, bəlkə ingilis qoşunu ilə birləşib türk ermənilərinin imdadına çata bilsin. Burada məqsədinə nail ola bilməyib, dağları aşaraq Zəngəzur mahalına keçir. Əhalinin hüsn-rəğbətini qazana bilməyən çetecilər, axırda oradan fərar etməyə məcbur olurlar. Xəcalətindən geri qayıda bilməyən Andranik, əhalini müdafiə etmək bəhanəsiylə orada qalıb özü kimi çapavulları başına yığır və bunun nəticəsi olaraq "müdafiəçilik", çapqınçılığa mübəddəl olur [çevrilir]. Yəni, Sisyan, Zəngəzur və Qapan mahallarındakı müsəlman kəndləri tarümar və məzlum əhalisi isə qılıncdan keçirilir. Buralar müsəlman ünsüründən boşaldılır. Sonra Qarabağ mahallarına hücumlar yapılacaq və Şuşa şəhəri də daxil olmaq üzrə buraların müsəlmanları qırılıb çatılacaqdır. İştə məktubun müxtəsərcə məzmunu!

Burada diqqətimizi cəlb edəcək bir məsələ vardır ki, Andranik və dəstəsi heç yerdə erməni mehmannəvazlığına [qonaqpərvərliyinə] rast gəlməmişlərdir. Hətta, erməni Cümhuriyyəti buna bədəfkar [cinayətkar] nöqteyi-nəzəri ilə baxaraq cümhuriyyət dairəsindən uzaq olmasını istəmişdir. Zəngəzur erməniləri isə Andranikə əsla məhəbbət göstərməyib, bəlkə ona qarşı ədavət [düşmənçilik] də göstərmişlər. Bunu məktubunda Andranik açıq-açığa yazır.

Lakin, hiyləkar və müdəbbir [uzaqgörən] Andranik, dəstəsinə "millət müdafiəçisi" ad qoyaraq əhalini özünə cəlb edir və axırda da iki millətin arasına fitnəəngiz və şərarət [pislik; mərdümazarlıq] toxumunu səpib məramına nail olur.

Bu günlərdə Andranikin Şuşa şəhərinə hücumu gözlənir. Əcəba bir bu qədər kənd dağıdıb müsəlman qanına yerikləyən Andranikin məqsədi nə olmuş ola? Onun məktubundan buna bir işarə görünmədisə də, lakin bu müsəlman yerlərini qılınc zoru ilə boşaldıb, Ararat Cümhuriyyətinə mülhəq etmək [birləşdirmək] və gələcəkdə barışıq konfransında bunu hökumətlərə təsdiq etdirmək niyyəti bu qarətçinin hər əmalından [işlərindən, fəaliyyətindən] məlum olur.

Keçmiş əsrlərdə də Andranik məsləkli erməni avantüristləri zühur edirdisə də, hamısının oxu daşa dəyib axırda puça çıxmışlar.

Məsələn 170 il bundan irəli həmin Zəngəzurda Bərxudar və Qarabek adlı iki qardaş, istiqlaliyyət məqsədi ilə Naxçıvan xanı tərəfindən göndərilmiş adamların burun-qulaqlarını kəsib xana da elani-hərb sifarişini göndərirlər. Altı gün davam etmiş müharibədən sonra bunların qoşunu şikəstlik tapır və kəsilmiş başları da Naxçıvan xanına göndərilir.

*Təmə' kərde budəm ke kerman xorəm*
*Ke nagah xordənd kerman sərəm*

Ermənilərdən İkinci Dövlət Duması vəkili doktor Bahadırov da Dumaya bir layihə təqdim etməklə, Qarabağ mahallarının bir çox yerlərini[n] "erməni-zəmin" [erməni yurdu] iddiası ilə Gəncə quberniyasından ayrılmasını tələb etmişdi. Vaxtilə "İrşad" qəzetəsində bu cənabın iddiaları təhriri-nüfus [əhalinin sayı və tərkibi haqqında rəsmi məlumatlar] və etnoqrafi dəlilləri ilə bəndə tərəfindən rədd olunduğu üçün bu gün daha bu məsələyə müraciətin ehtiyacı yoxdur.

Andraniklər kimi "qılınc avantüristləri" ilə bərabər erməni əhalisi arasında "elm avantüristləri" da az deyil. Məsələn bir çox mövqelərin türkcə adlarını erməniləşdirərək buraların erməni yerləri olduğuna uydurma tarixi dəlillər yapmışlar. Əzancümlə [o cümlədən]:

Gəncəni – Qanzax, Bərdəni – Partav və Zəngəzuru – Sakeridzor yaxud Saxkadzor deyə təhrir etmişlərdir [yazmışlar]. Lakin bu süni uydurmalarla tarix səhifələrini pərdələmək olmaz. Bu gün müsəlman ünsüründən boşadılmış Zəngəzur mahallarının dağları, çayları... tamamən türkcədir. İşıqlı, Tərpənməz, Canqurtaran, Yağlıca, Yantəpə, Üçtəpə, Şiştəpə, Daştəpə, Ulutəpə, Həkəri, Bərgüşad, Bazarçay və qeyriləri. Hətta Həkərli çayı barəsində bir zərbi-məsəl vardır ki, ermənilər də deyərlər: "Həkərli çayı peşman oldu, bir salım duz apardı."

Bu gün türk tarixinə yox, ermənilərin öz tarixinə müraciət olunarsa, oralarda müsəlmanların beş yüz, bəlkə altı yüz il bundan əqdəm [əvvəl] yaşamaları məlum olar. Buralarda vəngləri (məbədləri) vardır ki, daşlarında həkk olunmuş erməni yazılarını gizlətmək mümkün olmayacaqdır. Məsələn, 9-cu əsrdə təmir olunmuş Vorotna vənginin qərb cəhətindəki daşlarda böylə yazılmışdır:

"Hangi xristian bu məbədi xaraba qoya yaxud bu yazıları silə, yaxud onun mədaxilinə [gəlirinə] tamah eyləyə, öylə şəxs Allah yanında məsuldur. Hərgah böylə şəxs müsəlmanlardan olarsa, Məhəmməd peyğəmbərin hüzurunda minlərcə lənətə giriftar olsun. Tarixi: 1315-də."

Bu yazı bizə göstərir ki, həmin məbədin ətrafında 600 il bundan əqdəm erməni ilə bərabər müsəlmanlar da yaşayırmış.

Bundan daha maraqlısı Tatev məbədində məhfuz [saxlanılan] bir çox islam əsərləridir. Şah Abbas buranı ziyarət etdiyi əsnada məbədin bir daşında ərəbcə yazılmış xitabında deyir:

"Ya Allah, bu imarətin təmirində səndən başqa ayrı bir məqsəd yoxdur."

Bu gün həman məbədi zinətləndirən şeylərin arasında Şah Abbas bağışladığı bir ipək pərdə ilə bir qəndil vardır ki, indiyə qədər orada məhfuzdur. Məbədin sandığında otuza qədər islam hökmdarlarının fərman və təliqələri [məktubları; xətt nümunələri] vardır ki, məbədin mühafizəsi üçün erməni məliklərinə və müsəlman bəylərinə yazılmışdır. Fərmanların ən qədimi, tarixi-hicrinin 872-ci sənəsində yazılmışdır. Yəni, 460 ildən çoxdur ki, müsəlmanlar bu məbədi himayə etmişlər. Səfəvilərdən başlamış naibüs-səltənə Abbas Mirzə dövrünə qədər tamam İran hökmdarlarının burada fərmanları mövcuddur. Hətta Qarabağın axırıncı xanı Mehdiqulu xan 1819-cu ildə Zəngəzur məlik və kəndxudalarına hökm yazmışdır ki, məbədin mənfəətinə olaraq, onun xüsusi yerlərindən xarac yığıb "mahrasa"sına (məbəd rəisinə) təhvil versinlər. Mehdiqulu xanın bu təliqəsi o vaxtkı Qafqaziya canişini Yermolov əli ilə təsdiq olunaraq 17 kənd ilə 30 min desyatin yer Tatev məbədinə verilir. Bu vaqeə göstərir ki, Zəngəzur mahalı Qarabağ xanlığının rəsmi və təbii bir hissəsi olaraq, oranın erməni məlikləri və kəndxudaları da Qarabağ xanının xəracgüzarı [vergi verəni] və təbəəsi ədd [hesab] olunurdu ki, bunu həm rus hökuməti Yermolov əli ilə təsdiq etmişdir.

Yevropa müharibəsi bizə sübut etdi ki, böylə məsələləri həll etmək üçün Andraniklərin top-tüfənginin zoruna daha ehtiyac qalmamışdır. Varsınlar daşnaklar gürcülərin Tiflisə, yaxud bir ayrı mərkəzə bizim kimi onlar da tarixi və etnoqrafi sübutlarını göstərsinlər, ta ki kimin haqlı olması da ingilis, firəng, Amerika nümayəndələrinə məlum edilsin. Qafqaz konfransında kim haqq qazanarsa, nümayəndə həzrətləri də Yevropa Konfransında, şəksiz, haqlılara tərəfdar olacaqlar. Fars demişkən:

*Anra ke hesab pak əst*
*Əz mohasebe çe bak əst?*

İştə daşnaklar əllərindən əslihələrini [silahlarını] buraxıb, hesab meydanına buyursunlar. Haqlarını desinlər və sairlərinin də haqlarını dinləsinlər. Yəqin ki, onda məsələ də bir minval ilə həll olunub gedər. Yoxsa əslihələrini tərk etməyib, yerimizə, yurdumuza zorla sahib olmaq istərlərsə, bunun aqibətində zərərdidə genə də özləri olacağını heç vaxt xatirlərindən çıxartmayıb, iki qonşu milləti nahaq yerə təkrar-təkrar fəlakətlərə düçar etmə-sinlər.

*Fərhad Ağazadə*

### TELEQRAF XƏBƏRLƏRİ

* Müttəfiqlər donanması Sevastopol şəhərini almanlardan təmizləməyi təhti-qərara almışdır. Burada almanlar bolşeviklərə kömək edirlərmiş. Odessadan gələn heyət, fransız admiralının tezliklə bu işə müdaxilə etməsini xahiş edir.

* Bavariya Baş vəziri [Baş naziri] kanuni-əvvəlin [dekabrın] 10-da Müttəfiq dövlət nümayəndələri ilə müşavirədə bulunmuşdur. Burada Bavariyanın təklikdə ittifaqa daxil olacağı məsələsi müzakirə edilmişdir.

* Lloyd Corc izhar etmişdir ki, bütün məmləkətlərdə məcburi mükəlləfiyyəti-əsgəriyyənin [hərbi mükəlləfiyyətin] ləğv edilməsi təkidatında bulunmağı qəti surətdə təhti-qərara almışdır vəilla [əks halda] Sülh Konfransı nəticəsiz və hamıdan ötrü rüsvalıq olacaqdır. Hər bir İngiltərə nümayəndəsi Sülh Konfransında buna razı olmalıdır.

* İngiltərədən verilən teleqraflara görə, Romaniya ordusunun təzədən təşkil edilməsi layihəsi mövcibincə [əsasında] hər bir Romaniya firqəsinə [diviziyasına] bir fransız alayı, bir topçu dəstəsi və mühəndis əsgərlər daxil olacaqlardır.

* Peştədən verilən teleqraflarda deyilir ki, hökumət Macaristanın xırda cümhuriyyətlərə ayrılmasına mümaniət [maneçilik] göstərmək imkanından məhrumdur. Sabiq Baş vəzir Karoyi, məmləkəti birləşdirmək təşəbbüsatının müvəffəqiyyətsiz olduğuna inanıb özünü öldürmək istəmişdir.

### SÜLH ƏTRAFINDA

* Rəisi-cümhur Vilson, Fransa mürəxxəsi [nümayəndəsi] Jives Serandom ilə bir para müsahibatda [müsahibələrdə] bulunmuşdur. "Peti Parizyen" qəzetəsinin məlumatına görə, Vilson demişdir ki, sülh müzakiratında [müzakirələrində] öz 14 maddəsini qövldən feilə [sözdən işə] gətirmək üçün şəxsən iştirak etmək istəyir.

"Forverts" qəzetəsi işbu xəbəri "Necə, nə vaxt və nerədə?" sərlövhəsi ilə dərc etmişdir.

* Ehtimal edilir ki, Vilson öz tərəfindən sülh üçün hazırladığı plan barəsində məlumat verəcəkdir. Vilson "Cəmiyyəti-Əqvam" [Millətlər İttifaqı] barəsindəki layihəni Klemanso və Lloyd Corcla bərabər müzakirə edəcəkdir. Bu da ondan ötrüdür ki, bütün dünya dövlətlərinin işbu cəmiyyətdə iştirak edəcəkləri barəsindəki rəyləri məlum olsun.

* Almaniya Mütarikə Komisyonu [Atəşkəs Komissiyası], Foşun mütarikə şəraitini yüngülləşdirmək təklifini rədd etməsinə etiraz etmişdir. Komisyon məlum edir ki, Almaniya anarşi və aclığa məhkum edilir. Paris qəzetələri Foşun iqdamatını [təşəbbüsünü] hüsn-təvəccöhlə qarşılayaraq, Almaniyanın Müttəfiqlərlə Amerika miyanına [arasına] ixtilaf salma istədiyini qeyd edirlər.

* Mütarikə şəraitinin [şərtlərinin] ifası üçün admiral Brauninqin sədarəti [rəhbərliyi] altında olan İngiltərə bəhriyyə [dəniz qüvvələri] nümayəndələri "Makenzen" adlı təzə drednotun təslim edilməsini tələb edirlər. Bu drednot, donanma təslimi başlananda qayırılıb qurtarmışdı.

* Sülh Konfransından əvvəl Müttəfiqlərin Parisdə vaqe olacaq konfransları təzə ildən başlanacaqdır.

* Askvit irad etdiyi nitqində demişdir: "Zərərlərin axırıncı qəpiyinə qədər müharibə müqəssirlərindən alınmasına tərəfdaram. İngiltərədə məcburi mükəlləfiyyəti-əsgəriyyə ləğv edilməlidir."

### QƏZETƏLƏRDƏN

* Bolşevik radiosunun məlumatına görə, təşrini-saninin [noyabrın] 18-ində Terski nahiyədə 11-ci və 12-ci Şura orduları biri-birilərinə mülhəq olmuşlar [birləşmişlər]. Kazaklar silahlarını verirlər. Bolşeviklər 12 top, bir çox ləvazimati-hərbiyyə almışlar. Böyük Kabarda əks-inqilabçılardan təmzilənmişdir. Qroznıda qələbə münasibətilə parad olmuşdur. Qroznıya 4 min kazak və qırmızı qoşun gəlmişdir. Radionun axırında ruhun yüksəkliyi xəbər verilir.

* 20 təşrini-sanidən verilən radioya məbni [əsasən], Kizlyar işğal edilmişdir.

**Türk jandarmaları**

Tiflisdən alınan məlumata görə, vətənə qayıtmış olan türk əsgərləri əvəzinə Batuma türk jandarm dəstələri gəlmişdirlər.

**Könüllü ordu və Tersk cəbhəsi**

Mövsuq [etibarlı] mənbələrdən alınan məlumata görə, Könüllü ordu komandanlığı Müttəfiqlər komandanlığı ilə bərabər bolşeviklərlə aparılacaq müharibənin layihəsinə baxılmışdır. İşbu layihə Müttəfiqlərin Qara dəniz sahilində birləşdiklərinə qədər bir fəaliyyəti havidir [əhatə edir]. Bu layihəyə görə cüzi cəbhələri bir kənarda qoyub, fəqət ən mühüm cəbhədə bolşevik ordusuna zərbə endirmək təhti-qərara alınır. Cüzi cəbhələr sırasına Tersk cəbhəsi də daxildir, zira buradakı bolşevik qoşunlarına məhəlli [yerli] kazak qüvvələri kifayət edəcəkmiş.

Tersk hadisatı [hadisələri], Müttəfiqlər komandanlığından ötrü gözlənməyən bir iş idi. Bundan dolayı layihəni yenidən nəzərdən keçirmək məcburiyyətində qaldılar.

Müzakirədən sonra məlum olmuşdur ki, Tersk hadisatı planı bir qədər dəyişirsə də, fəqət işə zərər verəmməyir.

Tersk cəbhəsi əvvəldəki kimi cüzi cəbhələrdən sayılır. Cəbhə isə Çeçenistan və Petrovsk olacaqdır. Buradakı qüvvələr vasitəsilə bolşeviklərlə mübarizə davam edəcəkdir. Könüllü ordunun qüvvəsi Denikin ordusu ilə iştirak edəcəkdir.

* İstanbulda nəşr olunan "Şərq məcmuəsi" xəbər verir ki, Poqos Nubar paşanın sədarəti altında erməni heyəti İstanbula gələcəyi gözlənir. Gənc türklər hökuməti tərəfindən edam cəzasına məhkum olub, Türkiyədən qaçmış olan prins Səbahəddin bəy İstanbula varid olmuşdur [gəlmişdir]. Səbahəddin bəy[in] təzə hökumət heyətinə dəvət ediləcəyi təsəvvür olunur. Hökumət dairələri Səbahəddinin hökumət heyətinə daxil olması ilə Türkiyənin Müttəfiqlərə olan münasibatının düzələcəyinə inanırlar.

**Vahid cəbhə**

Hal-hazırda bolşeviklər tərəfindən Rusiyanın işğal edilmiş hissəsi admiral Kolçakın komandası altında olan Ümumrusiya Hökuməti əsgərləri tərəfindən mühasirə edilmişdir. Bu vahid cəbhəyə tədriclə Müttəfiq dövlət əsgərləri də yaxınlaşmaqdadırlar. Mühasirə dairəsi gəldikcə daralmaqdadır. Axırıncı verilən məlumata görə Rusiya cəbhələri bunlardır:

Şimal cəbhəsi – Cəbhə komandanı general Pul. Petrozavodsk-Voloqda-Kotlas-Vyanka-Perm. Perm şəhərini almaq üçün müharibələr davam edir.

Qərb cəbhəsi – Cəbhə komandanı admiral Kolçak. Perm-Sarapul-Menzelinsk-Belebey-Totskaya.

Cənub-qərb cəbhəsi – Cəbhə ko-mandanı Orenburq kazak əsgərləri atamanı general Dutov. Totskaya-Nikolayevsk - Derqaçi - Kalmık səhrası Kaspi dənizinə qədər. Quryevdən Bakayevskiyə qədər cəbhənin bir hissəsində general Tolstov komanda etməkdədir.

İdilin sağ kənarında, Xəzər dənizindən Tsaritsinə qədər 150 verst məsafəsində bir yer bolşeviklərin əlindədir. Buradan qərbə tərəf nə bolşeviklər və nə də ümumrusiya əsgərləri tərəfindən işğal edilməmişdir. Burada Bukeyev ordusu hökumətidir.

Tsaritsindən cənub-qərb və qərb cəbhələri başlayır ki, bu cəbhə də Denikinin komandası altındadır. Şimal-qərb cəbhəsi qraf Kellerin komandasındadır. Kronştadt altında da Müttəfiq dövlət donanması dayanıb, Fin boğazını bağlamışdır.

Bunlardan əlavə, mərkəzlə əlaqəsi olmayan bolşevik dəstələri Tersk oblastının bir hissəsində, Çeçen, Kizlyar, Mozdok və Vladiqafqazdadırlar. Şimal tərəfdən burasını general Denikinin ordusu təzyiq altına almışdır. İkincisi Türküstandır ki, burada 6 min bolşevik əsgəri vardır. Şimal tərəfdən buraya general Dutov əsgərlərinin bir hissəsi və cənubdan İngiltərə generalı Mallesonun ordusu hücum etməkdədir. Malleson ordusu hal-hazırda Mərv və Cərco tərəfdədir.

### QARABAĞ ƏHVALI

* Cəbrayıldan Bakıya, Daxiliyyə nazirinə teleqraf edirlər:

*"Ermənilər İngiltərə-fransız heyətinin müsəlmanlar əleyhinə düşmənanə hərəkətləri qət etmək təklifinə qulaq asmayıb, Zəngəzur və Cəbrayıl uyezdlərində müsəlman kəndlərinə hücum etməkdədirlər. Dünən Arış kəndinə hücum edib qoyun sürülərini aparmaqla əhalini atəşə tutmuşlardır. Köməksiz qalan müsəlmanları mühafizə etməkdən ötrü qoşun göndərilməsi haqqında binagüzarlıqda [rəsmi təşəbbüsdə] bulunmağınızı xahiş edirəm.*

*Qəza qaimməqamı Mahmudbəyov"*

* Gəncə valisi Daxiliyyə nazirinə böylə bir teleqraf göndərmişdir:

*"Zəngəzur qaimməqamı mənə teleqrafla xəbər verir ki, Andranikin dəstəsi yerli ermənilərlə Qaladərəsi ətrafında olan müsəlman kəndlərinə hücum edib müsəlmanları qırmaqdadır. Qoşun, silah və patron göndərməklə bu vəhşiliyin qabağını almaq üçün binagüzarlıqda bulunmağınızı xahiş edirəm. Bu barədə lazım bilsəniz Müttəfiq əsgərlər komandanı general Tomsona xəbər veriniz. Qaimməqam Məliknamazəliyev, bu teleqrafı sizə göndərib binagüzarlıqda bulunmağınızı xahiş edirəm."*

### MAARİF MÜFƏTTİŞLƏRİNİN YIĞINCAĞI

*(67-ci nömrənin mabədi) [ardı]*

Yığıncağın dördüncü iclası kanuni-əvvəlin [dekabrın] 17-də möhtərəm Həmid bəy Şahtaxtlı təhti-sədarətində [sədrliyi altında] açılıb, əqaid müəllimlərinin və məktəb xadimlərinin təmini-maaşı xüsusunda müzakirə olunur. Kənd məktəblərində əqaid dərslərini verən mollaların öz vəzifələrini layiqincə ifa etmədiklərindən maəda [əlavə], vermiş olduqları dərs tamam üsuli-tədrisə xilaf olduğundan, bir səmərə vermədiyi üçün bu məsələ ciddi və uzun bəhsə meydan açdı. Bu vaxta qədər sabiq Rusiya hökuməti tərəfindən kənd məkatibi-ibtidaiyyələrinə [ibtidai məktəblərinə] təyin olunan mollalar o qədər bizim övladımızın hissiyyatı-diniyyələrini təqviyə edərək [gücləndirərək] tərbiyeyi-milliyyələrini islah etmək üçün deyildilər, nə qədər ki, siyasi nöqteyi-nəzərdən təyin olunurdular. Zira məktəbə təyin olunan mollaların heç vaxt əxlaqi-ruhiyyələrinə, üsuli-tədrisinə və məlumati-ülumiyyəsinə [elmi məlumatlarına, biliklərinə] diqqət olunmayırdı, bərəks [əksinə], həmişə məlumatca yarımçıq, üsuli-tədris və tərbiyəyə biganə və millət övladının tərbiyəsinə əsla etina etməyən adamlar təyin olunurdu. Odur ki, millət övladının qəlbində din və millət hissiyyatı oyatmaq və bu cəhətlə gələcəkdə vətən və camaatımıza xidmət edəcək bir nəsil hazırlamaq əvəzində, məzkur [adı çəkilən] mollaların əksəri öz camaatını yox, müdam öz böyüyü olan məktəbin rus müdirlərini razı etməyi özlərinə vəzifəədd [hesab] etmişdilər. Təbiri-digərlə [başqa sözlə], zahirdə bizə molla görünən ibtidai məktəbin əqaid müəllimlərindən əksəri, həqiqətdə isə rus hökumətinin din və millətimiz haqqında təqib etdiyi məqsədin qövldən feilə [sözdən işə] gəlməsinə çalışan bir xadim və hökumətiməzkurənin şövkət və əzəmətini camaatımız arasında ucaldan bir mübəlliğ [təbliğatçı] hesab olunurdular, desəm xəta etmərəm zənnindəyəm. Maddi cəhətdən bu mollaların zəhməti hökumət tərəfindən adi bir nökərin zəhməti qədər qiymət olunmadığı dəxi sözümüzə böyük bir dəlildir.

Məktəbi-ibtidaiyyələrdə belə faydasız mollaların isbati-vücud etmələri [özlərini göstərmələri], hökumətin sanki bizim dinimizə ehtiram etməyini göstərmək üçün avam camaatın gözlərinə çəkən bir pərdə və onların məhəbbətlərini cəlb etmək üçün bir vasitə imiş. Onların məktəbə olan münasibatlarına gəldikdə, həqiqət nə qədər acı isə də bunu etiraf etməliyiz ki, möhtərəm mollalarımız öz vaxtında məktəbə gəlib dərs vermək əvəzində, əksər övqatda [çox vaxt] məktəbdə olan 40-50 nəfər millət balalarını öz başına buraxıb, kəndin ayağında ya başında vəfat edən bir dövlətlinin təziyəsinə, yaxud bir nəfərin toyuna getməklə həmişə 40-50 nəfərin haqqını öz mənfəətləri uğrunda qurban edirdilər və bəzən də dərslərə gec gəldikləri üçün bir fayda verəmməyirdilər. Məktəbin rus müdirləri isə mollaların belə kahıllıq [başısoyuqluq] etmələrindən nəinki rəncidə olmaq, bərəks, həmişə məmnun olurdular.

Üsuli-tədrisə gəldikdə, məzkur mollaların üsulsuz, vaxtsız və məqamsız (məsələn 7 yaşındakı səbilərə qüsl [dini qaydalara əməl edərək yuyunmaq] və ehtilam olmaq [həddi-büluğa çatmaq] kimi) vermiş olduqları dərslər, çocuqların əxlaq və tərbiyələrini pozmaqdan başqa bir səmər [fayda; nəticə] bəxş etmədi. Odur ki, tərbiyəcə millətimizə zərrə qədər fayda verməyən yarımçıq əqaid müəllimlərinin mənəviyyatca millətimizə külli ziyan verdikləri əzhəri-minəşşəmsdir [gün kimi aydındır].

Binaileyh [ona görə], bu məsələ hərtərəfli müzakirə olunduqdan sonra minbəd [bundan sonra] əqaid müəllimlərinin məlumati-ülumiyyəsinə, tərbiyeyi-əxlaqiyyəsinə, üsuli-tərbiyəsinə və hissiyyati-milliyyəsinə diqqət olunmaqla bərabər, onların bu qayda üzrə maaşlarının artırılması təhti-qərara alınır. Həftədə iki hesabıyla bir sinifli məktəbdəki mollalara 40 manat, iki sinifli məktəbdəkilərə 4 dərs hesabıyla ayda 80 manat, üç sinifli məktəbdəkilərə 6 dərs hesabıyla ayda 120 manat verilmək, məktəb xadimləri haqqında imdiki bahalığı nəzərə alaraq yanacaq, işıq və mənzili-məktəbdə olmaq şərtiylə bir sinifli məktəbdə olan xadimlərə ayda 250 manat, iki sinifli məktəbdəkilərə 275 manat və hər artıq sinfə 25 manat artırmaq qərar olundu.

Bundan sonra ünas [qızlar], sənaye və rüşdi məktəblərin smetalarına baxmaq üçün bu məktəblərin maarif müfəttişlərinə və ya əksinə əlaqə və münasibatını aydın etmək üçün və bir də kilsə məktəblərini, narmalnı və bunlara münasib məktəbləri bir növ məktəb şəklinə salmaq üçün birər komissiya intixab olunub [seçilib], məclis xitama yetdi.

*İslam bəy Qəbulov*

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 19 dekabr (Cümə axşamı günü) tarixli 68-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

## BAKI XƏBƏRLƏRİ

**Türk tələbələrinə**

Azərbaycan Cümhuriyyətinin Bakı və həvalisində [ətrafında] olan bütün məkatibi-aliyyə [ali məktəblər] tələbəsi Gəncə Məktəbi-hərbiyyəsinə [Gəncə Hərbi məktəbinə] daxil olmaq üçün adlarını siyahıya qeyd etdirmək üçün Maarif Nəzarətinin dəftərxanasına dəvət olunurlar. Bakıda olmayan tələbə bilavasitə Gəncə Məktəbi-hərbiyyəsi rəyasətinə müraciət etməlidir.

*Maarif naziri Nəsib bəy Yusifbəyli*

* Maarif Nəzarəti tərəfindən Şurayi-Vükəlaya [Nazirlər Kabinetinə] Zaqatal nahiyəsində 125 ibtidai məktəbin güşadı [açılması] barəsində məruzə verilmişdir.

* Bələdiyyə rəisi Ərzaq Nəzarətinə müraciətən şəhər qulluqçuları üçün taxıl buraxılması barəsində təşəbbüsatda bulunmuşdur. Buraxılacaq ərzaq, alındığı qiymətə verilməlidir.

* Suraxanıda Bakı post və teleqrafxanasının şöbəsi güşad edilmişdir. Şöbə fəaliyyətə başlamışdır.

**Vaporlar vürudu [gəmilərin gəlişi]**

Kanuni-əvvəlin [dekabrın] 16-da "Vyatka" nam [adlı] vapor, Quryevdən 22 nəfər sərnişinlə Bakıya varid olmuşdur.

Həman gün Ənzəlidən "Paddi" nam vapor 330 nəfər sərnişin gətirmişdir.

Kanuni-əvvəlin 17-də "Moskva" nam vapor Hacı-Tərxandan 149 nəfər sərnişin gətirmişdir.

Kanuni-əvvəlin 16-da "Ağadadaşov" vaporu İrana 25 min put cövhər aparmışdır.

**Xüsusi banklarda**

* Bu vaxtadək xüsusi banklar fəaliyyətə başlamamışlar. Dövlət Bankı fəaliyyətə başladıqdan sonra da bu banklar da sabiq qayda üzrə fəaliyyətdə bulunur. Bunun səbəbi, Dövlət Bankının istiqraz verməməsidir.

* Ərazi İdarəsi ləğv edilir. Bundan sonra bura işləri ümumiyyətlə Ziraət Nəzarətinə [Kənd Təsərrüfatı Nazirliyinə] verilir. Hal-hazırda işbu Nəzarətdə qızğın surətdə fəaliyyət davam edir. Bir komisyon təşkil edilmişdir ki, ərazi reformları hazırlayır.

* Kanuni-əvvəlin 11-də, saat 4 radələrində, Realnı məktəbində ikinci dairə ev təşkilatlarının iclası vaqe olmuşdur. İclasda 93 ev təşkilatından 135 nəfər nümayəndə iştirak edirdi.

Sədarətə Hənifə Tağıyev, katibliyə Ələkbər Rzayev intixab edilmişlərdi [seçilmişlər].

Səslə, dairə ev komitəsinə 20 nəfər üzv, 10 nəfər namizəd müəyyən edildi.

Mərkəzi Ev Komitəsinə şunlar intixab edilmişlərdir [seçilmişlərdir]:

1) Doktor Əliheydər Allahverdiyev;
2) Dava hüquqşünası Əli bəy Qulu-bəyov;
3) Müəllim Kərim bəy İsmayılov.

Namizədlər:

1) Əbdülbaqi İsmayılov;
2) Sadiq Qasımov;
3) Əsəd Əbdülqasımov.

## ƏRZAQ İŞLƏRİ

* Saray kənd camaatı arasında paylamaq qəsdi ilə Tağıyevin fabrikasından 2000 arşın kətan və 7928 arşın bez alıb aparmaq üçün həmin kəndin vəkilləri Mirzə Məşhədi Zülfüqar oğlu və Hacıbala Cəfərqulu bəy oğluna Ərzaq Nəzarəti icazə vermiştir.

* Ərzaq Nəzarəti, Gəncə quberniyası vəkilinə yazıb binagüzarlıq etmişdir [sərəncam vermişdir] ki, Şəki uyezdi əhalisinə paylamaq üçün Şəki uyezdi vəkilinə 200 put qənd buraxsın.

* Gəncə şəhəri və uyezdində ağ neft qıtlığı müşahidə olmağı və bu barədə bir sərəncam çəkilməsini Ərzaq Nəzarətinin Gəncə quberniyası vəkili Nəzarətə yazıb xəbər verir ki, Gəncə şəhəri və uyezdində neft cövhəri tapılmayır və bu xüsusda tədbirlər görməlidir. Nəzarətin baş vəkili Ticarət və Nafiə Nəzarətinə yazıb camaat arasında təqsim etmək [paylamaq] üçün Gəncə quberniyasına göndərməyə həman Nəzarət nə qədər neft verə biləcəyini soruşmuşdur.

* Bir partiya düyü almaq üçün Ərzaq Nəzarəti 320000 manat pul buraxmışdır.

* Gəncə uyezd naçalnikinin xahişinə görə, həman uyezd camaatı arasında təqsim etmək üçün 200 put qənd buraxılması barəsində Ərzaq Nəzarəti Gəncə quberniya vəkilinə binagüzarlıq [sərəncam] vermişdir. Qənd uyezd vəkili Şərifbəyova verilib, naçalnik iştirakı ilə camaata paylanacaqdır.

* Salyanda və Hacıqabulda Türk komandası ixtiyarında olan ərzaq anbarları, Türk qoşunu getdikdən sonra gərək Ərzaq Nəzarəti vəkili ixtiyarına veriləydi. Ancaq Türk qoşunu getdikdən sonra həmin anbarlar polkovnik Məhəmmədov sərəncamına görə, yerli qoşun hissələrinə verilmişdir. Bu barədə Ərzaq Nəzarəti yazıb Hərbiyyə Nəzarətindən xahiş edir ki, həmin anbarlar Gəncə quberniya vəkili Hacıbababəyov təhvilinə verilsin və təhvil verildikdən sonra Nəzarətə məlum edilsin.

* Ərzaq Nəzarətinin noyabrın 30-undan etibarən Türüq və Məabir [Nəqliyyat və Rabitə] Nəzarətinə yazdığı məktuba görə, hər bir ərzaq Bakıdan çıxacağı vaxtda Ərzaq Nəzarətindən icazənamə alınmalı idi. Bu sərəncamı ləğv edərək Ərzaq Nəzarəti yazıb Türüq və Məabir Nəzarətindən Bakı rayonuna gedəcək ərzağı stasyon naçalniki icazənaməsiz buraxması barəsində sərəncam etməsini xahiş edir.

## AZƏRBAYCAN PAYTAXTI

### III

Bakını ilk dəfə bir liman (bəndər) olaraq ərəb müvərrixlərindən [tarixçilərindən] əl-Müqəddəs zikr eyləmişdir. O zamanlar Dərbənd (ki ərəblər ona Babül-əbvab [Qapılar qapısı], türklər də Dəmir Qapı deyirlərdi) daha ziyadə əhəmiyyət və şöhrətə malik idi. Bakı isə Dərbənd mülhəqatından [ətraf ərazilərindən] bir bəndər sayılırdı. Buna görə də məşhur ərəb müvərrixləri kitablarında bu tərəflərdən bəhs edərkən Dərbəndə böyük əhəmiyyət verdikləri halda, Bakını zikr etməyirlər. Fəqət, bununla bərabər, Bakının bir liman olaraq olduqca böyük əhəmiyyət peyda eylədiyi zamanlar da olmuşdur. Moğol istilasından sonra Bakı, Xəzər dənizinin qərbi ilə şərqi arasında bir ticarət və tranzit mərkəzi olduğundan, burasına diqqət verilmişdir.

İran, Turan, Xəzər, Rusiya məmləkətləri arasında bir ticarət deposu halını alan Bakı o dərəcə əhəmiyyət peyda eyləmişdir ki, Xəzər dənizinin bir adı da "Bakı dənizi" olmuşdur.

Bakının islamiyyətdən sonrakı tarixinə və buradakı asara [əsərlərə] baxıldıqda burası, Şirvanşah namı ilə hökumət edən bir sülalənin ikinci paytaxtını təşkil eyləmişdir. İçlərində Məlik Mənuçöhr, Şah Xəlilullah kimi elm, ürfan dostu olan Şirvanşahlar əsasən Şamaxıda otururlardısa da, Bakı dəxi bəndər olduğundan, burasına dəxi əhəmiyyət verir, əksərən buraya gəlir, iqamət edirlərdi. Şah məscidi, Xan sarayı, sonra şah olan bağları Şirvanşahlardan qalma baqiyyatdır [qalıntılardır]. Şah məscidi ilə Xan sarayının tərzi-memarisindən dəxi görüldüyü vəchlə, Şirvanşahlar zamanında Bakı olduqca məmur [abad] bir bəldə halında olub, cami və mədrəsələri məruf [məşhur] imiş. Qamusların [ensiklopediyaların] göstərdiyinə görə, Şirvanşahlar altıncı əsri-hicridə buralarda hökmran olmuşlardır. Məscidicamenin əski binasında mövcud olan kitabələrdən dəxi cameiməzkurun [adı çəkilən camenin] 5-ci əsri-hicridə bina edildiyi görülməkdə idi. 893 səneyi-hicrisində müluki-Səfəviyyənin [Səfəvi hökmdarlarının] cəddi olan Şeyx Heydər tərəfindən Şirvanşah üzərinə hücum vaqe olmuşsa da, Ağqoyunlu Yaqub xan imdada gələrək şeyxi-mümaileyh [adı çəkilən şeyx] məğlub edilmişdir. Fəqət sonra Şah İsmayıl atasının intiqamını almaq üçün Şirvana qoşun çəkərək, 906-cı tarixdə Şirvanşahı məğlub etmişdir. Bu məğlubiyyət, şahi-məzkurun [adı çəkilən şahın] vəfatına səbəb olduğu kimi, Bakı qalasının da Səfəvilər əlinə keçməsinə bais olmuşdur. Şəhəri zəbt edən Səfəvilər burada mövcud olan sərvət və samanı [var-dövləti] nəql eyləmişlərdir.

Şah İsmayıli-saninin [İkinci Şah İsmayılın] qətlindən sonra bəradəri [qardaşı] Məhəmməd Xudabəndə İran taxtına cülus eyləmişdi [əyləşmişdi]. Fəqət bəradərinin qətlini mövcib olan [qətlinə səbəb olan] daxili ixtilal daha sükut bulmadığından, İran məmləkətinə bir az zə'f [zəiflik] gəlmişdi. İstanbul cahangirləri bu zə'fdən istifadə edərək Sultan Muradi-salisi [Üçüncü Muradı] İran səfərinə təşviq eyləmişlər. Nəhayət, Sokullu Mehmed paşa kimi dirayət sahibi ricalının [dövlət xadimlərinin] sözünə baxmayaraq padişah, Lala [Lələ] Mustafa paşa komandasında böyük bir ordu tədarük etdirərək İran səfərinə icazə vermişdir. Lala Mustafa paşa ordusu ilə bərabər 986-cı səneyi-hicridə Qafqaziya təriqi [yolu] ilə İran hüduduna gəldi. Gürcüstan bəyləri Osmanlı ordusunu hüsn-istiqbal edərək [xoş qarşılayaraq], məşhur Özdəmir oğlu Osman paşa komandasında bir ordunun Qazax, Gəncə, Ərəş təriqilə Şərqi Qafqaziya səmtinə keçməsinə yol verdilər. Özdəmir oğlu Osman paşa burada sənələrlə hərb edərək iranilərlə çarpışdı. Şirvan, Gəncə kimi şəhərlər dəfələrlə əldən-ələ keçdi. Nəhayət, Özdəmir oğlu Osman paşa Dərbəndi kəndisinə iqamətgah qərar verərək orada oturdu. Krım tatarlarından kəndisinə kömək gələrək İran qüvvətlərilə hərb eylədi. 987-ci sənədə Dərbənddən qalxaraq Krım xanı Məhəmməd Giray xanla bərabər Şirvan üzərinə yürüdülər. Osman paşa əvvəlcə Bakı üzərinə bir müfrəzə [dəstə] çıxarmışdı. Bu müfrəzə Bakını aldı. Mühafizləri olan Xan Əli ilə Maqsud sultanı və sair zabitləri məmləkətin əyanı ilə birlikdə Şamaxıya əsir gətirdi.

Krım tatarları, adətləri vəchilə [adətləri üzrə] Özdəmir oğluna müavinət [yardım] üçün gəlir və yağma edir, təkrar geri dönürlərdi. Bu dəfə də öylə yapmışlardı. Tatarların döndüyünü xəbər alan İran qüvvətləri Şamaxının istirdadını [geri alınmasını] düşünmüşlər, tədarükə başlamışlardı. Bunu xəbər alan Özdəmir oğlu, Şamaxının müdafiəsi üçün məxsusi qüvvət ayıraraq düşməni dəf edə bilmiş, kəndisi ləvazım və tədarükünü düzəldə bilmək üçün Dərbənddən Bakıya enməyə qərar vermişdi. Osman paşa o qışı (987-988) zərərsizcə Bakıda keçirdi. Vəqənəvis [tarixçi] Əbdürrəhman Şərəf bəy əfəndi "Tarixi-Osmani Əncüməni məcmuəsi"ndə bu xüsusda deyir ki:

"Özdəmir oğlu Dəmir Qapıdan Bakıya endi. Xarab olan qalasını təmir və dağılan əhalisini təmin və cəm eylədi. Bakı əhalisinin sərvətitəbiiyəsindən [təbii sərvətlərindən] istifadə çarələrini düşündü. Neft mənbələrini zəbt ilə müqatiəyə bağladı [onlardan illik kira almağa başladı]. İpək məhsulatını vergiyə tutdu və sair vergiləri tənzim edərək xəzinəyə xeyli gəlir çıxartdı. Əsgərin məvacibini və qala təmirində çalışdırdığı əmələnin [fəhlələrin] ücrətini [maaşını] vermək üçün kafi miqdarda sərmayə hasil eylədi."

O qışı Bakıda oturmaqla bərabər, Kür nəhrinin ötəsində qüvvət toplamaqda olan Salman xanı dəxi rahat buraxmaq istəməyib, Qazi Girayı bir miqdar əsgərlərlə onun üzərinə göndərmişdi. Salman məğlub edildi. Bunun üzərinə təkrar zübdə [seçilmiş, xüsusi] bir qüvvət təşkil edərək Salman xanla bərabər Pirə Məhəmməd Xan komandasında qüvvətli bir ordu ilə iranilər təkrar Kür nəhrini keçərək, Şamaxı üzərinə yürüş etdilər. Şamaxı müqabilində [qarşısında] vaqe olan böyük bir müharibədə Osmanlı qoşunu məğlub olub, ordu rüəsasından [başçılarından] çox az adam qurtula bildi. Bu qalibiyyət üzərinə Pirə Məhəmməd Xan Şabranı təkrar ələ keçirmiş və Osmanlı fərarilərini qovaraq Dərbəndə qədər ilqar [hücum] eyləmişdi. Bunun üzərinə İran xanları müşavirə edərək, Bakı mühasirəsinə qərar vermiş və bu tərəfə qoşun çəkmişlərdi. Bakının bu mühasirəsini isə Əbdürrəhman Şərəf bəy böylə təsvir edir:

"Mühasirədən əvvəl Osman paşa Dərbəndə getmiş və Bakı mühafizəsinə bahadırani-üməradan [igid qoşun başçılarından] Əhməd bəyi təyin və iqamə eyləmişdi [yerləşdirmişdi]. Bakı mühasirəsi çox şiddətli olmuşdur (988-ci ilin axırları). Mühasirə 40 gün davam eyləmişdir. İranilər qalanı almaq üçün nərdüban qurmaq və torpaq sürmək kimi müharibə təlimlərinə müraciət etmişlərdir. Məhsurin [mühasirədə qalanlar] bir müddət şücaətlə səbat göstərmişlərdir; lakin ərzaq və mühimmatları [ləvazimatları] kafi miqdarda deyildi. Şəhər əhlindən birisi ox ilə məktub atıb, qala içindəki müzayiqəni [çətinliyi; ehtiyac halını] mühasirinə [mühasirə edənlərə] xəbər verir və onları yürüşə dəvət eylərdi. Zaman oldu ki, məhsurin [istədilər ki,] bəndərdəki [limandakı] gəmilərə minib kəndilərini xilas etsinlər. Lakin Əhməd bəyin əzm və şövq[ü] və casusun bulunub da oda yandırılması surətilə mücazat edilmiş [cəzalandırılmış] və bundan sonra qala əhvalından məlumat ala bilməyən iranilərin məyus olaraq mühasirədən əl çəkmələri Bakını qurtarmışdır. İran sərdarı Pirə Məhəmməd Xan, Bakı mühasirəsindən qayıdanda Şabranda vəfat eyləmişdir. Bu adam, Səfəvilərin sınanmış sərdarlarından idi. Oğlu nəşini alıb İrana göndərmişdir."

Bu surətlə Bakı qalası 989-cu ildən etibarən Osmanlı təhti-idarəsinə [hakimiyyəti altına] keçmişdir. Bakı 23 sənədən ziyadə Osmanlı idarəsində qaldıqdan sonra Türkiyə ilə İran arasında əqd olunan müsalihə icabı olaraq [imzalanan sülhə əsasən] Osmanlı ordusu buralardan çəkilərək, Bakı təkrar Səfəvilərin idarəsinə keçmişdir. 1017 tarixli bir kitabə şəhər surunun [divarının] Birinci Şah Abbas Səfəvi tərəfindən təmir edildiyini göstərməkdədir.

*M. Ə. Rəsulzadə*

## TÜRK OCAĞI

Bu günlərdə Bakı qradonaçalnikinin [Bələdiyyə sədrinin] əmri ilə Türk Ocağının Nikolayevski caddədə vaqe mənzili kluba verilmişdir. Məzkur [adı çəkilən] ev 1915-ci sənədə mülk sahibləri bəradəraniHüseynov [Hüseynov qardaşları] tərəfindən Tsukuladze nam [adlı] bir gürcüyə 10 sənə müddətində icarəyə verilmiş, bir-iki il bundan əvvəl saldatların faydasına olmaq üzrə məhəlli [yerli] hökumət tərəfindən həmin ev zəbt edilmiş və nəhayət, bolşevik hökuməti tərəfindən fəhlə klubu açılmaq üçün Həmkarlar İttifaqına verilmişdi. Sentyabradək Fəhlə Klubu işbu evdə biduni-müqavilənamə [müqaviləsiz] əyləşmişdir.

Azərbaycan Hökuməti Bakıya köçdükdə ibtida [əvvəla] məzkur evi kəndi ehtiyacı üçün işğal etmək istəyirdi. Zira o zaman Fəhlə Klubundan bir asar [əsər] yox idi. O zaman Bakıda yeni təşkil edilmiş Türk Ocağı cəmiyyəti həman xanəni tutmuş və bu xüsusda Daxiliyyə Nəzarəti tərəfindən müsaidə alınmışdı.

Türk Ocağı oraya yerləşdikdən sonra bəzi şəxslər ona müraciətlə, orada masa və sandalyanın sahibi olduğunu iddia etmiş və anlaşmışdır ki, bolşevik hökuməti zamanından kimisinin mağazasından, kimisinin sinematoqrafından masa və sandalyaları "nasyonalizatsiya" edilərək [milliləşdirilərək] Fəhlə Klubu faydasına zəbt edilmişdir. Məmafih [bununla birgə] Türk Ocağı, mülk sahibləri bəradərani-Hüseynovlara və onun icarədarı gürcü Tsukuladzeyə müraciət edib, kəndisinin yerləşdiyi otaqlara icarə istəmişdir. Böylə bir zamanda Fəhlə Klubu meydana çıxaraq, Türk Ocağına təklif etmişdir ki, guya bu bina onların ixtiyarındadır, icarə xüsusunda yalnız kəndiləri ilə müzakirəyə girişməlidir. Halbuki Fəhlə Klubunun əlində nə mülk sahibləri Hüseynov bəradərlərindən və nə də onun icarədarı gürcüdən müqavilənaməsi vardır. Bu barədə bir çox dediqodulardan sonra icarədar Tsukuladze, Fəhlə Klubuna ixtar [xəbərdarlıq] etmişdir ki, 8 ay müddətində onun icarəsində olduğu evi tutub əyləşərək, ondan istifadə edərək, əvəzində bir qəpik kirayə vermək kənara dursun, özünə də heç bir etina da edilməmişdir. Nəhayət, istər mülk sahibləri, istər icarədar həmin binanı müəyyən bir məbləğ müqabilində icarəsində olan 6 il müddətinə Türk Ocağına verməyə razı olmuş və bu xüsus üçün Türk Ocağından beyanə təriqi ilə [razılaşmanı təsdiqləmək adıyla] 1000 rublə para da almışdır. İş bu yerdə ikən birdən-birə qradonaçalnikin əmri ilə ev Türk Ocağından alınıb Fəhlə Klubuna verilmişdir. Güya Fəhlə Klubu general Tomsona müraciət edərək, Türk Ocağının onların binasını zorla tutduğu xüsusunda yanlış bir məlumat vermişdir. Türk Ocağı müəssislərindən [qurucularından] Abbasqulu Kazımzadə dekabrın 10-da general Tomsona aşağıdakı məzmunda bir məruzə vermişdir:

"...Hüzuri-alilərinə ərz olunur ki, Türk Ocağı hazırda Nikolayevski caddədə və Dumski ploşadın [Duma meydanının] küncündə vaqe [yerləşən] bəradərani-Hüseynov mülkünü tutub əyləşmişdir. Onun bu mülkü tutması, mülk sahiblərinin və onun icarədarı Tsukuladzenin razılığı ilə olmuşdur. Böylə ki, Tsukuladze məzkur binanı 1915-ci ildə 10 il müddətinə icarə etmişdir. Bakı qradonaçalniki məzkur xanəni boşaldıb Fəhlə Klubuna verilməsini təklif etdiyindən dolayı istida [xahiş] edilir ki, Bakı qradonaçalnikinə məzkur əmrin yerinə yetirilməsini ayın 15-ədək təxirə salmaq xüsusunda əmr və iradə buyurasınız. Biz bu müddətdə məzkur mülkün icarə edilməsi xüsusunda lazım gələn müqavilənaməni hüzura təqdim edərik."

## SLAV-RUS CƏMİYYƏTİ ŞURASINDA

Kanuni-əvvəlin [dekabrın] 16-da iniqad etmiş cəlsəsində [baş tutan iclasında] başqa məsələlər cümləsindən olaraq "Yedinaya Rossiya" qəzetəsinin 11-ci nömrəsində naməlum 45 nəfər tərəfindən imza edilmiş məktub da müzakirə edilmişdir. Məktub sahibləri cəmiyyət üzvü polkovnik Olleqreni Tomsona müraciətən dediyi nitqinin "gənc Azərbaycan Cümhuriyyəti rus zabitanına pənah verdi" hissəsinə görə müttəhim edərək, bunu vətənə xəyanət və zabitə yaraşmaz bir iş ədd [hesab] edərək, etiraz edirlər.

Şura Olleqrenin nitqini vətənə xəyanət kimi yoranların fəqət "Yedinaya Rossiya" qəzetəsində özlərinə yer tapıb cəmiyyəti ləkələndirmək istəyənlərə mənsub olduğunu qeydlə böylə qət etmişdir:

1) Bir çox zabitana maddi cəhətdən müavinətdə olan polkovnik Olleqren üzərinə atılan töhməti nalayiq və töhməti dərc edən qəzetəni, məktub sahibləri və qəzetənin özünü rüsva edən hesab etmək;
2) Polkovnik Olleqrenə etimad izhar etməli;
3) Böylə çıxışların milli gərginliyə səbəb olacağını qeyd etməlidir.

Slav-Rus Cəmiyyəti Şurası Azərbaycanın bir çox yerlərinə öz nümayəndələrini göndərib, məhəllində [yerində] rus əhalisinin əhvalını təhqiq etmək üçün düsturüləməl [təlimat] vermişdir.

## DƏMİRYOLUNDA

* Azərbaycan Dəmiryolları naçalniki binagüzarlığına [sərəncamına] görə kanuni-əvvəlin [dekabrın] 17-dən başlamış Bakı ilə Dərbənd arasında 15 və 16 nömrə yük və sərnişin qatarı hərəkət edəcəkdir. 15 nömrəli qatar, səhər saat 8-də Bakıdan çıxıb axşam saat 7-də Dərbəndə çatacaqdır. 16-cı nömrə qatar səhər saat 10:25 dəqiqədə Dərbənddən çıxıb axşam saat 9:8 dəqiqədə Bakıya varid olacaqdır [çatacaqdır].

* Kanuni-əvvəlin 16-da Gəncədən Bakıya gələn 20 nömrəli sərnişin və yük qatarı Puta mövqifində [stansiyasında] qəzaya uğramışdır. Üç vaqon parça-parça olmuşdur. Sərnişinlərdən bir nəfər ölüb, ikisi yaralanmışdır. Yol təmizlənənə qədər qatar hərəkatı dayandırılmışdır. Odur ki, kanuni-əvvəlin 16-da üç nömrəli posta qatarı Bakıdan yola düşməmişdir. Qatarın qəzaya uğraması Puta mövqifində strelkanın [oxun] əyri qoyulmasından olmuşdur. Mövqifdə olan növbətçi qulluqçu Korjenevski qaçıb gizlənmişdir.

* Azərbaycan Dəmiryolları naçalnikinin binagüzarlığına görə, kanuni-əvvəlin 17-dən Bakı ilə Gəncə arasında 20 ilə 21 nömrəli sərnişin və yük qatarları hərəkət edəcəklər. 21 nömrəli qatar gündüz saat 1-də Bakıdan çıxıb səhər saat 6:41 dəqiqədə Gəncəyə varid olacaqdır. 20 nömrəli qatar isə gündüz saat 1:40 dəqiqədə Gəncədən çıxıb səhər saat 5:57 dəqiqədə Bakıya yetişəcəkdir.

## İDARƏYƏ MƏKTUB

Möhtərəm müdir əfəndi!

Rica ediriz ki, qəzetənizin bir sütununda işbu məktubumuza yer verəsiniz.

Bakıda müntəşir [nəşr olunan] "Znamya truda" qəzetəsinin 153-cü nömrəsində biz "Petro Bakı" mədəni müsəlman fəhlələrinə müraciətən yazılmış, erməni fəhlələri tərəfindən imza edilmiş bir məktub dərc edilmişdir.

Məktubda bizi "erməni yoldaşlarımız əleyhinə ittixaz etdiyimiz tədabirdən [aldığımız tədbirlərdən] (?) ötrü" müttəhim edərək vicdanımızı qaralamaq istəyirlər. Məsələnin nə şəkildə olmasını bütün qarein [oxucular], xüsusən fəhlə arxadaşlarımıza bildirməyi özümüzə vəzifə ədd ediriz [sayırıq]:

Erməni yoldaşlarımız öz işlərinə qayıtmadılar. Bir aydan ziyadə biz gecə-gündüz çalışaraq onları əvəz edirdik. Axırüləmr [nəhayət], biz başqa fəhlə qəbul etməyə məcbur olduq. Bizim üçün müsəlman, erməni, rus olması təfavütü yox idi. Zira ki, biz zəhmətkeş, onlar da zəhmətkeşlərdir. Nə isə, biz başqa fəhlələri öz aramıza daxil etdik. Onlar bizimlə bərabər çalışmağa başladılar. Şimdi erməni yoldaşlarımızın onların çıxarılmasını, əvəzlərində erməniləri qəbul etmək təklifi olduqca gülüncdür.

Erməni yoldaşlarımız bizə öz əhli-əyallarını, çocuqlarını göstərirlər. Məgər bizimlə bərabər çalışan fəhlələrin əhli-əyalı, çocuqları yoxdurmu? Məgər onların çocuqları əkmək istəmirmi? Biz həmin bizimlə çalışan yoldaşlarımızı nə əsas üzrə çıxaraq? Biz onlara nə deyək? Biz heç vaxt böylə işi yapmarız. Onlar da sizin kimi bizim yoldaşlarımızdır. Onların da əhli-əyalı və çocuqları vardır. Siz əkmək istədiyiniz kimi, onlar da əkmək istəyirlər. Burada heç bir erməni, rus, müsəlman söhbəti yoxdur. Rica ediriz ki, böylə-böylə sözləri araya salmaqla biz müsəlman fəhlələrini xalqın gözündə qaralamayasız.

Qəribə burasıdır ki, bizi xəyanətdə (?!) müttəhim edirlər. İşbu xəyanəti (?!) bərtərəf etməyi [aradan qaldırmağı] tövsiyə edirlər. Bunların fəqət iftiradan ibarət olduğunu dərmiyan etməklə [meydana qoymaqla], biz müsəlman fəhlələri deyiriz ki, işbu alətlə meydana atılmağın özü xəyanətdir. Vicdan sahibi bir fəhlə heç vaxt razı olmaz ki, bir yoldaşı qulluqdan çıxarıb, onun əvəzində aylarla fırıldaqçılıq yapan başqasını qəbul edək. Biz qəti surətdə elam ediriz [bildiririk] ki, bizimlə bərabər çalışan fəhlə yoldaşlarımızı heç bir iftiraya uymayıb, özümüzdən ayırmarız.

*İdarədən: Bu məktub 200 nəfər fəhlə tərəfindən imzalanıbdır. İmzalar idarəmizdədir.*

## TEATRO VƏ MUSİQİ

Cümə günü, rəbiüləvvəl ayının 16-da (dekabrın 20-də) bu mövsümdə birinci dəfə olaraq mövqeyi-tamaşaya qoyulacaqdır Zülfüqar bəy Hacıbəylinin yazmış olduğu məşhur "Əlli yaşında cavan" nam [adlı] operettası. Bu oyunda həman gecə dörd komik birdən iştirak edəcəkdirlər. Biletlər indidən teatrın kassasında satılmaqdadır.

**Yeni güşad edilmiş [açılmış]**
**Dardanel lokantası**

Hər gün təmiz və ləziz yeməklər hazırdır. Təbaxətdə [aşbazlıqda] fövqəladə ixtisas kəsb eyləmiş [qazanmış] olan aşçımızın təhtinəzarətində [nəzarəti altında] hər dürlü Asiya və Avropa yeməkləri mövcud bulunur. Lokantada piano və skripkaçılar tərəfindən əhviyeyi-lətifə tərənnümsaz olmaqdadır [lətif havalar çalınmaqdadır]. Qiymətlərin fiatı əhvəndir [aşağıdır, ucuzdur]. Vorontsovski caddədə, Parapet qarşısında. Telefon nömrə 59-40. Müdir: Balabəy Xəlilbəyli.

Bu günlərdə müqtədir şairlərimizdən Əbdülsəlimzadə Məhəmməd Hadi əfəndinin "İnsanların tarixi faciələri" yaxud "Əlvahiintibah" adlı mənzum əsərinin birinci cüzü çapdan çıxıb mövqeyifüruşa [satışa] qoyulmuşdur. Kitabça gözəl və qalın kağız üzərində təb' [çap] edilmiş, fiatı [qiyməti] 2 manatdır. Turan mətbəəsində, Parapetdə "Məktəb" mağazasında və Bazar caddəsində Paşa Qasımzadənin mağazasında.

*b. 4 – 1*

Sabiq məktəb müdirəsi, çox illər təcrübə hasil etmiş, edadi məktəblərin hamı siniflərinə hazırlayır. Xüsusən rus, fransız və nemes dillərini eyi bilir. Müəlliməliyə və evdə uşaqlara tərbiyə verməyə və qeyri şəhərlərə getməyə də razıdır.

Arzu edənlər adreslərini "Azərbaycan" qəzetəsi kantorunda R. Q. üçün qoymalıdırlar.

*2884*

**Bakı Obşestvenni Sobraniyasının**
**[Bakı İctimai Yığıncağının] (Klubun) müdirlər şurası**

Ümum üzv və namizədlərə məlum edir ki, klubun kitabxanası açılıb, Qorça-kovski küçədə 7 nömrəli evdə bayram günlərindən siva [başqa] açıqdır səhər saat 10 – 2-yə kimi.

*b-29 2 - 1*

**Elan**

Bununla Bakı Şəhər İdarəsi ümuma elan edir ki, 1 iyul 1918 tarixdə şəhər mədaxilatı qanununun 80 və 81-ci maddələri üzərində Bakı Şəhər Təsərrüfatı Şurası tərəfindən təyin edilib də 29 sentyabr 1917-də Müvəqqət hökumət tərəfindən təsdiq və 26 (13) oktaybr 1917 tarixdə "Hökumət əxbarı"nın 176 (222) nömrəsində elan edilmiş və viskə və lövhlərdən vergi qanunu etibarında baqi qalacaqdır. İmdiyi kimi həmin vergini 1918-ci ilin 2-inci hissəsində verməyən idarə və əşxas, dekabrın 25-inə kimi bu vergini Şəhər İdarəsi kassasına verməlidirlər.

Müəyyən vaxtdan sonra Şəhər İdarəsi qanununun 81-inci maddəsi mövcibincə [əsasında] bu vergini icbarən alacaqlar. Mətbəə, qəzetə və jurnal idarələri bu elan tarixindən elan, vərəqə və bu kimi nəşriyyatdan faizi almalıdırlar.

*Şəhər qlavası: İlyuşkin*
*İdarə üzvü: Pleskaçevski*
*b/22 1 – 1*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Doktor**
**Hacı Fəthullah Ağaəlizadə**

Böyüklərin və uşaqların daxili mərəzlərinə müalicə edir. Xəstələri qəbul edir hər gün səhər saat 8-dən 10-adək və ax-şam saat 4-dən 7-yədək Şamaxı küçəsində, 14 nömrəli evdə.

Telefon nömrəsi 19-27.

*289*

**Doktor**
**Doktor Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

*282*

**Qoldqor-Fradkinin**
**Diş müalicəxanası**

Dərya kənarında Başenni küçədə Ramazanovun 10 nömrəli evində qəbul edir hər gün saat 9-dan 2-yə kimi və 4-dən 7-yə kimi.

*2607 12 – 1*

**Müdir və baş mühərrir:**
**Ceyhun bəy Hacıbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Bakı, 19 kanuni-əvvəl***

"…Dutovlarla bərabər Rusiya inqilabi-kəbirinin [Böyük Rusiya inqilabının] bütün qənimət və neməti əldən gedəsidir.": "Dutovlar…": Orenburq kazaklarının atamanı Aleksandr İliç Dutov nəzərdə tutulur.

***Andranik nə istəyirmiş?***

"Təmə' kərde budəm ke kerman xorəm / Ke nagah xordənd kerman sərəm": "Kirmanı yeməyə tamahlanmışdım, / Qəfildən qurdlar başımı yedilər." (Farsca beyti Akademik Teymur Kərimli oxumuş və tərcümə etmişdir.)

"Anra ke hesab pak əst / Əz mohasebe çe bak əst?": "Hesabı təmiz olanın / Haqq-hesab çəkməkdən nə qorxusu olar?" (Farsca beyti Akademik Teymur Kərimli oxumuş və tərcümə etmişdir.)

***Teleqraf xəbərləri***

"Bavariya Baş vəziri…": o dövrdə bu vəzifəni Kurt Eysner tutmuşdur.

***Qəzetələrdən***

"Böyük Kabarda": Kabarda vilayəti tarixən iki hissəyə – "Böyük Kabarda" yaxud "Yuxarı Kabarda" adlanan qərb hissəsinə və "Kiçik Kabarda" adlanan şərq hissəsinə bölünürdü.

***Qəzetələrdən: Vahid cəbhə***

"Nikolayevsk": Rusiyada bu adda bir neçə yer mövcuddur; burada Volqoqrad vilayətindəki Nikolayevsk şə-həri nəzərdə tutulur.

"Derqaçi": Rusiyada bu adda bir neçə yer mövcuddur; burada Saratov vilayətindəki Derqaçi qəsəbəsi nəzərdə tutulur.

***Maarif müfəttişlərinin yığıncağı***

"əqaid": İslamiyyətdə dini etiqadın əsasları və bu əsasları öyrənən elmin adı.

"…rus hökumətinin din və millətimiz haqqında təqib etdiyi məqsədin qövldən feilə [sözdən işə] gəlməsinə çalışan...": qəzetdə "qövldən feilə" yerinə səhvən "qüvvədən feilə" getmişdir.

***Azərbaycan paytaxtı***

"əl-Müqəddəs": X əsr ərəb coğrafiyaşünası və səyyahı əl-Müqəddəsi nəzərdə tutulur.

"Məlik Mənuçöhr": burada söhbət III Mənuçöhrdən gedir.

"Şah Xəlilullah": burada söhbət II Xəlilullahdan gedir.

"Məhəmməd Giray": burada söhbət II Məhəmməd Giray xandan gedir.

"Qazi Giray": burada söhbət II Qazi Giraydan gedir. II Qazi Giray, bu hadisələr əsnasında Krım xanı olan II Məhəmməd Girayın qardaşı idi.

"torpaq sürmək": mühasirə edilən qalanın ətrafındakı xəndəkləri doldurmaq, yaxud qala divarlarına daha asanlıqla çatmaq üçün torpaqdan təpələr əmələ gətirmək məqsədi ilə topraq daşımaq.

# Berluskoni daha yoxdur

## İtalyanların "Kavaler"i iyunun 14-də Milanda dəfn olunacaq

O, bir vaxtlar kruiz gəmilərində fransız sevgi mahnıları ifa edən 15 yaşlı adi uşaq idi... Hadisələrlə dolu bir həyat yaşayan, daim üzündə təbəssüm olan və həmişə mükəmməl, adətən, qara kostyum geyinən Silvio Berluskoni əbədiyyətə qovuşdu. Gecə-gündüz işləmək bacarığına görə İtaliyada onu "Kavaler" (əmək kavaleri) adlandırıblar. Onun media imperiyası var idi, dörd müddət ölkəyə rəhbərlik etmişdi.



### İtalyan möcüzəsi

Berluskoninin uğurunun açarı təkcə faydalı əlaqələr və şanslar deyil, həm də fitri istedad və gərgin əmək olub. O, bir neçə il ərzində çoxmilyonlu biznes qurmuş bir sahibkar idi. Gələcək baş nazir 1936-cı il sentyabrın 29-da Milanın əlverişsiz rayonunda anadan olub. Atası bank işçisi, anası evdar qadın idi. İkinci Dünya müharibəsi illərində onun ailəsi bombardmanlardan gizlənərək üç il şəhərin ətrafına köçüb və artıq o zaman 6 yaşlı Silvio anasına çörəkpulu qazanmağa kömək edib.

Berluskoni karyerasına 1961-ci ildə başlayıb. Onda 25 yaşı var idi, Milan Universitetinin Hüquq fakültəsini yenicə bitirmişdi. Gənc azsaylı əlaqələrindən istifadə edərək daşınmaz əmlak bazarında fəaliyyətə başlayıb. 1960-cı illərin əvvəllərində İtaliya iqtisadiyyatı yüksəlişdə idi, sonralar bu sıçrayış "İtaliya iqtisadi möcüzəsi" adlandırıldı. Berluskoni bu möcüzənin bir parçası oldu. Onun Milanın ətrafında peyk şəhərlər tikmək fikri varlı italyanlarda rezonans doğurdu.

Berluskoni ömrünün 20 ilini daşınmaz əmlak bazarına həsr etmişdi. Satış və danışıq qabiliyyəti onun qanında idi. Yorulmaz şövqü və əməyinə görə iş adamı xalq titulunu aldı - Kavaler Berluskoni. İtaliya mətbuatında hətta aktiv və istənilən çətinliklərə hazır olan, həyat, davranış və biznes tərzi ilə seçilən bir sahibkarı ifadə edən xüsusi termin yarandı - "berluskonizm".

1980-ci illərdə tikintidə uğur qazanan Berluskoni diqqətini media sənayesinə yönəltdi və bu, gələcəkdə onu milyarder etdi. O, ölkədə ilk milli kommersiya televiziyasının sahibi oldu. Ümumilikdə Berluskoni üç milli telekanal yaratdı - Canale 5, Rete 4 və Italia 1. Bu kanallar üçün geniş reklam xidmətləri şəbəkəsi və marketoloqlar ordusu çalışırdı.

1980-1990-cı illərdə Berluskoni eyni zamanda əlaqəli biznesləri - sağ mərkəzçi "Il Giornale" qəzetini və İtaliyanın 40 faiz bazar payına malik ən böyük nəşriyyatı "Mondadori"ni də aldı. Milyoner inşaatçı milyarder media maqnatı oldu. Berluskoninin bütün televiziya biznesini bir araya gətirən Mediaset 1996-cı ilin iyulunda İtaliya Birjasına daxil oldu və 4 milyard avro dəyərində qiymətləndirildi.

### Futboldan siyasətə

"İrəli, İtaliya!" - bu, Berluskoninin 1994-cü ildə ilk dəfə İtaliya hökumətinə rəhbərlik edəcəyi partiyasının adı oldu. Partiyasının adı üçün iş adamı "Milan" futbol klubuna azarkeşlik edərək özünün dəfələrlə təkrarladığı futbol devizini seçdi.

1986-cı ildə Berluskoni klubu alanda komandanın heç bir uğuru yox idi. İş adamı kluba təxminən 1 milyard avro xərclədi - bahalı oyunçular aldı, istedadlı məşqçilər axtardı və klubu ortabab komandalar səviyyəsindən ən yaxşılar kateqoriyasına çıxara bildi. Bundan sonra "Milan" ölkədə və Avropada bir çox uğurlar qazandı.

Futbol sevgisi Berluskonini italyanların sevimlisi etdi. Özəl telekanallar şəbəkəsi görünməmiş seçki kampaniyasına şərait yaratdı. Bunun sayəsində Berluskoninin partiyası 1994-cü ildə seçkilərdə qalib gələ bildi, baxmayaraq ki, siyasətə qoşulmaq qərarını cəmi bir il əvvəl vermişdi.

İtaliya mətbuatında Berluskoninin, əslində, niyə biznesi tərk edib siyasətə getməyə qərar verməsi ilə bağlı çoxlu şayiələr yayılmışdı. Özü isə deyirdi ki, kommunistlərə müqavimət göstərmək üçün bu yolu seçib.

Baş nazir Berluskoni üçün ilk müddətdən yeni dövr başladı. O, şirkətlərində rəhbər vəzifələrdən ayrılaraq onları dostlarına və ailəsinə ötürdü. Sahibkar "səhnə arxası"na keçdi, ictimaiyyət qarşısına eyni parlaq təbəssümlü siyasətçi çıxdı. "Mən siyasətin İsa Məsihiyəm. Mən səbirli qurbanam, hər şeyə dözürəm və özümü hamı üçün qurban verirəm", - Berluskoni yeni yoluna belə başladı.

O, Məsih qədər olmasa da, bir çox sınaqlardan keçdi. Berluskoniyə qarşı opponentləri tərəfindən bütün siyasi karyerası boyu müxtəlif ittihamlar irəli sürülsə də, o, hər dəfə qalib gəldi. Lakin 2013-cü ildə problemlərin qarşısını almaq mümkün olmadı - məhkəmənin qərarı ilə Berluskoni Mediaset tərəfindən "maliyyə fırıldaqçılığına" görə məhkum edildi. Bu səbəbdən 2018-ci ilin sonuna qədər onun dövlət vəzifələrində işləməsi qadağan edildi. Həmin il Milanın Nəzarət Məhkəməsi Silvio Berluskoniyə bəraət verdi və Mediaset işi üzrə hökmü ləğv olundu. Bu qərar siyasətçiyə yenidən seçkilərdə iştirak etmək imkanı yaratdı. 2019-2022-ci illərdə Silvio Berluskoni Avropa Parlamentinin ən yaşlı üzvü oldu.

Bir neçə il öncə futbol funksionerliyindən ayrılan Silvio Berluskoni demişdi: "Bu gün, 30 ildən çox müddətdən sonra "Milan"ın prezidentliyindən gedirəm. "Milan"ın mənə və hamımıza bəxş etdiyi duyğuları heç vaxt unuda bilməyəcəyəm. Azarkeşlərimizə demək istəyirəm: Sizi heç vaxt unutmayacağam. Klubdan getsəm belə, atamın uşaqlıqdan mənə sevməyi öyrətdiyi komanda olan "Milan"ın azarkeşi kimi əbədi qalacağam. Birlikdə gerçəkləşdirdiyimiz bir xəyal".

Berluskoninin dəfn mərasimi iyunun 14-də Milanda keçiriləcək.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Radiasiya, kimyəvi və bioloji mühafizə bölmələrinin təlimi keçirilib

Təsdiq olunan bu ilin hazırlıq planına əsasən, radiasiya, kimyəvi və bioloji mühafizə bölmələrinin şəxsi heyəti ilə səhra şəraitində təlim keçirilib.





Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, təlimdə qoşunların antiterror əməliyyatını keçirmək üçün başlanğıc vəziyyətini tutması, radiasiya, kimyəvi və bioloji mühafizə tapşırıqlarının planlaşdırılması və yerinə yetirilməsi zamanı bölmələrin idarə edilməsi üzrə fəaliyyətlər icra olunub.

Həmçinin müxtəlif obyekt və ərazilərdə zəhərləyici maddələri təqlid edən resepturalarla çirklənmiş sahələrdə kimyəvi kəşfiyyatın aparılması, silah, texnika və digər avadanlığın xüsusi təmizlənməsi tapşırıqları bölmələr tərəfindən praktiki yerinə yetirilib, döyüş şəraitinə uyğun aerozol maskalanma fəaliyyətləri məşq etdirilib.

Radiasiya, kimyəvi və bioloji mühafizə tədbirlərinin yerinə yetirilməsi zamanı bölmələrin birgə fəaliyyətinin uzlaşdırılması, səhra vərdişlərinin təkmilləşdirilməsi, eləcə də şəxsi heyətdə yüksək fiziki və psixoloji dözümlüyün aşılanması məqsədilə keçirilən təlimdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə icra olunub.

# Soyuq "zəhər"

## Düzgün qablaşdırılmayan, doğru şəraitdə saxlanılmayan dondurmalar ciddi fəsadlar yaradır






İsti havaların əsas sərinləşdirici məhsullarından olan dondurma mövsümü artıq başlayıb. Havalar isindikcə, bu məhsula tələbat artmağa başlayır. Soyuq aylarda isə dondurmanı yalnız bəzi böyük supermarketlərdə tapmaq mümkündür. Təbii ki, burada bazarın əsas elementləri olan tələb və təklifin də rolu danılmazdır.

Digər vaxtlarda tələbat azaldığına görə, marketlərdə bu məhsula o qədər də rast gəlinmir. Ölkəmizdə dondurma istehlakı il ərzində, əsasən, üç ay davam edir. Soyuq aylarda səhhətimiz üçün təhlükə yarada biləcəyi düşüncəsi ilə dondurmadan uzaq dururuq.

Bundan başqa, qış aylarında istehsala təsir edən başqa nüans da var. Belə ki, cəmiyyət arasında elə fikir formalaşıb ki, dondurmalar yayda istehsal olunduğuna görə, qışda satılanlar vaxtı keçmiş məhsullardır. Doğrudur, süd məhsulu olan dondurmanın köhnəsinə rast gəlmək də mümkündür. Bu hər şeydən öncə onun saxlanma şəraiti ilə bağlıdır. Düzgün şəraitdə saxlanılmayan dondurmalar hətta zəhərlənməyə də səbəb ola bilər. Ona görə də ekspertlər qeyd edirlər ki, dondurma alarkən bir sıra məqamlara diqqət edilməlidir.

### Qışda istehsal edilib yayda satılan dondurmalar

Dondurmanın istiyə, soyuğa və digər kənar təsirlərə məruz qalaraq qabının əzilmiş olmasına, məhsulun yerləşdirildiyi soyuduculara, saxlanma şəraitinə, qablaşdırmanın üzərində qeyd olunan istehsal və son istifadə tarixlərinə diqqət etmək mütləqdir.

Bu məhsulun tərkibində olan əlavələrdən asılı olaraq onların saxlanma temperaturu da fərqlənir. Ona görə də isti aylarda susuzluğumuzu yatırmaq üçün üz tutduğumuz sərinləşdirici qidalara, hətta zərərsiz hesab etdiyimiz suya da diqqət etməliyik ki, xoşagəlməz nəticələri ilə üzləşməyək.

Qida mütəxəssisi Ağa Salamov bildirir ki, bəzən qışda istehsal olunan dondurmalar yay aylarına qədər qalır və satılmır. Bəzən isə aylarla qalan dondurmaların yazda və ya yayda satışına başlanılır ki, bunların yararlılıq müddəti keçmiş olur.

İstehlakçıların diqqət edəcəyi məqamlardan söz açan ekspert deyir ki, dondurma alan zaman son istehlak tarixinə diqqət etmək lazımdır: "Soyuducuda olan dondurmaların deformasiyaya uğramaması vacibdir. Bəzən qablaşdırmada da buraxılan səhv olur. Amma dondurma əriyib yenidən donanda onda bioloji çirklənmə yaranır".

Ağa Salamov qeyd edir ki, generator sistemi olmayan marketlərdə işıqlar söndüyü zaman soyuducular dayandığı üçün dondurma əriyir. Dondurmaların donunun açılması nəticəsində mikrobioloji çirklənmə olur. Bu zaman məhsulda bağırsaq çöpləri çoxalır ki, bu da qida zəhərlənmələrinə gətirib çıxarır. "Ona görə də qablaşdırılmasında hər hansı deformasiya görünürsə, istehlakçılar həmin məhsulu almamalıdırlar. Məhsul bir dəfə dona bilər, əriyib yenidən donursa, o zaman qida zəhərlənməsinə gətirib çıxarır", - deyə mütəxəssis əlavə edir.

Evdə hazırlanan dondurmaların istehlakının tərəfdarı olduğunu vurğulayan ekspert hesab edir ki, mağazadan alındığı zaman mütləq yararlıq müddətinə, qablaşdırılmasında hər hansı problem olub-olmamasına diqqət edilməlidir.

### Dondurma çeşidlərinin etiketi ilə tərkibinin uyğunluğu istiqamətində araşdırma aparılmalıdır

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov qəzetimizə açıqlamasında bildirib ki, dondurma tez həll olunan süd məhsulu olduğu üçün onun istehsalında əsasən tam kərə yağından istifadə olunur. Lakin bəzi hallarda texniki şərtlər daxilində bitki yağlarından da istifadə oluna bilər.

Ekspert deyib ki, bitki yağları içərisində kokos ən üstündür, digər yağlardan dondurmada istifadəyə dair texniki şərt və ya standart yoxdur: "İstehlakçıların verdiyi məlumatlara görə, bəzən dondurmanı yeyən zaman, xüsusən plombirlər boğazda acılıq yaradır. Bu da o deməkdir ki, istehsalda ya vaxtı keçmiş kərə yağından, ya da bitki yağlarından istifadə olunub. İstehsalçılar qışda külli miqdarda dondurma istehsal edib yaz aylarında bazara çıxarır, bunlar da vaxtı keçmiş olur".

E.Hüseynov vurğulayıb ki, normal dondurma istehsal edən müəssisələr qış aylarında işçilərinin bir hissəsini məzuniyyətə buraxırlar və yalnız sifariş əsasında kafe, restoranlar üçün dondurma istehsal edirlər. "Bəzən yanvar ayında dondurma istehsal edib, üzərinə aprel ayının tarixini vururlar. Ümumiyyətlə, dondurmalar mənfi 18 dərəcədən aşağı temperaturda 10 ay müddətində saxlanıla bilər. Xarici ölkələrdən gələn dondurmalara diqqət etsək, görərik ki, orada bir il, il yarım yararlılıq müddəti yazılır. Belə dondurmalar arzuolunmazdır. Xüsusən xaricdən gələn dondurmaların ciddi problemlərindən biri odur ki, onlar yolda temperatur dəyişikliyinə məruz qala bilirlər. Belə qidalar çirklənmiş hesab olunur. İstehlakçılar yerli dondurmalara üstünlük verməlidirlər", - deyə o, əlavə edib.

### İçi və çölü başqa dondurmalar

Birlik sədri qeyd edib ki, Azərbaycanda xarici dondurmaların adı, onu imitasiya edən mal nişanı ilə dondurma istehsal edən müəssisələr də var.

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) bu ilin yanvarından etiket məlumatları ilə malın tərkibinin uyğunluğunu araşdırır. Eyyub Hüseynovun fikrincə, yaxşı olar ki, AQTA Azərbaycanda olan bütün dondurma çeşidlərinin bu cür təhlilini aparsın, çünki əksər hallarda dondurmanın etiketində yazılanla tərkibi düz gəlmir. Məsələn, kərə yağı əvəzinə başqa yağlar istifadə olunur.

O bildirib ki, istehlakçılar dondurma alan zaman etiketə diqqətlə baxmalıdırlar. Bəzən açıq satılan dondurmalarda da problemlər olur. Ən çox da vaxtı keçmiş dondurmalar bu şəkildə satılır. İstehlakçının bidonlarda satılan həmin dondurmaların istənilən sənədlərini tələb etmək hüququ var.

Çox dondurma yeməyin ziyanlarından danışan E.Hüseynov vurğulayıb ki, bu zaman həmin şəxs ciddi mədə-bağırsaq xəstəliyinə tutula, bədən temperaturu aşağı düşə bilər ki, hətta onun həyatını xilas etmək belə mümkün olmaz. Ona görə dondurmanı müəyyən vaxt intervallarında kiçik porsiyalarla yemək daha uyğundur. Xüsusən uşaqların çox dondurma qəbul etməməsinə diqqət etmək lazımdır.

Dondurma hər fəsildə yeyilə bilər. Ölkəmizdə əsasən yay aylarında istehlak edildiyi üçün artıq mövsüm başlayb və AQTA bu sahədə ciddi monitorinqlər aparmalıdır.

Ümumiyyətlə, mütəxəssislər qeyd edirlər ki, Azərbaycan əhalisi o qədər də dondurma istehlak etmir. Məsələn, bu ilin yanvar-mart aylarında ölkəmizdə 45,15 ton dondurma istehsal olunub ki, onun da 13,60 tonu ixrac edilib.

Buna görə də, dondurmanın mövsümü əsasən 3-4 ay çəkir. Bu baxımdan qış aylarında dondurma istehlakının tərəfdarı olmayanlar düşünürlər ki, bu məhsullar köhnədir. Amma təbii ki, soyuq aylarda da dondurma yeyənləri nəzərə alaraq məhsulu bazardan tamamilə çıxarmaq da mümkün deyil. Bütün bunlar nəzərə alınaraq, dondurmaların tərkibinin araşdırılması, xüsusən yaza doğru marketlərdə bu istiqamətdə monitorinqlər keçirilməsi daha məqsədəuyğun hesab edilir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Erməni diasporu yenə aranı qarışdırır

## Hayastan cəmiyyətində pessimizm baş alıb gedir

Hayastanın bir dövlət olaraq ayaq üstə qalmasında mühüm rol oynayan diaspor və lobbi qüvvələri ilə İrəvan arasında münasibətlərin Azərbaycanla sülh müqaviləsinin imzalanmasının aktual olduğu bir dönəmdə kifayət qədər pisləşməsi müşahidə olunmaqdadır.

İrəvanın region dövlətlərlə düşmənçilik siyasətinin həyata keçirilməsində diasporun da rolunun olduğu heç kimə sirr deyil. Ancaq indi görünür ki, Paşinyan hakimiyyəti diasporun təsir dairəsindən uzaq olmağa çalışır.

Erməni ictimai xadim Arsen Babacanyan deyib ki, 2020-ci il müharibəsi böyük bir birləşmək siqnalı idi. Diasporun Hayastana kömək etməsi, sonra əl-qolunu çəkməsi onun üçün yolverilməzdir: "Biz eyforiya ilə yaşayırdıq, bu müddət ərzində isə rəqib silahlandı. 2020-ci ilə qədər eyforiya var idi, indi məyusluq var. Hakimiyyətdən asılı olaraq Hayastanı sevmək və ya sevməmək olmaz".

Xatırladaq ki, ötən il Hayastanın Milli Təhlükəsizlik Xidməti "Vətəndaşlıq haqqında" qanuna əlavə və dəyişikliklərin edilməsi ilə bağlı qanun layihəsini ictimai müzakirəyə təqdim etmişdi. Layihədə "diaspor ermənilərinin Hayastan vətəndaşlığı almaları üçün prosedurların sərtləşdirilməsi nəzərdə tutulurdu. Xaricdə yaşayan ermənilər üçün vətəndaşlıq almaq prosedurunun sərtləşdirilməsinin əsas səbəbləri bölgədəki vəziyyət, Hayastan vətəndaşlığı alan şəxslərin sonradan ölkəyə gəlməmələri və erməniliyin xeyrinə fəaliyyət göstərməmələridir.

Proseslər fonunda qeyd etmək olar ki, erməni kilsəsi və diasporunda parçalanmalar nəzərə çarpır. Xüsusilə Fransada bu proses daha ağrılı, ziddiyyətli keçir. Ənənəvi erməni diaspor təşkilatlarına yeni alternativlər yaranır və 1991-ci ildən sonra Fransaya köçən ermənilər bu prosedə daha aktiv şəkildə iştirak edirlər.

Ziddiyyətlərin səbəbləri haqqında Fransada yaşayan erməniəsilli siyasi ekspert Razmik Akopçanyanın tviterdə paylaşımı xüsusi diqqət cəlb edir. O bildirib ki, Hayastanla erməni diasporu arasında qarşılıqlı etimad yoxdur. Müharibə göstərdi ki, Hayastan və diaspor arasındakı uçurum həmişəkindən daha dərindir. Demək olar ki, etimad bağı tamamilə qırılıb. İşgüzar münasibətlərin qurulması üçün sağlam bünövrə yoxdur. İndiyədək Hayastanla erməni diasporu arasındakı əlaqələr əsasən iki istiqaməti - turizm və humanitar yardım sahələrini əhatə edirdi. Bu sıraya məhdud investisiyaları da əlavə etmək olar. Təəssüf ki, bu, təkcə indiki hakimiyyətin problemi deyil və xeyli öncə, Hayastanda müstəqillik hərəkatından və müstəqilliyin əldə edilməsindən sonra yaranıb.

Göründüyü kimi, xaricdə yaşayan ermənilərin siyasi düşüncəsi yoxdur. Onların Hayastan, millət, erməni məsələsi və dövlətə münasibətdə ideyaları həddindən artıq abstraktdır.

İqtisadi durum da getdikcə ağırlaşır. Bunu keçirilən sosioloji sorğular təsdiqləyir. Belə ki, bu günlərdə rəyi soruşulan insanların 38,3 faizi ölkə iqtisadiyyatının pis vəziyyətdə olduğunu düşünür. Respondentlərin 35,6 faizinin fikrincə, Hayastan iqtisadiyyatı çox pis vəziyyətdədir. Əhalinin yalnız 0,6 faizi iqtisadi vəziyyətin çox yaxşı olduğunu bildirib. Hayastanın ümumi dövlət borcunun 11 milyard dolları ötəcəyi də proqnozlaşdırılır ki, siyasi dilemmaların fonunda gözlənilən defolt bu ölkənin xarici borc öhdəlikləri sahəsində ciddi çətinliklər meydana çıxaracaq. Çünki defolt o deməkdir ki, dövlət borc öhdəliklərini vaxtında yerinə yetirə bilmir.

Beləliklə, bir daha aydın olur ki, Hayastan cəmiyyətində pessimizm baş alıb gedir. İqtidar problemlərin həllində çıxılmaz vəziyyətə düşüb, müxalifət isə istədiyinə nail ola bilmir. Bu vəziyyət bütövlükdə ölkədə idarəçiliyi iflic vəziyyətinə salıb.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

*Təkrar*

## "Azərişıq" ASC "Mingəçevir şəhəri ərazisində yerləşən mövcud 35/6 kV-luq 2x10 MVA gücündə "Karxana" yarımstansiyasının 110/35/6 kV-luq 2x40 MVA gücündə yenidənqurulması və 110 kV-luq şəbəkə ilə əlaqələndirilməsi" işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1**

Mingəçevir şəhəri ərazisində yerləşən mövcud 35/6 kV-luq 2x10 MVA gücündə "Karxana" yarımstansiyasının 110/35/6 kV-luq 2x40 MVA gücündə yenidənqurulması və 110 kV-luq şəbəkə ilə əlaqələndirilməsi işlərinin satın alınması - 1500 manat

**Azərişıq ASC**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Əliyev küçəsi, 130 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Namik Heybətov (telefon: 440-39-93 daxili (92-19)) namiq.heybetov@azerishiq.az

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
3. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə;*
4. *İddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış;*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
7. *İddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış;*
8. *İddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd;*
9. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
10. *İddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar, analoji işlərdə təcrübəsi haqqında məlumat;*
11. *İddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat;*
12. *Müvafiq işlər üzrə lisenziya və sertifikatları;*
13. *İddiaçı şirkətin rəhbərinin, habelə işlərini idarə edənlərin satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində məhkum olunmaması haqqında arayış;*
14. *Rəhbər şəxs və ya şəxslərin təyin olunması haqqında sənəd (Əmr);*
15. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
16. *Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (təklifin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır). Arayışların verilmə tarixi cari ay və il üçün qoyulması məcburidir. Hüquqi və digər sənədlərin yalnız əsli, əsli olmadığı halda surəti notarial qaydada təsdiq olunmalıdır. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (https://etender.gov.az/). İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **06 iyul 2023-cü il saat 12:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **14 iyul 2023-cü il saat 12:00-a** qədər Bakı şəhəri, Mirzəağa Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri **17 iyul 2023-cü il tarixdə saat 12:00-da** Mirzəağa Əliyev küçəsi, 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## Tovuz rayonu ərazisində 110/35/10 Kv "Tovuz Şəhər" yarımstansiyasının 2x25 MVA gücündə yenidən qurulması, giriş-çıxış xətlərinin köçürülməsi işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1**

"Azərişıq"ASC-nin Tovuz rayonu ərazisində 110/35/10 Kv "Tovuz Şəhər" yarımstansiyasının 2x25 MVA gücündə yenidən qurulması, giriş-çıxış xətlərinin köçürülməsi işlərinin satın alınması - 850 manat

**"Azərişıq" ASC**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: "Kapital Bank"ın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs: Namik Heybətov
Əlaqə telefonu (şəhər): 012 440 39 93 (daxili 92-19)
Elektron poçt: **namiq.heybetov@azerishiq.az**
Ünvan: Bakı şəhəri, M.Əliyev küçəsi, 130, AZ1009

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzağa Əliyev küçəsi, 130 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir);*
- *iddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir);*
- *iddiaçının Dövlət Statistika Komitəsindən sahibkarlıq kateqoriyası haqqında arayış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki);*
- *müvafiq lisenziya və icazələr;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *iddiaçının fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar;*
- *iddiaçının analoji işlərdə obyektlərin tikintisi üzrə baş podratçı qismində həyata keçirdiyi və tətbiq etdiyi uğurlu ən azı 3 layihənin bitməsinə dair tövsiyə məktubunun və apardığı layihənin ilk və sonuncu sənədlərinin surəti;*
- *podrat müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maddi-texniki bazasının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olmasını təsdiq edən sənəd;*
- *iddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə tərtib olunan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir **(www.tender.gov.az)**.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **06.07.2023-cü il saat 15:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **17.07.2023-cü il saat 15:00-a** qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **18.07.2023-cü il tarixində saat 15:00-da** Mirzağa Əliyev küçəsi, 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərenerji" ASC tərəfindən 06.02.2023-cü il və 17.02.2023-cü il tarixlərində elan edilmiş

- **330/110/10 kV-luq "Ələt Azad İqtisadi Zona" Yarımstansiyanın tikintisi, "Qobu" Elektrik Stansiyasının 330 kV-luq Açıq Paylayıcı Qurğuda və "Cənub" Elektrik Stansiyasının 330 kV-luq Qapalı Paylayıcı Qurğuda genişlənmə tədbirlərinin icrası, yeni xətt üçün əlavə 330 kV-luq yuvaların quraşdırılması işlərinin satın alınması;**
- **330 kV-luq "Qobu Elektrik Stansiyası - Ələt AİZ Yarımstansiyası" Elektrik Veriliş Xəttinin tikintisi işlərinin satın alınması;**
- **330 kV-luq "Cənub Elektrik Stansiyası - Ələt AİZ Yarımstansiyası" Elektrik Veriliş Xəttinin tikintisi işlərinin satın alınması məqsədilə müsabiqələrin müddəti podratçının sorğusuna əsasən uzadılır.**

İddiaçıların tenderdə iştirak etmək üçün sənədlərin son təqdim olunma tarixi (tender təklifi və bank təminatı istisna olmaqla) 04 iyul 2023-cü il saat 15:00-dək uzadılır.

Bank təminatının və tender təklifinin son təqdim olunma tarixi 12 iyul 2023-cü il saat 15:00-dək uzadılır.

İddiaçıların tender təkliflərinin açılışı 13 iyul 2023-cü il saat 15:00 tarixinə keçirilir. Tender təklifləri Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanda (onlayn qaydada) açılacaqdır.

***Tender komissiyası***


# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə elektromexaniki alətlərin satın alınması məqsədilə

### *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 19 iyun 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1053.**

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankında istifadə olunan informasiya təhlükəsizliyi sistemlərinin lisenziyalarının 1 il müddətinə uzadılması və dəstəklənməsi xidmətinin satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tender üzrə Satınalmalar komissiyasının 13 aprel 2023-cü il tarixli qərarına əsasən, "B AND B SECURİTY ALLİANCE LİMİTED" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

# Ötən həftə 146 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən minatəmizləmə əməliyyatları barədə həftəlik məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, iyunun 5-dən 10-dək Tərtər, Ağdam, Xocavənd, Laçın, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 16 mina, tank əleyhinə 26 mina və 57 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həftə ərzində 146 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.




# İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sisteminə ilk inteqrasiya uğurla tamamlanıb

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sisteminə inteqrasiya olunmaqla elektron sənəd mübadiləsinə start verilib.

Xidmət elektron sənəd dövriyyəsi sistemləri arasında təhlükəsiz mübadilənin həyata keçirilməsi üçün yeni inteqrasiya standartlarını (şərtlərini) hazırlayaraq təsdiq edib. Hazırda dövlət qurumları istifadələrində olan istənilən elektron sənəd dövriyyəsi sistemlərini təhlükəsizlik auditindən müsbət rəy almaqla, inteqrasiya standartına uyğun olaraq İdarələrarası Elektron Sənəd Dövriyyəsi sisteminə qoşmaq üçün Xidmətə müraciət ünvanlayaraq, qurumlararası kağızsız sənəd dövriyyəsində iştirak edə bilərlər.

AZƏRTAC xəbər verir ki, 147 dövlət qurumunun istifadəçisi olduğu İdarələrarası Elektron Sənəd Dövriyyəsi sisteminə istifadəçilər mühafizə edilən rabitə kanalları ilə qoşulmaqla, icazəsiz daxilolmalardan və təhrifetmələrdən qorunurlar.

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin brifinqində bildirilib ki, İdarələrarası Elektron Sənəd Dövriyyəsi sisteminə ilk olaraq 24 dövlət qurumunun istifadəçisi olduğu Mərkəzləşdirilmiş Elektron Sənəd Dövriyyəsi sistemi inteqrasiya edilib. Bununla da 14 min istifadəçisi olan 24 dövlət qurumunun daxili sənəd dövriyyəsi sistemindən 147 dövlət qurumu ilə birbaşa təhlükəsiz kanallarla elektron sənəd mübadiləsinə imkan yaradılmış olub.

Hazırda digər dövlət qurumlarının daxili sənəd dövriyyəsi sistemlərinin İdarələrarası Elektron Sənəd Dövriyyəsi sisteminə inteqrasiyası mərhələli şəkildə etibarlı kanallarla təmin ediləcək. Cari ilin sonuna kimi daxili sənəd dövriyyəsi sistemləri hazır olan digər dövlət qurumlarının da İdarələrarası Elektron Sənəd Dövriyyəsi sisteminə inteqrasiyası planlaşdırılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Rəqəmsal idarəetmə şöbəsinin müdiri Anar Nərimanova əzizi **HACIBALA NƏRİMANOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəhbərliyi və kollektivi qurumun əməkdaşı **EMİN RƏSULOVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Xarici Aktivlərin İdarəedilməsi Departamentinin direktoru Əlipaşa Qaybaliyevə bacısı **GÜLLƏR XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5772
Sifariş 1495

Qiyməti 40 qəpik